Xalqın qəzeti!

# Xalq qəzeti

№ 216 (30910) 8 oktyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Türk dövlətləri birliyi Avrasiyada yeni güc mərkəzidir

## Qəbələdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü

*Prezident İlham Əliyev məclisdə çıxış etdi*




**Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə Görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı, birgə foto çəkdirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan və Rusiya liderlərinin dialoqu



**Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.**

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidentini doğum günü münasibətilə təbrik edib.

Vladimir Putin təbriklərə görə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Rusiya arasında əlaqələrin mövcud vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## TRIPP qlobal logistika zəncirinin önəmli halqasıdır

*TDT-nin Qəbələ sammiti bu gerçəyi də gündəmə gətirdi*




**Əslində, 2025-ci ilin 8 avqustunda Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannamə Cənubi Qafqaz regionunun geoiqtisadi mənzərəsini dəyişə biləcək strateji yeniliyi gündəmə gətirmiş oldu. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanan yeni layihə Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirməklə yanaşı, Orta Dəhlizin mühüm seqmentinə çevrilmək potensialına malikdir. Bu vacib məsələ Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələ şəhərində keçirilən XII Zirvə görüşündə də diqqətə alındı.**

*(ardı 6-cı səhifədə)*

## "Stratfor" Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiyanı necə görür?




**Hazırda qlobal miqyasda baş verən proseslərlə bağlı əsaslı proqnozlar vermək olduqca çətindir. Bu, bütövlükdə geosiyasi mənzərənin risklər və qeyri-müəyyənliklərlə müşayiət olunması, həmçinin onların vahid nəzəri çərçivəyə salınmasının getdikcə mürəkkəbləşməsi ilə izah olunur. Bununla belə, bir sıra nüfuzlu "beyin mərkəzləri" müəyyən geosiyasi məkanlara dair proqnozlar verə bilirlər. Məhz bu kontekstdə ABŞ-ın "Stratfor" analitik mərkəzi Cənubi Qafqaz regionuna dair bir sıra proqnostik tezislər irəli sürüb. Biz onların üzərində bir qədər geniş dayanmağa ehtiyac duyduq.**

*(ardı 8-ci səhifədə)*

## Bakının sülh sədası Parisdə səsləndi




Səhifə ⇨ 8

## TDT və Azərbaycan: gücün sülh diktəsi



Səhifə ⇨ 7

## Türk dünyasında yeni sülh və güc arxitekturası



Səhifə ⇨ 6

## Halal dəyərlərlə qlobal əməkdaşlığa doğru

*Bakıda yeni iqtisadi platforma müzakirələri*

**Dünən Bakıda Azərbaycan Halal Biznes Forumu (AZHAB) öz işinə başladı. Məclis İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə reallaşdırılır və "Sürətlə dəyişən dünyada halal sənaye – dayanıqlılığın açarı" mövzusunu əhatə edir. İki gün davam edəcək bu beynəlxalq platforma investisiya və ticarət əlaqələrinin genişləndirilməsi, yeni tərəfdaşlıqların qurulması, eləcə də fikir və təcrübə mübadiləsinin gücləndirilməsini hədəfləyir. Forumda 30-dan çox ölkədən rəsmi şəxslər, ekspertlər, akademik dairələrin nümayəndələri, iş adamları iştirak edir, halal sənayenin inkişaf perspektivlərini müzakirə edirlər.**



*(ardı 10-cu səhifədə)*

# Qəbələdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü

**(əvvəli 1-ci səhifədə)**

## Prezident İlham Əliyevin çıxışı




– Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz. Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi.

İlk növbədə, Türk Dövlətləri Təşkilatına (TDT) uğurla sədrlik etmiş Qırğız Respublikasına təşəkkürümü bildirirəm.

Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.

Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür.

Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.



Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü və bu il Budapeştdə baş tutmuş görüşümüz mühüm qərarlarla yadda qalmışdır.

Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir.

Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilmişdir.

Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm.

Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda, bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir.

İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda, ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı.

Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi.







Biz Ermənistan işğalını heç vaxt unutmayacağıq. Şəhidlərimizin əziz xatirəsini həmişə qəlbimizdə saxlayacağıq. Onların qanını biz döyüş meydanında aldıq. İşğalçını əzəli torpaqlarımızdan qovduq, Zəfər çaldıq və eyni zamanda, ədalətli sülhə nail olduq.

Əziz dostlar, nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır.

2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir.

Sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəhlizi üzərində işləyirik.

TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək.

Ümumilikdə, atılan addımlar Türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir.

Qeyd etdiyim kimi, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim.

Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm.

Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəkdir.

Çıxışımın sonunda Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi – bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Sağ olun.

***

Zirvə Görüşü digər dövlət və hökumət başçılarının çıxışları ilə davam edib.

Göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edən **Qırğız Respublikasının Prezidenti Sadır Japarov** dedi: "Cənab Baş katib, hörmətli dövlət başçıları. Əvvəlcə mən İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına göstərilən qonaqpərvərliyə və bu görüşün keçirilməsinə görə təşəkkür edirəm. Qəbələ iki min illik tarixə malik qədim bir şəhərdir və bizim burada yığışmağımız heç də təsadüfi deyil. Oktyabrın 3-də 16 illiyi tamam olan Naxçıvan Sazişi olduqca vacib bir sənəddir. Bu qısa dövr ərzində təşkilatımız dinamik şəkildə inkişaf edib və regional səviyyədə nüfuzunu gücləndirib".

Qırğızıstan Prezidenti ölkəsinin hər zaman sülhün, sabitliyin və mehriban qonşuluğun tərəfdarı olduğunu vurğulayaraq bildirib: "Biz Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın Baş naziri arasında imzalanmış Birgə Bəyannaməni alqışlayırıq. Bu, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsini göstərir və bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və etimad qurulacaq. Bu sahədə Zati-aliləri İlham Heydər oğlu Əliyevin məhz sülh prosesinə olan töhfəsini xüsusi qeyd etmək istəyirəm".

Prezident Sadır Japarov 2026-cı ildə Dünya Köçəri Oyunlarının ölkəsində keçiriləcəyini vurğuladı və Zirvə Görüşünün iştirakçılarını fəxri qonaq qismində həmin Oyunlara dəvət etdi.

"Bu Zirvə Görüşü çərçivəsində Qırğız Respublikası təşkilata sədrliyini başa çatdırır və onu qardaş Azərbaycana ötürür. Əminəm ki, Azərbaycanın sədrliyi çərçivəsində təşkilat öz inkişafını davam etdirəcək və beynəlxalq müstəvidə nüfuzunu daha da artıracaq. Eyni zamanda, türk xalqlarının firavanlığına yönəlmiş bütün təşəbbüslər inkişaf edəcək", - deyə Sadır Japarov bildirib.

***

Türkdilli xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayan **Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev** Azərbaycan Prezidenti İlham Əliyevə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür etdi. Qazaxıstan Prezidenti Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində imzalanmış Birgə Bəyannaməni tarixi addım adlandıraraq dedi: "Mən Azərbaycan ilə Ermənistan arasında sülhlə bağlı Birgə Bəyannamənin imzalanmasını təqdir etmək istəyirəm və inanıram ki, bu, 30 il davam edən münaqişənin həllində mühüm tarixi addım olacaq. Bu gün mövcud geosiyasi vəziyyətin fonunda türk dövlətləri arasındakı birlik çox vacibdir. Əziz qardaşlar, məşhur Azərbaycan şairi Bəxtiyar Vahabzadə vaxtilə qeyd etmişdir ki, "Türkün türklə ədavətə haqqı yoxdur". Bizim ağsaqqalların dedikləri bu kimi sözləri çox yüksək tutmalı və türk dövlətlərini bir araya gətirməkdə əlimizdən gələni etməliyik. Növbəti sədrlik bizim azərbaycanlı qardaşlarımıza keçir. Bu işdə Prezident İlham Əliyevə təşəkkür edir və uğurlar diləyirəm".

Kasım-Jomart Tokayev Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında yaradılmış yaşıl enerji dəhlizini Türk dünyasında uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirib.

**(ardı 3-cü səhifədə)**

# Qəbələdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü

**(əvvəli 2-ci səhifədə)**

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan** çıxışında türk xalqlarının mədəni irsini qorumaqla yanaşı, süni intellekt texnologiyalarını da fəal şəkildə inkişaf etdirəcək böyük türk dili modelinin tətbiqinin vacibliyindən danışıb. O, həmçinin ölkəsinin Cənubi Qafqazda baş verənləri izlədiyini, bölgədə sülhə və sabitliyə töhfə verəcək addımların əhəmiyyətini vurğulayaraq deyib: "Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni bu baxımdan xeyirli addım olaraq görür, davamının gəlməsini arzulayırıq. Bu gün bir daha türk dövlətləri olaraq aramızdakı həmrəylik, qarşılıqlı hörmət və qardaşlıq ruhu ilə gələcəyə əmin addımlarla irəlilədiyimizi göstərdik. Biz böyük Türk dünyasını daha da gücləndirərək övladlarımıza miras qoyacağıq. Bir azdan imzalayacağımız Qəbələ Bəyannaməsinin və qəbul edəcəyimiz qərarların Türk dünyası başda olmaqla, bütün dost və qardaş ölkələrə xeyirli olmasını diləyir, Azərbaycana və dəyərli qardaşım hörmətli Əliyevə mükəmməl ev sahibliyi üçün yenidən təşəkkürümü çatdırır, Türk Dövlətləri Təşkilatının üzvü olan dost və qardaş ölkələrin xalqlarına ən səmimi sevgilərimi göndərirəm".













***

Türk dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat əlaqələrinin inkişafı istiqamətində atılan addımların əhəmiyyətini qeyd edən **Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev** Azərbaycanla Ermənistan arasında sülh danışıqları prosesinə toxunaraq bildirdi: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə yüksəksəviyyəli təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizin təşəbbüsləriniz sayəsində biz son illərdə Azərbaycanın müxtəlif guşələrini ziyarət etmişik. Bu gün biz gözəl Qarabağın inkişafının, Şuşa, Xankəndi və Ağdam şəhərlərində həyata keçirilən işlərin şahidiyik. Biz Sizin yaxın dostlarınız kimi bu inkişafa olduqca sevinirik. Heç bir mübaliğəsiz demək olar ki, Ermənistanla imzaladığınız sülhlə bağlı Birgə Bəyannamə məhz Sizin siyasi iradəniz sayəsində mümkün olmuşdur və bu, türk dövlətlərinin birgə nailiyyətidir. Bu Bəyannamə ilə iqtisadiyyat, ticarət, nəqliyyat və humanitar sahələrdə də geniş əməkdaşlıq imkanları açılır".







***

**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov** hazırda dünyadakı vəziyyət fonunda ölkələrimiz arasında əməkdaşlığın, sülhün, sabitliyin və etimadın gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd etdi: "İlk növbədə, mən əziz qardaşım, Zati-aliləri İlham Heydər oğlu Əliyevə bu tədbirdə iştirak etmək üçün dəvətinə və mənə göstərilmiş səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Türk Dövlətləri Təşkilatı birgə tarixə, mədəniyyətə, irsə və dilə malik qardaş xalqları bir araya gətirir. Təşkilatın əsas hədəfi həmrəyliyi, dostluğu və qardaşlığı gücləndirmək, regional və beynəlxalq səviyyədə birgə fəaliyyəti təşviq etməkdir".

***

**Macarıstanın Baş naziri Viktor Orban** çıxışında türk dövlətləri arasında bəşəri dəyərlərin qorunduğu, sabitliyin və qarşılıqlı inamın hökm sürdüyü bir mühiti müşahidə etməsindən məmnunluğunu bildirdi, dövlətimizin başçısının həyata keçirdiyi bərpaolunan enerji layihələrini, sülhə və əməkdaşlığa verdiyi önəmi vurğuladı. "Hörmətli cənab Prezident, Sizin heyrətamiz nailiyyətləriniz, iqtisadiyyatın inkişafı, bərpaolunan enerji resursları və bu sahəyə qoyulan sərmayə onun sübutudur ki, Mərkəzi Asiya regionu və bu region Avropa İttifaqının "qızıl ehtiyatı"dır. Cənab Prezident Əliyevə təşəkkür edirəm ki, Azərbaycanın ən mühüm qaz yatağında macar şirkətinin iştirakı üçün şərait yaratdı. Bu, bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Prezident Əliyevi və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz təkcə dost deyilik, biz strateji tərəfdaşıq", - deyə Baş nazir əlavə edib.












***

Azərbaycanın qədim tarixi şəhəri olan Qəbələdə keçirilən Zirvə Görüşünə dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərindən təşəkkür etdiyini bildirən **Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar** dedi ki, bu Zirvə Görüşünün ortaq tariximizə qızıl hərflərlə yazılmış Qarabağ Zəfərinin beşinci ildönümünə təsadüf etməsi mühüm məna daşıyır. "Qardaş Azərbaycanın qətiyyəti, cəsarəti və haqlı mübarizəsi ilə qazandığı bu Qələbə yalnız ərazilərinin işğaldan azad edilməsi deyil, ədalətin və milli qətiyyətin zəfəridir.

Bu, böyük Türk dünyasının ortaq zəfəridir. Qarabağ Zəfəri bizə bir daha göstərdi ki, Türk dünyası birlikdə olanda hər çətinliyin öhdəsindən gəlmək mümkündür. Həmrəy şəkildə fəaliyyət göstərən türk dövlətləri yalnız öz təhlükəsizliyini deyil, regionda sülhün, sabitliyin və rifahın ən güclü təminatçısıdır. Şimali Kipr Türk Cümhuriyyəti olaraq biz Azərbaycanın haqlı mübarizəsində hər zaman yanında olduq və bundan sonra da olacağıq. Biz eyni coğrafiyanın, eyni mədəniyyətin, eyni kökdən bəslənən ortaq tarixin mirasçılarıyıq. Biz bu gün yalnız bir araya gəlmirik, eyni zamanda, ortaq gələcəyimizi birlikdə formalaşdırırıq. Bu mühüm Zirvə Görüşündə bizi səmimi qonaqpərvərliklə qarşılayan Azərbaycan Prezidenti, Qarabağ fatehi cənab İlham Əliyevə bir daha təşəkkürümü bildirmək istəyirəm", - deyə E.Tatar bildirdi.

***

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev** çıxışında qeyd etdi ki, qədim Qəbələ şəhərində bir araya gəlmək, xüsusilə də Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanması ilə bağlı Birgə Bəyannamənin imzalanmasından sonra toplaşmaq çox mühüm rəmzi məna daşıyır. O dedi: "Hörmətli dövlət və hökumət başçıları, Vaşinqtonda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, Türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək. Zəngəzur dəhlizinin açılması qədim İpək Yolunun bərpası ilə yanaşı, bizim ölkələr üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq. Çin, Qırğızıstan, Özbəkistan dəmir yolu layihəsi istismara verildikdən sonra Orta Dəhlizin strateji əhəmiyyəti daha da artacaq".

"Bu gün Türk Dövlətləri Təşkilatı mühüm regional təşkilata çevrilir", - deyən Baş katib Türk Universitetlər Birliyinin Daimi Katibliyinin və xüsusi proqram fondunun təsis edildiyini bildirdi və qeyd etdi ki, Azərbaycanın ianə etdiyi 2 milyon ABŞ dollarının bir hissəsi məhz bu layihənin maliyyələşdirilməsinə yönəldiləcək.

Azərbaycanın təşkilata sədrliyinin əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi əlaqələrin gücləndirilməsi və qarşılıqlı tərəfdaşlığın inkişafında uğurlu olacağına əminliyini bildirən Kubanıçbek Ömüralıyev dedi: "Bu gün tərəfinizdən qeyd edilən vacib fikirlər və irəli sürülmüş təkliflər Qəbələ Bəyannaməsinə və bizim Katibliyin fəaliyyət planına daxil ediləcək. Tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Zati-aliləri cənab İlham Əliyevə bir daha təşəkkür edirəm".

***

Zirvə Görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

– Hörmətli həmkarlar.

Əziz dostlar.

Bugünkü müzakirələrə verdiyiniz dəyərli töhfələr üçün hər birinizə təşəkkür edirəm. Səsləndirilən bəyanatlar və fikirlər Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyəti üçün əhəmiyyətli istiqamətləri müəyyən edir.

Təşkilatımızın Katibliyinə və Ağsaqqallar Şurasına ümumi işimizə verdikləri töhfəyə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bugünkü Zirvə Görüşü dostluğumuzu, qardaşlığımızı daha da gücləndirəcək.

Sağ olun!

***

Sonra Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşünün Bəyannaməsinin imzalanması mərasimi oldu.

***

Daha sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Əziz dostlar.

Əziz qardaşım, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyul ayında Qarabağa səfəri zamanı Füzulidə Türkmənistan tərəfindən məscidin tikintisini təklif edib. Biz bu hədiyyəyə görə qardaş Türkmənistana təşəkkür edirik.

Bu Zirvə Görüşü çərçivəsində məscidin təməlqoyma mərasimi nəzərdə tutulub.

İndi bütün qardaş ölkələrin rəhbərlərini təməlqoyma mərasiminə dəvət edirəm.

***

Sonra məscidin təməlqoyma mərasimi keçirildi.

# Türkmənistanın Füzulidə tikəcəyi məscidin onlayn formatda təməli qoyulub





**Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar.**

Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.

# TDT-nin Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar



**Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib.**

*AZƏRTAC*

# Prezident İlham Əliyevin Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb.**

Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşləri, həmçinin onun bu ilin iyulunda ölkəmizə səfəri məmnunluqla xatırlandı.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, bu sammitin türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi və xalqlararası əlaqələrin daha da inkişaf etdirilməsində rolu vurğulandı.

Görüşdə qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkmənistan dövlətlərarası əlaqələrinin hazırkı səviyyəsi yüksək qiymətləndirildi, xalqlarımızı dərin qardaşlıq ənənələrinin birləşdirdiyi qeyd olundu. Siyasi, iqtisadi, nəqliyyat, energetika, parlamentlərarası, humanitar, mədəni, təhsil və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığına toxunuldu.

Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

# Xorvatiya parlamenti sədrinin Azərbaycana səfəri



**Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin rəhbərliyi ilə nümayəndə heyəti oktyabrın 7-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Xorvatiya parlamentinin sədrini parlament sədrinin müavini Musa Qasımlı, hər iki ölkənin səfirləri Anar İmanov, Branko Zebiç və digər rəsmi şəxslər qarşılayıblar.

# Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfəri başa çatıb



**Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycan Respublikasına səfəri oktyabrın 7-də başa çatıb.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş naziri Viktor Orbanı Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər yola salıblar.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda




**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 7-də Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

# Türkmənistan Xalq Məsləhətinin Sədri Qəbələyə gəlib




**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 7-də Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovu hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

# TDT Xarici İşlər Nazirləri Şurasının toplantısı



**Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirilib. İclas TDT Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşü çərçivəsində baş tutub.**

Toplantıda açılış nitqi ilə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, beynəlxalq qurumlara inamın sarsıldığı dövrdə TDT-yə üzv ölkələr arasında qardaşlıq və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq əlaqələrinin dinamikası hamımız üçün təkcə qürur mənbəyi deyil, həm də gələcəyə ümidlə baxmağımıza möhkəm əsasdır. “Bu gün təşkilatımızın daha da gücləndirilməsi üçün üzv dövlətlərin təkliflərini dinləyəcəyik. Prezident İlham Əliyevin təşəbbüsü ilə TDT-nin illik Zirvə görüşlərinin sayının 2-yə çatdırılması əməkdaşlıq imkanlarımızın çevik, dərin və ətraflı müzakirəsi üçün fürsət yaradıb”, - deyə nazir əlavə edib.

Mövcud qlobal və regional təhlükəsizlik çağırışlarının qarşısında hərtərəfli siyasi koordinasiya və həmrəylik nümayişinin son dərəcə vacib olduğuna diqqət çəkən C.Bayramov qeyd edib ki, formalaşmaqda olan yeni beynəlxalq təhlükəsizlik arxitekturasında TDT-nin gücü birliyin rəmzi kimi daha mühüm rol oynamaq potensialına malikdir.

Nazir diqqətə çatdırıb ki, TDT-yə üzv dövlətlər coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xətlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır. “Təşkilat bu istiqamət üzrə nəhəng imkanlara malikdir. Bu xətt, eyni zamanda, Orta Dəhlizin ayrılmaz parçasıdır. Vaşinqton Zirvə Görüşü çərçivəsində Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək TRIPP marşrutunun bəyan edilməsi regionumuzda bağlantıların şaxələndirilməsi baxımından mühüm addımdır”.

TDT-nin Xarici İşlər Nazirləri Şurasının toplantısı işini müzakirələrlə davam etdirib.

*

**Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının toplantısı çərçivəsində bir sıra vacib sənədlər təsdiq edilib.**



İclasda qəbul olunan sənədlər TDT-nin institusional əsaslarının möhkəmləndirilməsinə, üzv və müşahidəçi dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

İclasda aşağıdakı qərarlar qəbul olunub:

1. Türk Akademiyasının Prosedur Qaydalarının 1-ci və 4-cü maddələrinə düzəliş edilməsi haqqında Qərar;
2. Türkmənistana Türk Akademiyasında müşahidəçi statusunun verilməsi haqqında Qərar;
3. Türkmənistana Türk Mədəniyyəti və İrsi Fondunda müşahidəçi statusunun verilməsi haqqında Qərar;
4. TDT Katibliyinin 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
5. TDT Katibliyinin 2024-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
6. Türk Akademiyasının 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
7. Türk Mədəniyyəti və İrsi Fondunun 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə).

# Liderlərin Zirvə görüşü: Keçmiş romantizmdən çağdaş praqmatizmə





**Oktyabrın 6–7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) XII Zirvə Görüşü keçirildi. Təsadüfi deyil ki, bu görüş üçün məhz Qəbələ seçildi: tarixən Qafqazın strateji qapısı sayılan bu şəhər bu dəfə türklərin birliyinin rəmzinə çevrildi.**

Bu Zirvə sadəcə diplomatik protokol deyil, həm də siyasi məna daşıyan bir mesaj idi: türk dövlətləri artıq mədəni və dil birliyindən çıxaraq, real iqtisadi, siyasi və təhlükəsizlik sisteminə çevrilmək yolundadır.

Bir zamanlar “türk birliyi” ifadəsi yalnız romantik ideya kimi səslənirdi. Lakin bu gün bu birlik artıq iqtisadi reallıqlarla ölçülür. Orta Dəhliz layihəsi, Zəngəzur koridoru, enerji və nəqliyyat xətlərinin inteqrasiyası, birgə ticarət platformalarının yaradılması TDT-ni simvolik təşkilatdan strateji güc mərkəzinə çevirib.

Bu Zirvə Qəbələdə göstərdi ki, təşkilatın mahiyyəti artıq “qardaşlıq”dan ibarət deyil – burada “ortaq maraqlar” və “ortaq gələcək” anlayışları formalaşır. Türk dünyası yalnız bir bayraq altında deyil, həm də bir iqtisadi məntiq ətrafında toplanır.

Prezident İlham Əliyevin Zirvədəki çıxışı türk birliyinin gələcək yol xəritəsini müəyyənləşdirdi. O, açıq şəkildə bildirdi ki, Türk Dövlətləri Təşkilatı regionda sülhün, əməkdaşlığın və sabitliyin əsas dayaqlarından birinə çevrilib. Azərbaycanın Qarabağ zəfərindən sonra türk coğrafiyasındakı nüfuzu təkcə hərbi yox, həm də siyasi reallığa çevrilib.

Bu gün Bakı artıq “birləşdirən mərkəz” funksiyasını daşıyır: enerji resurslarından kommunikasiya dəhlizlərinə, mədəni platformalardan humanitar layihələrə qədər hər sahədə Azərbaycan türk dünyasının əlaqə nöqtəsidir.

Bütün bu proseslər fonunda TDT-nin güclənməsi və genişlənməsi müəyyən dövlətlərdə, xüsusilə Rusiya və İranda narahatlıq doğurur. Rusiya üçün bu birlik postsovet məkanında yeni, Moskvanın təsir dairəsinə alternativ siyasi qütb kimi görünür. Kremlin ənənəvi “yumşaq hegemonluq” modeli Mərkəzi Asiyada getdikcə zəifləyir və TDT bu boşluğu öz inteqrasiya ideyası ilə doldurur.

İran üçün isə TDT-nin güclənməsi həm iqtisadi, həm də geosiyasi baxımdan risk yaradır. Zəngəzur dəhlizi ideyası Tehranın regionda tranzit mərkəz statusuna zərbə vurur və İranın Qafqazda siyasi təsir imkanlarını azaldır. Bundan başqa, türk dövlətlərinin ortaq ideoloji xəttinin formalaşması Tehran üçün kimlik və nüfuz məsələsində əlavə çağırışdır.

Nəticə etibarilə, Türk Dövlətləri Təşkilatı artıq yalnız mədəni yaxınlığın simvolu deyil, konkret maraqlara əsaslanan və real təsir gücü formalaşdıran siyasi platformadır. Bu platforma Türk dünyasını vahid strategiya ətrafında birləşdirir, iqtisadi, hərbi və ideoloji koordinasiyanı möhkəmləndirir. TDT-nin inkişafı ilə Avrasiyada yeni güc balansı formalaşır və bu, təkcə Türk xalqları üçün deyil, bütün region üçün yeni siyasi reallığın başlanğıcı deməkdir.

Qəbələdə keçirilən Zirvə göstərdi ki, TDT artıq bir mədəni forumdan daha böyük bir amilə çevrilib. Burada qərarlar, sənədlər və bəyanatlar təkcə yazılı mətn deyil — türk dünyasının gələcəyinin planıdır.

Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti kimi üzvlərin və müşahidəçilərin bir masa arxasında əyləşməsi, əslində, Avrasiya coğrafiyasında yeni bir siyasi xəritənin çəkildiyini göstərir.

Qəbələ Zirvəsi bir daha sübut etdi ki, türk birliyi artıq xəyal deyil – bu, XXI əsrin geosiyasi reallığıdır. Bu birlik enerji və nəqliyyat xətlərinin, iqtisadi əməkdaşlığın, ortaq mədəniyyətin və qarşılıqlı hörmətin üzərində qurulub.

TDT-nin gücü ondadır ki, o, keçmiş romantizmi bugünkü praqmatizmə çevirə bilib. Qəbələdə səslənən hər çıxış, hər razılaşma bir məqsədə xidmət edir – Türk dünyasının səsini daha aydın, daha güclü və daha müstəqil etmək!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

# TRIPP qlobal logistika zəncirinin önəmli halqasıdır

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham Əliyev dünən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə çıxışında Vaşinqton sammitinin önəmli nəticələrindən biri kimi Zəngəzur dəhlizinin – TRIPP marşrutunun açılmasını xüsusi qeyd etdi. Azərbaycan lideri Zəngəzur dəhlizinin həm Orta Dəhliz, həm də Şimal–Cənub marşrutu çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb etdiyini və bu xəttin işə düşməsinin bütün tərəflərin maraqlarına cavab verəcəyini bildirdi.

Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlərin qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxardığını vurğulayan dövlət başçısı qeyd etdi ki, Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Təkcə Azərbaycan üçün deyil, bölgə ölkələri, hətta Avropa üçün xüsusi əhəmiyyət daşıyan və reallaşmasına ABŞ kimi supergücün qol çırmadığı TRIPP layihəsinin TDT üzvlərinin də maraq dairəsinə düşdüyü şübhəsizdir. Bəli, regionun dayanıqlı inkişafına xidmət edəcək transmilli layihələrin gerçəkləşməsi tərəflər arasında əməkdaşlığın daha məzmunlu və uzunmüddətli xarakter almasına rəvac verəcək. Bu zaman iqtisadi potensialın güclənməsi ilə yanaşı, TDT-yə üzv ölkələr arasında qarşılıqlı investisiyaları təşviq edəcək, ticarət əlaqələrinə yeni nəfəs verəcək.

***

Prezident İlham Əliyevin TRIPP-lə bağlı səsləndirdiyi fikirləri TDT Xarici İşlər Nazirləri Şurasının toplantısında Azərbaycan XİN-in başçısı Ceyhun Bayramov tərəfindən davam etdirildi deyə bilərik. Nazir çıxışında bildirdi ki, TDT-yə üzv dövlətlər coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xəttlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır. Təşkilatın bu istiqamət üzrə nəhəng imkanlara malik olduğuna diqqət çəkən C.Bayramov, eyni zamanda, TRIPP-i həm də Orta Dəhlizin ayrılmaz parçası, qlobal təchizat zəncirinin mühüm halqası kimi səciyyələndirdi: “Vaşinqton Zirvə görüşü çərçivəsində Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək TRIPP marşrutunun bəyan edilməsi regionumuzda bağlantıların şaxələndirilməsi baxımından mühüm addımdır”.

Bundan başqa, ortaq dil, tarix və ənənələrə söykənən, Naxçıvan müqaviləsi ilə təməli qoyulan Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi, iqtisadi və mədəni istiqamətlər daxilində 35-dən çox sahədə əməkdaşlığın inkişaf etdirildiyini ayrıca qeyd edən Azərbaycan xarici işlər nazirinin sözlərinə görə, beynəlxalq qurumlara inamın sarsıldığı dövrdə TDT üzvləri arasında qardaşlıq və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq əlaqələrinin dinamikası təkcə qürur mənbəyi deyil, gələcəyə ümidlə baxmağa möhkəm əsasdır: “Bu gün təşkilatımızın daha da gücləndirilməsi üçün üzv dövlətlərin təkliflərini dinləyəcəyik. Prezident İlham Əliyevin təşəbbüsü ilə TDT-nin illik Zirvə görüşlərinin sayının ikiyə çatdırılması əməkdaşlıq imkanlarımızın çevik, dərin və ətraflı müzakirəsi üçün fürsət yaradıb”.

TDT-nin Qəbələ sammitində çıxışların əsas leytmotivi mövcud qlobal və regional təhlükəsizlik çağırışlarının qarşısında Türk dünyasının hərtərəfli siyasi koordinasiya və həmrəylik nümayiş etdirməsinin vacibliyi idi. C.Bayramovun çıxışında qeyd




etdiyi kimi, formalaşmaqda olan yeni beynəlxalq təhlükəsizlik arxitekturasında TDT gücü birliyin rəmzi kimi daha mühüm rol oynamaq potensialına malikdir.

Qəbələdə yüksək tribunadan səslənən fikirlərdə ən əsas vurğu, təbii ki, sülh idi. Həqiqətən də ölkəmizin onilliklər boyu “nə hərb, nə də sülh” vəziyyətində olduğu Ermənistan ilə normallaşma prosesi istiqamətində atdığı konkret addımlar, göstərdiyi ardıcıl səylər regionumuzda sülh və sabitliyin bərqərar edilməsinə hesablanıb. İndi bu faydalı fəaliyyətin bəhrəsinin göründüyü dövr başlamalıdır.

Yenidən TRIPP layihəsinin reallaşması məsələsinə qayıdaraq onu da qeyd edək ki, bu proje regionda siyasi dinamikanı dəyişmək gücünə malikdir. Tramp marşrutunun əməkdaşlıq üçün yeni platforma yaratdığı, bölgə dövlətlərinin qarşılıqlı maraqlar əsasında bir araya gəlməsini təşviq etdiyi birmənalıdır. TRIPP eyni zamanda, gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpaolunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər. Azərbaycan bu marşrutun yaxın zamanlarda reallaşması üçün bütün səylərini səfərbər edib.

**PS .** *“TRIPP ABŞ-la Ermənistan arasında razılaşdırılmış biznes modeli kimi Ermənistan ərazisində fəaliyyət göstərəcək və onlarla kilometr müxtəlif infrastrukturdan ibarət olacaq”. Ermənistanın Baş naziri Nikol Paşinyan BMT Baş Assambleyasında çıxışı zamanı TRIPP marşrutunun həm regional, həm də qlobal əhəmiyyəti və təsiri olacağını söyləmişdi: “Beləliklə, avqustun 8-də Vaşinqtonda elan edilmiş TRIPP marşrutu əsasında Vaşinqton bəyannaməsinə uyğun olaraq, Ermənistan və Azərbaycan arasında dövlətdaxili, ikitərəfli və beynəlxalq daşımalar üçün kommunikasiyaların açılması dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına hörmət əsasında həyata keçiriləcək. Bu, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan Respublikasının ərazisindən keçməklə maneəsiz əlaqəni əhatə edəcək və beynəlxalq və dövlətlərarası əlaqə üçün qarşılıqlı fayda verəcək”.*

***İmran BƏDİRXANLI***
***XQ***



### *Ekspert rəyi*



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

Bu gün insanların ən çox ehtiyac duyduğu aydınlıq və müəyyənlik vəziyyətidir. İnsanlar və ölkələr arasında kommunikasiyaların fəal işləməsi isə vacib amillərdən biridir. Əgər yollar açıqdırsa, deməli, ticarət, mübadilə, gediş-gəliş üçün imkanlar yaranır. Bu baxımdan, dəhlizlər, keçidlər, tranzit marşrutları ilə zəngin Avrasiya məkanına kənar qüvvələr müdaxilələr etməyə, həmin nəqliyyat qovşaqlarının açarlarını ələ keçirməyə çalışırlar. Türk Dövlətləri Təşkilatı özlüyündə olduqca böyük arealı əhatə edir, strateji nöqtələri birləşdirir. Bu Türk coğrafiyasında siyasi elitanın, dövlət rəhbərlərinin həmahəng fəaliyyəti çox vacibdir.

TRIPP çağdaş dövrün tələbidir. Bu marşrut təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirməklə məhdudlaşmır. Məhz bu dəhliz vasitəsilə Bakı onlarla ölkənin gözləntilərinə cavab vermiş olacaq. Azərbaycan Prezidenti İlham Əliyev birmənalı şəkildə bəyan edib ki, biz bu prosesləri yalnız özümüz üçün nəzərdə tutmuruq. Yəni ölkəmizin istifadəyə hazır vəziyyətə gətirdiyi bütün kommunikasiyalar, enerji xətləri ilk növbədə TDT-nin mənafeyinə xidmət edir. Xüsusilə Orta Dəhliz bu gün əlahiddə əhəmiyyət kəsb edir. Çünki Şimal və Cənub arasındakı dəhlizlər müharibələr, risklər, təhlükələr ucbatından iflic vəziyyətinə düşüb. Ola bilsin ki, bu xətlərin bloklanmasında bəzi dövlətlərin destruktiv fəaliyyəti də olub. Biz belə təxribatçı fəaliyyətin insanlara hansı itkiləri, bədbəxtlikləri gətirə biləcəyini gözəl başa düşürük. Müharibədən qalib ayrılmış Azərbaycanın məqsədi hamıya fayda verəcək layihələrin tezliklə maneəsiz gerçəkləşməsidir.

Qəbələdə keçirilən 12-ci Zirvə görüşündə TDT artıq özünü güc mərkəzi kimi qələmə verir və bunun əsasları var. Eyni zamanda, təşkilat dünyaya önəmli çağırışlar edir ki, açıq siyasətə hazırıq, məramımız sağlam və səmimidir. Digər tərəfdən isə inteqrasiyaya hazırıq. Əgər inteqrasiya şaxələnərsə, sülhün də, təhlükəsizliyin də dayaqları möhkəmlənəcək.

# Türk dünyasında yeni sülh və güc arxitekturası

## *Bu coğrafiya təkcə enerji xətlərinin deyil, sabitlik marşrutunun da xəritəsidir*



**Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşündə Prezident İlham Əliyevin Vaşinqtonda 8 avqustda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasının Cənubi Qafqazı “sülh məkanına” çevirəcəyinə dair səsləndirdiyi fikirlər görüşü həm taktiki, həm də strateji dönüş nöqtəsinə çevirir. Sual ortaya çıxır: İlham Əliyevin formalaşdırdığı bu siyasət xətti regionda passiv gözləmə taktikasını dəyişdirərək davamlı sülh arxitekturası yarada bilərmi?**

Cavab axtarışı üç əsas müşahidə üzərində qurulmalıdır. Birincisi, İlham Əliyevin çıxışı sülhü infrastruktur və təhlükəsizlik şəbəkələri vasitəsilə möhkəmlənməli olan çoxsahəli proses kimi təqdim edir. Bu məntiqə görə TRIPP, Orta Dəhliz və Şimal–Cənub nəqliyyat marşrutları, enerji ixracı və “yaşıl enerji” təşəbbüsləri yalnız iqtisadi layihələr deyil, eyni zamanda, geosiyasi sabitliyə xidmət edən strateji alətlərdir. İkincisi, Prezidentin TDT çərçivəsində təklif etdiyi birgə hərbi təlimlər və təhlükəsizlik əməkdaşlığı ideyası sülhün “müdafiəsi” konsepsiyasını gündəmə gətirir: Sülh müqaviləsinin paraflanması ilə yanaşı, onun qorunması üçün reallıqda güc, koordinasiya və qarşılıqlı bağlılıq tələb olunur. Üçüncüsü, Bakı üçün sülh gündəliyi daxili legitimlik və xarici strateji reallıqları uzlaşdıran xarici siyasət vasitəsidir. Bu, həm milli narrativin, həm də türk dünyamiqyaslı strateji maraqların sintezidir.

Amma kritik sual qalır: Bu strateji niyyətlər institusional çevikliyə və geosiyasi problemləri idarə etməyə kifayət edəcəkmi? Analitik cavab sadə deyil: Potensial var, lakin reallaşması institusional güc, üzv dövlətlərin maraqlarının sinxronizasiyası və qlobal oyunçularla məharətli manevr tələb edir. Türk Dövlətləri Təşkilatının 12-ci Zirvəsi bu ambisiyaları müəyyənləşdirir; lakin onların praktik çevrilməsi növbəti addımların məntiqində – TDT-nin infrastruktur layihələrinin icrasında və diplomatik koordinasiyada gizlidir.

Zirvə görüşündə səslənən fikirlərdən aydın görünür ki, İlham Əliyev TDT-ni



yalnız mədəni birlik və ya ortaq tarixi platforma kimi deyil, regional güc sinxronizasiyasının mərkəzi kimi görür. O, təşkilatı sülh və təhlükəsizlik baxımından kollektiv məsuliyyət modelinə çevirmək istəyir. İlham Əliyevin çıxışındakı bir detal diqqətəlayiqdir: “2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi” təklifi. Əslində, bu fikir TDT-nin siyasi gündəliyini dəyişdirir. Əgər əvvəllər təşkilat iqtisadi və humanitar inteqrasiya ilə məhdudlaşırdısa, indi təhlükəsizlik ölçüsü gündəliyin mərkəzinə çıxarılır. Bunlar iki strateji məqsədə xidmət edir: Birincisi, regionda xarici hərbi təsirlərdən asılılığı azaltmaq; ikincisi isə üzv dövlətlər arasında real təhlükəsizlik bağlılığı formalaşdırmaq.

Lakin sual yaranır: Belə bir təşəbbüs türk dövlətləri arasında real hərbi koordinasiya yarada bilərmi? Analitik baxımdan cavab bir neçə faktora bağlıdır. Əvvəla, Azərbaycan artıq Türkiyə ilə 25-dən çox birgə hərbi təlim keçirməklə praktik baza formalaşdırıb. Həmin təcrübə TDT çərçivəsində çoxmillətli formata çevrilərsə, təşkilat ilk dəfə regional təhlükəsizlik sisteminə bənzər bir struktur qura bilər. İkincisi, Prezidentin vurğuladığı kimi, “bugünkü dünyada hərbi güc müstəqilliyin əsas amilidir” – bu, postsovet geosiyasətində balanslı, lakin realist yanaşmadır. Yəni Azərbaycan “sülhü qorumaq üçün güc” prinsipini normallaşdırır.

Bununla belə, İlham Əliyevin liderlik modelinin fərqləndirici cəhəti sərt gücü “yumşaq inteqrasiya” ilə tarazlaşdırmaq cəhdidir. Onun nitqində enerji, nəqliyyat və iqtisadi əlaqələrin təhlükəsizliklə eyni kontekstdə təqdim edilməsi təsadüfi deyil. Prezident açıq mesaj verir: Sabitlik yalnız silah balansı ilə deyil, qarşılıqlı asılılıqla təmin olunur. Orta Dəhliz və TRIPP bu yanaşmanın konkret ifadəsidir – hər iki xətt həm iqtisadi, həm də geosiyasi sabitliyin infrastruktur dayağıdır.

Mövcud modelin uğuru həm də TDT-nin institusional çevikliyinə bağlıdır. Burada Prezidentin təşəbbüskarlığı təşkilat daxilində yeni düşüncə formalaşdırır: İnteqrasiya artıq mədəni bağlardan deyil, praqmatik təhlükəsizlik və iqtisadi rasionalizmdən qidalanmalıdır.

***

İlham Əliyevin çıxışında diqqətçəkən başqa bir strateji xətt enerji siyasətidir. Prezident bir daha vurğuladı ki, Azərbaycanın enerji resursları sadəcə iqtisadi gəlir mənbəyi deyil, regional sabitliyin siyasi təminatıdır. Əslində, bu yanaşma postsovet məkanında bənzəri az olan bir yanaşmadır: Enerji rıçaqları artıq geosiyasi təsir vasitəsinə çevrilib, amma bu dəfə təzyiq yox, inteqrasiya aləti kimi.

Bəs enerji resursu sülhü təmin edə bilərmi? Ənənəvi baxışda enerji rəqabət və qarşıdurma amili sayılır. Lakin Azərbaycan modelində bu, əksinə, qarşılıqlı asılılıq yaradan vasitəyə çevrilib. Bakı–Tbilisi–Ceyhan, Cənub Qaz Dəhlizi və indi Orta Dəhliz – bunların hamısı təhlükəsizlik arxitekturasının iqtisadi sütunlarıdır. Prezidentin ifadəsi ilə desək, “enerji həm körpü, həm də sabitlik faktorudur.” Elə bu məntiq TDT çərçivəsində strateji dərinlik qazanır. Türk dünyası artıq enerji xətlərinin coğrafiyası deyil, sabitlik marşrutunun xəritəsidir. Qazaxıstan neftinin Bakı vasitəsilə Avropaya daşınması, türkmən qazının TANAP-a qoşulma perspektivi – bunlar alternativ enerji geosiyasətinin başlanğıcıdır. Hazırkı mənzərədə Azərbaycanın rolu dəyişərək regional təhlükəsizliyin təminatçısına çevrilib. Çünki enerji sabitliyi olmadan sülh də davamlı ola bilməz. Əslində, enerji diplomatiyası bu gün Azərbaycanın ən güclü siyasi alətidir. Amma bu alət yalnız o zaman effektiv olur ki, təhlükəsizliklə paralel irəliləsin.

Qəbələdə səslənən mesajların arxasında təkcə sülhə çağırış yox, həm də yeni güc balansının konturları dayanırdı. İlham Əliyev əslində, Cənubi Qafqazı “sabitlik adasına” çevirmək ideyasını irəli sürərkən, bunun təkcə Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə məhdudlaşmadığını göstərdi. Maraqlıdır ki, postmünaqişə dövründə Azərbaycan sülh təşəbbüslərini regional liderlik strategiyasına necə çevirir? Cavab, ilk növbədə, onun müstəqil xarici siyasət kursunda gizlidir. Bakı nə Qərbin, nə də Rusiyanın orbitində tam yer almadan, hər iki tərəflə balanslı münasibət saxlayaraq türk inteqrasiyasını üçüncü alternativ kimi irəli sürür.

Türk dünyası bu güc harmoniyasını qorumaq üçün nə qədər institusional çevikliyə malikdir? Əgər TDT iqtisadi əməkdaşlıqdan təhlükəsizlik inteqrasiyasına keçə bilsə, o zaman regionda yeni asimmetrik balans yaranacaq – nə NATO, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı bu qədər mədəni-siyasi həmrəyliyi təmin edə bilir. İlham Əliyevin çıxışının əsas siyasi mesajı da budur: “Türk dünyası öz təhlükəsizlik sistemini özü formalaşdırmalıdır”. Çünki XXI əsrin güc sistemində artıq müttəfiqlik kağız üzərində deyil, qarşılıqlı etimada əsaslanmalıdır.

Qəbələdə səslənən çıxışın tonunda sadəcə siyasi diplomatiya yox, tarixi özünüdərkin manifesti vardı. İlham Əliyev Türk Dövlətləri Təşkilatını gələcəyin regional və qlobal sabitliyin yeni modeli kimi təqdim etdi. Əgər XX əsrin geosiyasəti güc bloklarının rəqabəti üzərində qurulmuşdusa, XXI əsrin ikinci rübündə artıq koordinasiya olunmuş milli iradələr yeni güc konsepsiyasını formalaşdırır.

Sülh sazişinin paraflanması ilə Bakı həm Qafqazda, həm də türk coğrafiyasında “stabilliyin aparıcı aktoru” statusunu qazandı. Yeni güc balansı uzunmüddətli sabitliyi təmin edə biləcəkmi? Cavab, görünür, siyasi iradənin davamlılığında və Türk dünyasının strateji sinxronizasiyasında gizlənir. Əgər TDT təhlükəsizlik və enerji inteqrasiyasını paralel istiqamətlərdə inkişaf etdirə bilsə, region yalnız sabitlik adası deyil, beynəlxalq sistemdə alternativ qüvvə mərkəzi statusuna yüksələcək.

**PS .** *“TDT-nin 12-ci Zirvə toplantısında Macarıstan və Türk dövlətləri sülhə sadiq olduqlarını bir daha təsdiq etdilər. Aİ Ukrayna cəbhəsində müharibə apararkən, biz dialoq və davamlı sülh üçün birlikdəyik”. Bunu Macarıstanın Baş naziri Vikror Orban Qəbələdə keçirilən TDT Dövlət Başçıları Şurasının XII Zirvə görüşü ilə bağlı paylaşımında qeyd edib.*

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türk dünyasının nüfuzlu Lideri



## II məqalə

### Böhranlara daha dayanıqlı türk dünyası

Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatından bəhs edəndə daim iki istiqamətin sintezində anlamı böyük olan məqamı vurğulamışdır. Onlardan biri Azərbaycan liderinin TDT-nin və bütövlükdə Türk dünyasının inteqrasiyasının perspektivinə böyük inam ifadə etməsidir. Digəri bu yolda hər bir türk dövlətinin üzərinə böyük məsuliyyətin, çalışqanlığın, neqativ təsirlərə qarşı ortaq hərəkət etmək zərurətinin düşdüyünü vurğulamasıdır. Naxçıvan Bəyannaməsi imzalananda, TDT-nin hər bir Zirvə toplantısında, Vətən müharibəsindən sonra müxtəlif KİV nümayəndələrinə verdiyi müsahibələrdə, Andiçmə mərasimində, müxtəlif forumlarda TDT ilə bağlı fikir ifadə edəndə mütləq bu iki məqamı konkret önə çəkmişdir.

Bu gün, ümumiyyətlə, türk dünyası və xüsusilə TDT ilə bağlı baş verən hadisələr Azərbaycan liderinin nə dərəcədə haqlı olduğunu sübut edir. Bu baxımdan Qəbələ Zirvəsi ərəfəsində türk dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı etdiyi paylaşımda İlham Əliyevin “ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir” fikrini ifadə etməsi əhəmiyyətli anlama malikdir. Onun başqa mənaları ilə yanaşı, böhranlara daha dayanıqlı türk dünyası formalaşdırmaq anlamı əhəmiyyətlidir. Onun siyasi və geosiyasi məna özəlliyi üzərində Qəbələ Zirvəsi kontekstində dayanmaq gərəkdir.

### Türk xalqları arasında həmrəylik

Böhranlara qarşı daha dayanıqlı olmaq fəlsəfəsinin mərkəzində türk xalqlarının həmrəyliyinin gücləndirilməsi tezisi dayanır. Prezident İlham Əliyevin paylaşımında vurğuladığı aşağıdakı fikrə baxaq: “Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir”.

Deməli, ölkələr arasında əməkdaşlıq və xalqlar arasında həmrəylik TDT çərçivəsində bir-birini motivə etməli və tamamlamalıdır. Proses kimi bu xüsusiyyət kifayət qədər mürəkkəb və ciddi yanaşma tələb edən məsələdir. Çünki tarixin hökmü ilə türk dövlətləri, ölkələri, cəmiyyətləri arasında münasibətlər heç də bütün dönəmlərdə hamar olmamışdır. Bir sıra hallarda Türk dövlətləri bir-biri ilə savaşmışlar.

Siyasət etnosun təbii və ontoloji birliyi fonunda bir qədər fərqli mənzərə yarada bilir. Ona görə də türklər daim ayıq olmalı və ölkələr arasında əməkdaşlıqla yanaşı, xalqların həmrəyliyinin daha da gücləndirilməsi istiqamətində çox ciddi addımlar atmalıdırlar.

Bu kontekstdə indi müşahidə edilən bir məqamı unutmamalıyıq – bir sıra dairələr əsasən türk xalqları arasında həmrəyliyi zəiflətmək, imkan olsa onlar arasında ciddi ixtilaflar yaratmaq istiqamətində canfəşanlıq edirlər. Detallara varmadan bu prosesin iki əlamətini vurğulamaq lazımdır.

### İnformasiya sferasında “antitürk fırtınası”

Birincisi, mediada türk ölkələri və cəmiyyətlərində əsasən neqativ hadisələrin baş verdiyi görüntüsü yaratmağa cəhd edilir. Təhlükəlisi odur ki, bu zaman səbəb kimi ümumiyyətlə türk xalqlarının bir-birini qəbul etməməsini göstərmək istəyirlər. Qafqazlı Anadolu insanından və hər ikisi Mərkəzi Asiya mentalitetindən fərqləndiyi görüntüsü yaratmağa cəhd göstərirlər. Müxtəlif məişət hadisələrini əsas olmadan milli, mədəni, etnik, siyasi, mənəvi-əxlaqi və digər aspektlərə proyeksiya edib belə təsəvvür yaratmaq məqsədlərini hiss edirik: türk xalqları birləşə bilməzlər, çünki aralarında fərqlər və problemlər çoxdur!

Bunun bir şər, böhtan, ara vurmaq və cəfəngiyyat olduğunu onu deyən və yazanların özləri də yaxşı bilirlər. Lakin elə əsas məqsəd də ondan ibarətdir ki, yalanı həqiqət kimi təqdim edib türk xalqlarının həmrəyliyini pozsunlar.

İkincisi, belə təsəvvür yaratmağa çalışırlar ki, türk liderlərin danışmasına baxmayaraq, “türk ailəsi”ndə problemlər həmişə var və olacaq. Məsələn, guya türk dövlətləri bir-birini müdafiə etmək istəmirlər və əsasən Qərbin maraqlarına uyğun hərəkət edirlər. Buna görə də TDT heç zaman ciddi geosiyasi güc ola bilməyəcək.

Diqqət etsək, görərik ki, türk ailəsi və TDT-nin ciddi geosiyasi güc kimi formalaşması tezisləri daha çox İlham Əliyevə aiddir. Lakin Azərbaycan Prezidentinin məntiqi, fəaliyyəti və qətiyyətli əyilməz duruşu “informasiya qafilləri”ni yerlə-yeksan etməkdədir! O cümlədən Türkiyə və Azərbaycanda da bir sıra media mənsubları bundan nəticə çıxarmalıdırlar.

### “Qardaşlığımız əbədidir”

İndi Qəbələdə hökm sürən siyasi ab-hava bir daha təsdiq edir ki, “Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək”. Prezident İlham Əliyev öncəki mərhələlərdə nümayiş etdirdiyi mövqeni, TDT-yə olan böyük sevgisi və inamını, ümumiyyətlə, “mədəniyyət”, “dialoq”, multikulturalizm”, “əməkdaşlıq”, “təhlükəsizlik, “birgə inkişaf”, “türk mədəniyyəti və kimliyi” kimi anlayışlara yüksək sayğısını açıq ifadə edir. Bu baxımdan da “Azərbaycanın türk dünyasının birliyini qardaşlığın əbədiliyi naminə daha da gücləndirəcəyi” tezisi bir siyasi və geosiyasi mahiyyətli təşviqdir! TDT-nin özünə layiq yer tutmasının anatomiyasıdır!

Qəbələ Zirvəsi fonunda bu düşüncələr bir sıra tezislər üzərində dayanmaq zərurətini meydana çıxarır. Əslində həmin tezislər zaman-zaman “Xalq qəzeti”ndə yer almışdır. Türk dünyası ətrafında baş verən proseslər və TDT kontekstində onların məzmun çalarlarına bir daha baxmaq faydalı olar.

### İlham Əliyev: Türk dünyası birliyinin memarı

Sözsüz ki, TDT-yə daxil olan hər bir türk ölkəsinin başçısı, o cümlədən müşahidəçi statusunda olan V.Orban və Ə.Tatar türk dünyasının inteqrasiya olunması üçün öz töhfələrini verirlər. Bununla yanaşı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmin istiqamətdə elə strateji kurs müəyyən etmişdir ki, Azərbaycanın aparıcılığı və motivəedici rolu həmişə seçilir. 2003-cü ildən bu yana türk dünyası ilə bağlı Prezident İlham Əliyevin atdığı davamlı addımlar isə göstərir ki, təməldə türk xalqlarının inteqrasiyasında Azərbaycan rəhbəri xüsusi rol oynayır.

Burada Azərbaycanın dövlət olaraq II Qarabağ müharibəsində qalib gəlməsi və 2023-cü ildə 23 saata suverenliyini tam təmin etməsi ayrıca gücləndirici, ruhverici rol oynamışdır və strateji məqsədə nail olmağa inamı yeni keyfiyyət səviyyəsinə yüksəltmişdir. Obyektiv olaq: müstəqilliklərini əldə edəndən sonra 30 il müddətində Qarabağa ayaqları dəyməyən Mərkəzi Asiya türk dövlətlərinin liderləri indi həm ora səfərlər edir, həm də bölgənin yenidən qurulmasına öz qardaşlıq töhfələrini verirlər. Bu prosesin birbaşa ideya müəllifi, stimullaşdırıcısı və memarı Prezident İlham Əliyevdir.

Azərbaycan Prezidenti türk dövlətlərinin birlik məsələsinə daha geniş kontekstdə baxaraq yeni dinamika vermişdir. Nümunə, Laçında Azərbaycan-Türkiyə-Pakistan strateji razılaşması və uzun illər Azərbaycana isti münasibəti olmayan Türkmənistan rəhbərinin Qarabağa səfəridir. Yəni İlham Əliyev nəinki türk dövlətləri arasında müxtəlif səbəblərdən yaranmış “buzları” əridir, həm də daha geniş məkanda birlik yaratmaq gücü və potensialını nümayiş etdirir. Doğrudan da, Pakistan, Macarıstan və Gürcüstan kimi dövlətlər türk birliyinə maraq göstərirlərsə, Türkmənistan hansı məntiqlə kənarda qalmalıdır? İran niyə əsassız ehtiyatlılığı və soyuqluğunu davam etdirməlidir?

İlham Əliyevin türk dünyasının birliyi və nüfuzu ilə bağlı fəaliyyəti bunlarla da məhdudlaşmır. İndi analitiklər əmindirlər ki, Azərbaycanın avqustun 8-də Vaşinqtonda nail olduğu razılaşma və Prezident İlham Əliyevin “Avropa Siyasi Birliyi”nin son toplantısında iştirakına olan münasibət göstərir ki, ABŞ və Avropa da TDT-ni müsbət dəyərləndirir. Qlobal geosiyasət baxımından bu məqamlar çox əhəmiyyətlidir. Üzərində bir qədər geniş dayanaq.

### Türk sivilizasiyası qlobal geosiyasət kontekstində

Bizlər haqlı olaraq türk sivilizasiyasından danışırıq. Bəlkə də bu dünyada türklər qədər sivilizasiyadan danışmaq haqqı və potensialı olan ikinci bir qövm yoxdur. Lakin çox təəssüf ki, əsrlərlə dünyadakı müəyyən kəsimlər həqiqəti və reallığı elə gizlədib və təhrif ediblər ki, əksəriyyət sual edir: “türk sivilizasiyası var?”

Ancaq tarixə obyektiv və qərəzsiz yanaşanda görürsən ki, gerçəklik tamamilə başqadır. Məsələn, Avropada “Vyana məktəbi” adlanan və etnosların dünya mədəniyyətinə töhfələrini araşdıran bir qrup alim türklərin “savaşçı çobanlar” mədəniyyətini bütün dünya mədəniyyətinin mayası hesab etmişlər (XX əsrin ikinci yarısında).

Bundan başqa, necə olur ki, dünyanın dörd bir guşəsində türk mədəniyyətinin izləri mövcud olur? XVII əsrdə qərblilərin, rusların və çinlilərin İç Moğol ərazisi ilə bağlı tərtib etdikləri xəritələrdə toponimlərin 99 faizi türk mənşəlidir. Biz onların bir qismi haqqında bu mövzudakı I məqalədə yazmışıq.

Eyni zamanda, əgər türk sivilizasiyası yoxdursa, indiki Mərkəzi Amerikada, Latın Amerikasında, Afrikada birbaşa türklərin adı ilə bağlı yerləşim məkanları, mədəni abidələr, coğrafi ərazi niyə mövcuddur?

Belə alınır ki, artıq türklər özlərinə qarşı olan bu tarixi ədalətsizliyi aradan qaldırmalıdırlar. Türklər tarixi ədaləti bərpa etməyi bacarırlar!

Bunlar Prezident İlham Əliyevin davamlı olaraq TDT məsələsini qlobal geosiyasət və siyasətin gündəminə sivil, siyasi, diplomatik, əməkdaşlıq və təhlükəsizlik kontekstlərində gətirməsinin stratejidə doğrudan da türk sivilizasiyası anlayışının qəbul edilməsi üçün çox faydalı olduğunu göstərir.

Azərbaycan sosio-humanitar elmi üçün bu bağlılıqda araşdırılması aktual olan mövzulardan biri XXI əsrdə “sivilizasiya” və “qlobal geosiyasət” anlayışlarının müxtəlif aspektlərdə - siyasi-nəzəri, fəlsəfi, tarixi, kulturoloji, filoloji və s. tədqiqi olmalıdır.

Bu baxımdan AMEA-nın yeniləşmə kursunun prioritetləri geniş imkanlar yaradır. Bu təşkilatın rəhbərliyinin fəaliyyətində də həmin məqam xüsusi yer tutur. Artıq türk dünyası birliyi kontekstində vurğulanan istiqamətdə tədqiqatlar aparılır. O cümlədən Fəlsəfə və Sosiologiya, Tarix və Etnoqrafiya, Ədəbiyyat və Folklor institutlarında araşdırmalar davam edir.

Beləliklə, Azərbaycan Prezidentinin qarşıya qoyduğu məqsədlər əsasında hazırda ölkədə türk sivilizasiyanın siyasi, geosiyasi, mədəni və digər istiqamətlərdə özünütəsdiqi prosesi ilə yanaşı, məsələnin elmi araşdırılması prosesi paralel aparılır. Bu istiqamətlər, təbii ki, qarşılıqlı əlaqədə reallaşır və bəhrələrini ən qısa zamanda bütün dünya daha çox görəcəkdir.

Vurğuladığımız strateji məqamın Qəbələ Zirvəsində müzakirə edilən məsələlər işığında hansı məzmun alması da olduqca əhəmiyyətlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# TDT və Azərbaycan: gücün sülh diktəsi

## *Türk dünyasının Qəbələ Zirvəsində regional barışa mühüm töhfə*



**TDT Dövlət Başçıları Şurasının Qəbələdəki 12-ci Zirvə Görüşü çərçivəsində qurumun Xarici İşlər Nazirləri Şurasının toplantısında çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirdi ki, formalaşmaqda olan yeni beynəlxalq təhlükəsizlik arxitekturasında TDT-nin gücü birliyin rəmzi kimi daha mühüm rol oynamaq potensialına malikdir. “Azərbaycanın onilliklər boyunca münaqişə vəziyyətində olduğu Ermənistan ilə normallaşma prosesi istiqamətində göstərdiyi ardıcıl səylər, məqsədyönlü fəaliyyətlər də regionumuzda sülh və sabitliyin bərqərar edilməsinə hesablanıb”.**

Bəli, beynəlxalq müstəvidə mürəkkəb proseslərin getdiyi indiki durumda yeni dünya düzəninin sülh və sabitlik şəraitində qurulması son dərəcə vacib amildir. Hesab edirik ki, bu baxımdan nazir C.Bayramovun daha sonra bildirdikləri də mühüm əhəmiyyətə malikdir. Belə ki, o, TDT-yə üzv dövlətlərin coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xətlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynadıqlarını önə çəkib: “Təşkilat bu istiqamət üzrə nəhəng imkanlara malikdir. Bu xətt, eyni zamanda, Orta Dəhlizin ayrılmaz parçasıdır. Vaşinqton Zirvə Görüşü çərçivəsində Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək TRIPP marşrutunun bəyan edilməsi regionumuzda bağlantıların şaxələndirilməsi baxımından mühüm addımdır”.

Yeri gəlmişkən, TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün iki başlıca aspekti var idi ki, onlardan ikincisi təhlükəsizlikdirsə, birincisi sülhdür. Tam əminliklə demək olar ki, “Regional sülh və təhlükəsizlik” mövzusuna həsr olunmuş Qəbələ toplantısı həm təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirəsi üçün mühüm platformaya çevrildi, həm də ümumən TDT-nin qlobal məkandakı yeri və rolunun artım trayektoriyasını vurğuladı. Tədbir sübut etdi ki, quruma üzv dövlətlər də belə bir trayektoriyanın əhəmiyyətini, kifayət qədər, ciddi nəzərdən keçirirlər.

Əlbəttə, diqqətə çatdırdığımız cəhətlərin dolğun ifadəsi baxımından Prezident İlham Əliyevin bildirdikləri daha səlis və məntiqidir. Dövlətimizin başçısı Zirvə görüşündəki çıxışında ilk olaraq bunu bildirdi: “Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir”.

Bilavasitə TDT-nin sülh məramına gəlincə, Prezident İlham Əliyev xatırlatdı ki, qurumun təməl sənədi olan Naxçıvan Sazişində təhlükəsizliklə yanaşı, sülhün qorunması da əsas məqsəd və vəzifələr sırasında yer alıb. Başlıca məqam isə TDT-ni sülh məqsədi naminə vahid güc faktoruna çevirməkdir ki, dövlətimizin başçısı çıxışında bu məsələnin də üzərində dayandı. Ona görə ki, hazırkı dünyada beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozulur. Deməli, TDT ölkələri arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq da günün başlıca tələbinə çevrilməlidir. Dövlətimizin başçısının vurğuladığı kimi: “Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm”.

Məlumdur ki, Azərbaycan, öz növbəsində, qardaş Türkiyə ilə birlikdə regional sülhün qərarlaşmasına böyük töhfə verir. Söhbət Bakı-İrəvan sülhündən gedir ki, prosesə Ankaranın da əlahiddə töhfəsi var. Prezident İlham Əliyevin bu mənada iki ay əvvəl ABŞ-da Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasını yada salması və nəticədə Cənubi Qafqazın barış məkanına çevriləcəyinə inamını ifadə etməsi, habelə, Vaşinqton razılaşması çərçivəsində regionda münaqişə məntiqini özündə daşıyan ATƏT-in Minsk qrupunun və onunla əlaqədar strukturların bağlandığını vurğulaması xüsusi əhəmiyyət daşımaqdadır: “Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi”.

Sülh, bağlantılar və iqtisadi inkişaf. Bunlar bir-biri ilə əlaqəli, hətta deyərdik ki, bir-birindən asılı vacib komponentlərdir və hazırda həmin komponentlər TDT-nin tərkibində güc mərkəzinə çevrilməyi məqsəd seçdiyi böyük regionun gələcək strukturu və parametrləri baxımından son dərəcə müstəsna əhəmiyyətə malikdirlər. Mövcud trayektoriyada daha bir amil var ki, o da enerji təhlükəsizliyidir. Azərbaycan beynəlxalq miqyasdakı enerji təhlükəsizliyi zəncirində fəal halqadır. Bu amplua ölkəmizin özünü Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləməsində göstərir. Nəticə etibarilə, Azərbaycan həm sülhün qarantı rolunda çıxış edir, həm də TDT müstəvisindəki aktivliyi və əməkdaşlıq prioritetlərini genişləndirməsi ilə sülhü daha geniş düzənə daşıyır. Nəzərə alaq ki, qurumun geniş coğrafi əhatə dairəsi və bu arealdakı dövlətlərin bir-birilərinə sıx bağlılıq göstəriciləri mövcud məkandakı hər bir məmləkət üçün həm siyasi və iqtisadi dividenddir, həm də rifahlı yaşam vədidir.

“Ümumilikdə, atılan addımlar türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir”, - deyən Prezident İlham Əliyev çıxışında, həmçinin, Qəbələ Zirvə Görüşünün çıxaracağı qərarların TDT-nin mövqeyini daha da gücləndirəcəyinə, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəyinə əminliyini də bildirib.

“Türkiyə Cənubi Qafqazda baş verənləri izləməklə yanaşı, həm də bölgədə sülhə və sabitliyə səmimi töhfə verməyə çalışır. Biz avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə imzalanmış Birgə Bəyannaməni bu sahədə müsbət addım kimi qiymətləndiririk. Bu istiqamətdə gələcək təşəbbüsləri səbirsizliklə gözləyirik”, - deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvə Görüşündəki çıxışı zamanı, habelə, TDT-nin son 16 ildə mühüm uğurlara imza atdığını dedi, “beynəlxalq hüquq böhranı” və “BMT Təhlükəsizlik Şurasının bir çox məsələlərdə fəaliyyətsizliyi fonunda” türk dövlətlərini birləşdirən vahid platformanın əhəmiyyətinə diqqət çəkdi, ən başlıcası isə o, TDT-nin sülh gündəmi seçimini “çox vaxtında və əhəmiyyətli” adlandıraraq, qurumun sabitliyin və təhlükəsizliyin təmin edilməsində daha fəal rol oynaya biləcəyini vurğuladı.

Azərbaycanın sülh təşəbbüsünü dəstəklədiyini deyən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də Zirvə Görüşündəki çıxışında hazırkı çətin dövrdə ölkəmizlə Ermənistan arasında sülhlə bağlı Birgə Bəyannamənin imzalanmasını təqdir etməklə yanaşı, ölkəmizin regional və beynəlxalq təşəbbüslərə verdiyi töhfədən söz açdı. Prezident İlham Əliyevin sədrliyi ilə TDT-nin fəaliyyətini daha uğurla davam etdirəcəyinə inandığını dilə gətirdi, ölkəmizin türk dünyasının birliyinin möhkəmlənməsi və regional sabitliyin qorunması istiqamətində mühüm rol oynadığından söz açdı.

“Ermənistanla imzalanmış bəyannamə regionda sülhün və sabitliyin bərqərar olması istiqamətində mühüm addımdır. Bu nailiyyət Azərbaycanın siyasi iradəsinin və liderliyinin bariz göstəricisidir”. Hesab edirik ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 12-ci Zirvə Görüşündəki çıxışı zamanı söylədiyi fikirlər də böyük ölçüdə yanaşsaq, ölkəmizin TDT çərçivəsindəki sülh missiyasına ehtiramın ifadəsidir. Bu baxımdan Macarıstanın Baş naziri Viktor Orbanın sammitdəki nitqi də vurğulanmalıdır: “Azərbaycan Prezidenti İlham Əliyevin nailiyyətləri, ölkəsində həyata keçirilən bərpaolunan enerji layihələri, sülh və əməkdaşlığa verdiyi önəm onu göstərir ki, bu regionda uzaqgörən və uğurlu siyasət həyata keçirilir”.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Azərbaycan 44 günlük müharibədəki qalibiyyəti ilə gücdən sülh naminə bəhrələnmənin nümunəsi olduğunu sübuta yetirdi. TDT-nin Qəbələ Zirvəsi ölkəmizin bu nümunəsinin qurum üçün də başlıca prioritetə çevrildiyinin bəyan platforması kimi yadda qaldı. Heç şübhəsiz, ölkəmizin sədrliyi ilə qurum sözügedən prioriteti əməli iş müstəvisində dolğunlaşdırmağı da bacaracaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Stratfor" Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiyanı necə görür?

(əvvəli 1-ci səhifədə)




### "Beyin mərkəzi"nin yanaşma özəlliyi

"Stratfor"un regiondakı geosiyasi dinamikanın təhlilinə yanaşması universal xarakter daşımır. Bu "beyin mərkəzi" Azərbaycan, Gürcüstan və Ermənistanla bağlı təhlilini əsasən avqustun 8-də Vaşinqtonda ABŞ-ın iştirakı ilə paraflanmış Azərbaycan-Ermənistan sülh müqaviləsi kontekstində aparıb. Bu da, təbii olaraq, təhlil və proqnozun məzmununa əvvəlcədən konkret yön verir və fikirlərin müəyyən bir istiqamətdə fokuslanmasına səbəb olur (bax: What To Make of the U.S.-Brokered Peace Deal Between Armenia and Azerbaijan / "Stratfor", 13 avqust, 2025).

Təhlilin qısa təqdimatından görünür ki, "Stratfor" Cənubi Qafqaz ölkələrinin geosiyasi mövqeyinə və taleyinə "Vaşinqtonun gözü" ilə baxır. Bu zaman bir neçə prinsipial məsələni önə çəkir.

Birincisi, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında keçirilən sammitin nəticələrinin yalnız Cənubi Qafqazda deyil, daha geniş geosiyasi məkanda da proseslərin məzmununu və ümumi mənzərəsini dəyişəcəyinə dair inam ifadə olunur.

İkincisi, bu gedişatın təkcə Cənubi Qafqaz ölkələrinin geosiyasi mövqeyinə deyil, həm də Türkiyə, Rusiya və İran kimi böyük dövlətlərin də Avropa-Qafqaz-Mərkəzi Asiya kontekstində mövqelərinə təsir edəcəyi proqnozlaşdırılır.

Üçüncüsü, Cənubi Qafqaz ölkələrinin və Türkiyə, Rusiya və İranın hər biri üçün fərqli geosiyasi situasiyanın formalaşacağı qeyd olunur.

Vurğulanan prinsiplərin qarşılıqlı əlaqəsi prizmasından "Stratfor", həqiqətən, düşündürücü proqnozlarla çıxış edib.

### Azərbaycan

"Stratfor" Azərbaycanın birmənalı olaraq uğurlarını daha da artıraraq regional liderliyini möhkəmləndirəcəyini və bu prosesdə regionun aparıcı dövləti statusunu qoruyub saxlayacağını proqnozlaşdırır. Bunun əsas səbəbləri kimi iki faktor göstərilir – əvvəla, Azərbaycan çox mühüm hərbi qələbəyə nail olub və müharibədən sonrakı mərhələdə fəal əməkdaşlıq və təhlükəsizlik siyasəti yeridir, ikincisi, Azərbaycanın əsas siyasi müttəfiqi olan Türkiyənin mövqeyinin daha da möhkəmlənməsi üçün onun NATO-dakı müttəfiqi ABŞ ciddi səylər göstərir (bax: məs., əvvəlki mənbəyə və Armenia and Azerbaijan: Peace or Pause? // "Clingendael" Niderland Beynəlxalq Münasibətlər İnstitutu, sentyabr, 2025). Bunun fonunda Azərbaycan proseslərin hansı dinamika ilə inkişaf etməsindən asılı olmayaraq iki aspektdə dividend qazanacaq.

Birincisi, regional mövqeyini daha da möhkəmləndirəcək.

İkincisi, daha geniş coğrafiyada təsir gücünü artıracaq.

Bu prosesdə o, Türkiyə ilə tandemdə hərəkət edəcək. Qəribədir ki, təhlildəki bu məqam Azərbaycanda ekspertlərin diqqətindən kənarda qalıb. Halbuki "Stratfor"un Azərbaycanla bağlı qiymətləndirməsində Türkiyə faktoru mühüm yer tutur. Bu baxımdan geniş geosiyasi məkan üçün ciddi əhəmiyyəti olan bir özəlliyi vurğulamaq lazımdır.

### Azərbaycan və Türkiyə Orta Dəhliz kontekstində

"Stratfor"un hesabatında türk ticarət və infrastrukturunun inkişafı birbaşa Orta Dəhliz kontekstində nəzərdən keçirilir. Azərbaycan da məhz həmin aspektdə enerji və kommunikasiya mərkəzi rolunu gücləndirəcək ölkə olaraq təqdim edilir. "Beyin mərkəzi" bu prosesə bütövlükdə ABŞ-la Türkiyənin birgə fəaliyyəti rakursundan yanaşır.

Ekspertlərin bu özəlliyi nəzərə almaması (və ya süni şəkildə nəzərdən qaçırması), əslində, Azərbaycanın geosiyasi statusu baxımından olduqca əhəmiyyətli bir faktoru arxa plana atmaq deməkdir. Çünki Azərbaycanın regional funksiyasının Orta Dəhliz kontekstində və ABŞ-la Türkiyə kimi güclü dövlətlərin ortaq fəaliyyətində mühüm yer tutan qüvvə olaraq təqdim edilməsi artıq ölkəmizin qlobal səviyyədə geosiyasi status əldə etdiyini göstərir. Azərbaycan regional lider kimi indi daha geniş məkanlarda söz sahibidir və bu zaman Amerika ilə Türkiyə onun maraqlarını gözləyərək hərəkət edirlər. "Stratfor" kimi nüfuzlu bir "beyin mərkəzi"nin bu özəlliyi vurğulaması, əlbəttə, Azərbaycan rəhbərliyinin böyük uğurlarından biridir.

Əslində, "Stratfor" Ermənistan, Gürcüstan, Rusiya və İran məsələlərini də həmin həqiqəti qəbul edərək qiymətləndirir. Onların hər birinin üzərində ayrı-ayrılıqda dayanmağa çalışaq.

### Ermənistan

"Stratfor" bu ölkənin təhlükəsizliyi ilə bağlı yeni balans axtarışında olduğu qənaətini vurğulayır. Konkret olaraq, rəsmi İrəvan Rusiyadan uzaqlaşmağa, İranla müəyyən məsafə saxlamağa və Azərbaycan-Türkiyə tandemi vasitəsilə ABŞ-la yaxınlaşmağa cəhd edir.

Hələlik bu istiqamətdə qalıcı və konkret nəticə yoxdur, lakin Ermənistanın bundan başqa çıxış yolu qalmayıb. Belə bir vəziyyətin yaranmasına ölkə daxilindəki qeyri-stabil durum da təsir etməkdədir. Ermənistan rəhbərliyi birtəhər həmin aspektdə sabitliyi təmin edə bilir. Ancaq bunun nə qədər davam edəcəyi məlum deyil. Bu barədə ekspertlər də öz fikirlərini bildirirlər.

Lakin qəribədir ki, Ermənistanın ekspert dairələri ölkənin düşdüyü bu vəziyyəti Azərbaycanın mümkün "aqressiyası" ilə izah etməyə çalışır və bu müddəanın qaynağı kimi "Stratfor"a istinad edirlər (bax: məs., Stratfor: Ослабление связей с Россией делает Армению уязвимой перед агрессией Азербайджана // "Голос Армении", 29 sentyabr, 2025).

Belə görünür ki, Ermənistanın siyasi şüurunda və ekspert dairələrində hələ də reallığı adekvat dərk edə bilməyən kəsimlər mövcuddur.

### Gürcüstan

Son illərdə ilk dəfədir ki, Qərbin "beyin mərkəzləri" Gürcüstan haqqında müsbət proqnozlar vermirlər. "Stratfor" da istisna olmadı. Bu "beyin mərkəzi" Gürcüstanı tərəddüd edən, bir mövqedən digərinə "sürüşə bilən" ölkə kimi xarakterizə edir. Xüsusilə bu ilin oktyabrında keçirilmiş bələdiyyə seçkisindən sonra Gürcüstanın daha qeyri-müəyyən və tərəddüdedici vəziyyətə düşə biləcəyindən bəhs edilir.

Bu qeyri-müəyyənliyin fonunda təbii ki, Tbilisinin Vaşinqton, Ankara, Moskva və Tehran arasında gərgin mübarizə meydanına çevrilə biləcəyi nəticəsini çıxarmaq çətin deyildir.

### Rusiya

Bir zamanlar Cənubi Qafqazda yeganə hakim geosiyasi güc kimi qəbul edilən Rusiya ilə bağlı "Stratfor" neqativ xarakterli proqnozlar irəli sürüb. Hesab olunur ki, hər üç Cənubi Qafqaz dövləti Rusiyadan uzaqlaşmağa çalışacaq. Bu, bir tərəfdən, regionda ABŞ və Türkiyənin mövqeyini möhkəmlədəcək, digər tərəfdən isə İranı seçim qarşısında qoyacaq. Lakin istisna deyil ki, Moskva Gümrüdəki hərbi gücündən istifadə etməyə çalışsın. Belə olan halda, ilk növbədə, Ermənistanın vəziyyəti ağırlaşacaq və regionda geosiyasi durum mürəkkəbləşəcək. Ümumiyyətlə, Rusiya Zəngəzurla bağlı İranla əməkdaşlığa gedə bilər ki, bu da regionda situasiyanı sabitlikdən çıxarar.

### İran

"Stratfor"a görə, İran Zəngəzur dəhlizinin (TRIPP) əleyhinədir. Hesab edilir ki, dəhlizin açılması onun Qafqazdakı mövqeyini zəiflədir. Çünki dəhliz həm İranın şimala çıxışını bloklaya bilər, həm də ölkə daxilində separatçı əhval-ruhiyyəni qızışdırar. Buna görə də İranın regionda hərbi aktivliyini gücləndirməsi ehtimalı qalmaqdadır. Bunun fonunda Tehran Moskva və İrəvanla əlaqələri intensivləşdirə bilər.

### Yekun

Əlbəttə, hər bir təhlil və proqnoz tam əhatəli ola bilməz və buna görə də proqnozlar nisbidir. O, müəyyən dairələrin baxışı kimi maraq doğurur. Görünür, "Stratfor" artıq Azərbaycanla Ermənistan arasında Vaşinqtonda əldə edilən razılaşmaları davamlı faktor kimi qəbul edir, bunun fonunda geniş geosiyasi məkanda proseslərin məntiqinə nəzər salır və uyğun nəticələr çıxarır.

Bizim üçün önəmli olan artıq Azərbaycanla bağlı müsbət tezislərin irəli sürülməsinin davamlı xarakter almasıdır. Çünki bu, faktiki olaraq, İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi tarixi Zəfərin dünya miqyasında ciddi geosiyasi dəyişiklik olmasının qəbul edilməsinin əlamətidir. Öz növbəsində həmin müsbət tendensiya Azərbaycanın regional və qlobal geosiyasi proseslərdə daha yüksək statusa sahib olmasının göstəricisidir. Bu baxımdan "Stratfor"un proqnozları düşündürücü və əhəmiyyətlidir!

***Kamal ADIGÖZƏLOV***

---

# Bakının sülh sədası Parisdə səsləndi

## *Azərbaycan UNESCO tribunasından Cənubi Qafqazda yeni dövrün başlandığını bəyan etdi*




**Parisdə UNESCO-nun mənzil-qərargahında təşkilatın İcraiyyə Şurasının 222-ci sessiyasının plenar iclası beynəlxalq əməkdaşlığın və qlobal dialoqun mühüm mərhələlərindən sayılmalıdır. Məhz həmin mötəbər platformada Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayevin səsləndirdiyi rəsmi Bakının bəyanatı, sadəcə, ölkənin dördillik fəaliyyətinin yekunu olmaqdan çıxaraq, gələcəyə yönəlmiş strateji baxışların və beynəlxalq sülhə verilən töhfələrin dərin təzahürünə çevrildi.**

Bəyanatda Azərbaycanın İcraiyyə Şurasında dördillik üzvlüyü dövründə həyata keçirdiyi aktiv fəaliyyətə diqqət çəkilməsi xüsusi məqsəd daşıyır. 2021-2025-ci illəri əhatə edən həmin dövr Azərbaycan diplomatiyası üçün tarixi əhəmiyyət kəsb edən hadisələrlə zəngin olub. Məhz qeyd olunan illərdə Azərbaycan işğaldan azad edilmiş ərazilərində misli görünməmiş bərpa-quruculuq işlərinə başlamış, eyni zamanda sülh gündəliyini regionda dominant siyasi diskursa çevirmişdir. Azərbaycan bu platformadan istifadə edərək Ermənistanın 30 illik işğali dövründə mədəni irsə qarşı törətdiyi vandalizm aktlarını, şəhərlərin və kəndlərin tamamilə məhv edilməsini, tarixi-dini abidələrin dağıdılmasını dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

E.Abdullayevin çıxışında BMT Nizamnaməsinin və UNESCO Nizamnaməsinin qəbulunun 80 illiyi münasibətilə beynəlxalq həmrəyliyin və çoxtərəfli əməkdaşlığın əhəmiyyətini vurğulaması simvolik və siyasi məna daşıyır. Hər iki sənəd İkinci Dünya müharibəsinin xarabalıqları üzərində qurulan yeni dünya nizamının təməl daşlarıdır. Sənədlərin əsas qayəsi dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət əsasında beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, müharibələrin bəşəriyyətə gətirdiyi fəlakətlərin qarşısını almaqdır.

*

Bəyanatın kulminasiya nöqtəsi və analitik baxımdan ən mühüm hissəsi, şübhəsiz ki, Ermənistanla sülh prosesinin irəli aparılması istiqamətində atılan addımlarıın, xüsusilə avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderləri arasında keçirilmiş tarixi görüşün və sülh sazişi mətninin ilkin paraflanmasının vurğulanmasıdır. Həmin hadisə təkcə iki ölkənin münasibətlərində yeni səhifə açmaqla qalmayıb, bütün Cənubi Qafqaz regionunun gələcək inkişafı üçün dönüş nöqtəsi hesab olunmalıdır. Birincisi, bu, uzun illər davam edən qarşıdurma və düşmənçilikdən sonra iki xalq arasında sülhün bərqərar olması istiqamətində atılmış ən real və substantiv addımdır. Sülh sazişi mətninin ilkin paraflanması tərəflərin sülhə siyasi iradə nümayiş etdiriyini və gərgin danışıqlar prosesinin məntiqi nəticəsi olduğunu göstərir. İkincisi, görüşün məhz Vaşinqtonda keçirilməsi və ABŞ-ın prosesdə fəal iştirakı Cənubi Qafqazda davamlı sülhün təmin edilməsində qlobal güclərin maraqlı olduğunu və Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqların aparıcı dünya dövlətləri tərəfindən qəbul edildiyini nümayiş etdirir. Azərbaycanın milli maraqlarına tam cavab verən sülh gündəliyi beynəlxalq dəstək qazanmışdır. Üçüncüsü, həmin hadisənin UNESCO kimi humanitar mandatlı təşkilatın tribunasından səsləndirilməsi xüsusi əhəmiyyət daşıyır. UNESCO-nun Nizamnaməsində deyilir ki, "müharibələr insanların şüurunda başladığı üçün sülhün müdafiəsi də insanların şüurunda qurulmalıdır".

Azərbaycan–UNESCO əməkdaşlığının konkret istiqamətlərinə diqqət yetirilməsi isə ölkənin yumşaq güc siyasətinin və davamlı inkişaf hədəflərinə sadiqliyinin göstəricisidir. Keyfiyyətli təhsil istiqamətində həyata keçirilən layihələr, şübhəsiz ki, Azərbaycanın insan kapitalının inkişafına verdiyi önəmin təzahürüdür. Elm və süni intellekt sahəsindəki təşəbbüslər Azərbaycanın gələcəyə baxışını və innovasiyalara açıq olduğunu nümayiş etdirir. Süni intellekt dördüncü sənaye inqilabının əsas hərəkətverici qüvvəsi olaraq həyatın bütün sahələrində fundamental dəyişikliklərə səbəb olur. UNESCO həmin texnologiyanın etik çərçivədə inkişaf etdirilməsi və təhsildə tətbiqi üçün qlobal standartlar müəyyənləşdirməyə çalışır.

Bəyanatda "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoqun təşviqinin əhəmiyyətinin vurğulanması Azərbaycanın beynəlxalq arenadakı unikal rolunu və brendini bir daha önə çəkir. 2008-ci ildə Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlayan "Bakı Prosesi" qısa müddətdə sivilizasiyalar və mədəniyyətlər arasında körpü rolunu oynayan qlobal platformaya çevrilmişdir. Proses çərçivəsində müntəzəm olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları dünyanın müxtəlif yerlərindən olan siyasətçiləri, din xadimlərini, alimləri və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirərək qarşılıqlı anlaşma və hörmətin təşviqinə xidmət edir. Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşən, multikulturalizm və tolerantlıq ənənələrinin dərin kök saldığı məkan olmuşdur. Məhz həmin tarixi təcrübə və siyasi iradə "Bakı Prosesi"nin uğurunu şərtləndirən əsas amillərdir. Dünyanın müxtəlif bölgələrində ksenofobiya, islamofobiya və antisemitizmin artdığı, sivilizasiyaların toqquşması nəzəriyyələrinin yenidən gündəmə gəldiyi şəraitdə, Azərbaycanın təşviq etdiyi dialoq mədəniyyəti alternativ və daha humanist dünya nizamının mümkün olduğunu göstərir.

İrqçiliyin bütün formalarına və təzahürlərinə qarşı UNESCO çərçivəsində birgə mübarizənin zəruriliyinin ifadə edilməsi bəyanatın humanistik ruhunu tamamlayan mühüm elementdir. İrqçilik insan ləyaqətinə qarşı ən ağır cinayətlərdən olmaqla yanaşı, cəmiyyətləri daxildən parçalayan, münaqişələrə və zorakılığa rəvac verən təhlükəli ideologiyadır. Azərbaycan xalqı tarixən etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün insanların bərabərliyi prinsipinə sadiq olmuşdur. Təəssüf ki, regionda Azərbaycan xalqına qarşı monoetnik dövlət qurmaq məqsədi güdən, irqi dözümsüzlük və etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Məhz həmin acı təcrübədən çıxış edən Azərbaycan irqçiliyin və dözümsüzlüyün bütün formalarına qarşı qlobal mübarizənin ön sıralarında yer alır.

Azərbaycanın UNESCO İcraiyyə Şurasının 222-ci sessiyasında səsləndirdiyi bəyanat ölkənin son illərdə keçdiyi inkişaf yolunun, qazandığı diplomatik uğurların və gələcəyə yönəlmiş strateji hədəflərinin hərtərəfli və analitik təqdimatıdır. Sənəd göstərir ki, Azərbaycan beynəlxalq hüququn aliliyini təmin edərək ərazi bütövlüyünü bərpa etmiş, regionda yeni sülh və əməkdaşlıq erasının təməlini qoymuş, eyni zamanda UNESCO-nun təhsil, elm, mədəniyyət və dialoq kimi ali məqsədlərinin həyata keçirilməsinə mühüm praktiki töhfələr vermişdir. Vaşinqtonda sülh sazişinin paraflanması ilə Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcını qoyan Azərbaycan "Bakı Prosesi" ilə qlobal miqyasda dialoq mədəniyyətini təşviq edir, elm və təhsilə yatırdığı sərmayələrlə dayanıqlı gələcəyini təmin edir. Bu, milli maraqlarla bəşəri dəyərlərin harmonik vəhdətini təmin edən, gücə yox, hüquqa və əməkdaşlığa əsaslanan siyasətin təntənəsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Ekspert rəyi*



**Tural İSMAYILOV, politoloq**

UNESCO İcraiyyə Şurasının 222-ci sessiyasında səsləndirilən bəyanat ölkəmizin beynəlxalq arenada fəal və məqsədyönlü siyasətinin göstəricisidir. Azərbaycanın dördillik üzvlük dövründə həyata keçirdiyi fəaliyyət təşkilatın mandatına və prinsiplərinə verdiyi töhfələrin konkret nümunəsidir. Bakı yalnız formal iştirakla kifayətlənmir, həm də layihələr və təşəbbüslər vasitəsilə UNESCO-nun fəaliyyətini gücləndirir. Bu, ölkəmizin çoxşaxəli diplomatiya yürütməsinin parlaq təzahürüdür.

Azərbaycanın regionda sülh və əməkdaşlıq təşəbbüsləri, həmçinin Ermənistanla dialoqa açıq mövqeyi, mövcud geosiyasi reallıqlara baxmayaraq, prinsipial və konstruktiv siyasət yürüdüldüyünü nümayiş etdirir. Azərbaycan-UNESCO ilə əməkdaşlığı humanitar və intellektual sahələri də əhatə edir. Keyfiyyətli təhsil sahəsində aparılan layihələr, gənclərin və qadınların elm və innovasiyalarda iştirakının artırılması Azərbaycanın müasir dünya ilə inteqrasiya strategiyasının tərkib hissəsidir. "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoqun təşviqi ölkəmizin multikultural dəyərlərə verdiyi önəmi göstərir. İrqçiliyə qarşı birgə mübarizə Azərbaycanın insan hüquqları və bəşəri dəyərlərə bağlılığını təsdiqləyir.

Süni intellekt və elm sahəsində təşəbbüslər qlobal səviyyədə bilik cəmiyyətinin inkişafına töhfə vermək niyyətini ortaya qoyur. UNESCO platformasında fəal iştirak ölkəmizin diplomatik çevikliyi və strateji baxışının göstəricisidir. Bakı, həmçinin çoxşaxəli layihələr vasitəsilə gənclərin və qadınların potensialını reallaşdırır. Azərbaycanın UNESCO-nun prinsiplərinə sadiqliyi, beynəlxalq hüquq və dəyərlərə hörmətinin ən aydın göstəricisidir. Bu sadiqlik həm də regionda və dünyada Azərbaycanın etibarlı və konstruktiv tərəfdaş kimi mövqeyini möhkəmləndirir.



# Birlikdən yaranan diplomatik güc

## *Bakı Türk dünyasının “beşinci element”i olan Şimali Kiprin yanındadır*

**Kipr türklərinin onilliklərdir davam edən beynəlxalq təcridi türk dünyasının ortaq mənəvi məsuliyyətinə çevrilib. Bu tarixi ədalətsizliyi aradan qaldırmaq Azərbaycan diplomatiyasının prioritet siyasətlərindən birinə çevrilib. Rəsmi Bakı bu məsələni prinsipial mövqedən qaldıraraq beynəlxalq hüququn obyektiv və ədalətli tətbiqini təmin etmək uğrunda ardıcıl səylər göstərir. Məhz bu amil Azərbaycan və Şimali Kipri bir-birinə bağlayır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın oktyabrın 6-da Qəbələdə həyata keçirdiyi görüş qardaşlıq münasibətlərinin və diplomatik iradənin parlaq ifadəsi oldu. Zirvə öncəsi aparılan səmimi dialoq iki dövlət arasında möhkəmlənən həmrəyliyi, həmçinin beynəlxalq arenada kollektiv türk gücünün formalaşdığını nümayiş etdirən mühüm siyasi jest hesab etmək olar. Qəbələ görüşü Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Türk Dövlətləri Təşkilatı (TDT) formatında mövqeyini təsdiqləyərək, onun regional forumda tamhüquqlu iştirakçılıq statusunu möhkəmləndirdi. Azərbaycan isə Şimali Kipri etibarlı tərəfdaş kimi masaya gətirməklə türk dünyasının birgə mövqeyini ortaya qoydu və Kipr məsələsində sülh yolunu göstərən yeni strategiyanın xəritəsini çəkdi. ŞKTC-nin lideri öz “X” hesabında TDT-nin Qəbələ Zirvəsi ilə bağlı paylaşım edərək bu görüşün türk dünyasının həmrəyliyinə töhfə verdiyini bildirib: “Türk dünyasının birlik və həmrəylik ruhunu möhkəmləndirən Türk Dövlətləri Təşkilatının XII Zirvəsi münasibətilə bir araya gəlməkdən böyük məmnunluq duyuram. Şimali Kipr Türk Cümhuriyyəti öz kökləri, inancı və mübarizəsi ilə Türk dünyasının ayrılmaz bir hissəsidir. Ortaq ağıl, ortaq siyasət və paylaşdığımız dəyərlər Türk dünyasının birliyini gücləndirəcək və onu zirvəyə daşıyacaq”.

Bakının Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyi rasional və strateji siyasi xəttin nəticəsi olaraq formalaşıb. Bu siyasətin təməlində Qarabağda qazanılmış hərbi-diplomatik təcrübə dayanır. Azərbaycan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror əməliyyatlarından sonra yeni reallıqlar yarada bilən dövlət kimi, beynəlxalq hüququn icrasında güc amilinin əhəmiyyətini dərindən anlayır. Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Qəbələ sammitindəki çıxışında qeyd edib ki, bu görüşün Qarabağ Zəfərinin 5-ci ildönümünə təsadüf etməsi xüsusilə qürurverici hadisədir: “Qarabağ Zəfəri bütün Türk dünyasına bir daha göstərdi ki, biz birlikdə olduqda hər bir çətinliyin öhdəsindən gələ bilərik. Bu Zəfər həm də Türk dünyasının sarsılmaz həmrəyliyinin və qardaşlığının rəmzidir. Şimali Kipr Türk Cümhuriyyəti hər zaman Azərbaycanın yanında olacaq”.

Azərbaycan lideri ilə təkbətək görüş zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın Bakı və İrəvan arasında Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə əldə edilmiş sülh gündəliyinin irəliyə aparılması barədə təbrikləri siyasi mübadilə kimi qiymətləndirilə bilər. E.Tatar Azərbaycanın formalaşdırdığı yeni reallığı alqışlayır, İlham Əliyev isə Kipr türklərinin iki bərabər suveren dövlət kimi beynəlxalq status qazanmaq istəyinə prinsipial dəstək nümayiş etdirir. Rəsmi Bakının mövqeyinə görə, beynəlxalq hüquqa əsaslanan həqiqətlər qəbul edilməli və tanınmalıdır. Şimali Kipr Türk Cümhuriyyətinin mövcudluğu siyasi faktdır və bu, Azərbaycan tərəfindən təkcə Kipr türklərinə deyil, həm də beynəlxalq hüquq normalarının obyektiv və ədalətli tətbiqinə yönəlmiş strateji mövqeyini əks etdirir. ŞKTC-nin 2022-ci ildən TDT-də müşahidəçi statusu qazanması Azərbaycanın diplomatik səylərinin ən mühüm institusional uğurlarından biridir. Qəbələ görüşü bu inteqrasiya prosesinin dönməzliyini və davamlılığını bir daha təsdiqlədi. Bu görüşlə TDT-də liderlik Qırğızıstandan Azərbaycana keçdi.

TDT Şimali Kipr Türk Cümhuriyyəti üçün beynəlxalq təcridi aradan qaldırmaq və mövqeyini gücləndirmək baxımından effektiv geosiyasi platforma rolunu oynayır. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ŞKTC-nin TDT üzvləri ilə əlaqələri rəsmi kanallara yönləndirilir ki, bu da Şimali Kiprin institusional legitimliyini əhəmiyyətli dərəcədə artırır. Oktyabrın 19-da ŞKTC-də keçiriləcək prezident seçkiləri fonunda Qəbələ görüşü daxili siyasi mənzərəni kökündən dəyişdirir. Azərbaycan dəstəyi isə Kipr türklərinin mövqeyini beynəlxalq səviyyədə möhkəmləndirir və onların suveren hüquqlarının tanınması prosesinə strateji təsir göstərir.

Kiprdə qarşıdan gələn prezident seçkiləri ərəfəsində Azərbaycanın ŞKTC-yə verdiyi siyasi və mənəvi dəstək Ersin Tatarın “iki dövlət” vizyonunu gücləndirir və Kipr türklərinin beynəlxalq arenada təmsilçilik hüququnu bərpa etmək istiqamətindəki siyasi strategiyasını əsaslandırır. Bu proses Azərbaycanın postkonflikt dövrü geosiyasətində regional güc kimi özünü təsdiq etməsinin və beynəlxalq hüququn ədalətli tətbiqi uğrunda ardıcıl diplomatik mübarizə aparmasının bariz sübutudur. Şimali Kipr üçün təcridin sonu üfüqdə görünür və bu yol Azərbaycandan keçir. Qardaşlıq və ədalətə sadiqlik Türk dünyasının beynəlxalq siyasətdə formalaşan yeni devizini təşkil edir.

***Ekspert rəyi***



**İsmayıl ŞAHİN,**
**Onyedi Eylül Universitetinin professoru**

Son illərdə Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) arasında formalaşan əlaqələr ümumtürk məkanında siyasi həmrəyliyin, iqtisadi inteqrasiyanın və mədəni yaxınlığın dərinləşməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu münasibətlər Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində vahid türk coğrafiyasının konsolidasiyasına yeni nəfəs verir.

ŞKTC Prezidenti Ersin Tatarın türk dövlətləri ailəsinə inteqrasiya istiqamətində həyata keçirdiyi siyasət ölkənin beynəlxalq səviyyədə tanınmasını asanlaşdırır və Şərqi Aralıq dənizindəki türk varlığını geosiyasi baxımdan gücləndirir. Onun rəhbərliyi ilə irəli sürülən diplomatik təşəbbüslər göstərir ki, ŞKTC artıq yalnız Türkiyənin dəstəyinə əsaslanan siyasət trayektoriyasından çıxaraq, çoxvektorlu əməkdaşlıq modelinə yönəlir. Lakin bu multimodel zamanla effektiv olacaq. Necə ki, Lefkoşanın sahibi Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının XII Zirvə görüşündə bildirib ki, Türkiyənin təminatı Şimali Kiprin təhlükəsizliyinin və sabitliyinin qarantıdır.

Bakının Lefkoşa ilə münasibətləri genişləndirməsi qardaşlıq dəyərlərinə, ortaq tarixi mirasa və ümumtürk həmrəyliyinə sədaqətinin parlaq təzahürüdür. Qarabağ Zəfərindən sonra Azərbaycanda Şimali Kiprə artan maraq formalaşan yeni birliyin mənəvi davamı kimi qiymətləndirilir. TDT bu prosesdə koordinasiyaedici platforma rolunu oynayır. ŞKTC-nin təşkilatda müşahidəçi statusu əldə etmək niyyəti və tədbirlərdə getdikcə artan iştirakı Kipr türklərinin pan-türk məkanında öz yerini möhkəmləndirdiyini göstərir.

Şimali Kiprdə keçiriləcək prezident seçkiləri təkcə daxili siyasi hadisə deyil, həm də qardaş ölkələrlə qurulmuş strateji əməkdaşlığın gələcək istiqamətini müəyyənləşdirəcək mühüm mərhələdir. Ersin Tatarın liderliyi dövründə ŞKTC TDT başda olmaqla, müxtəlif regional institutlarla qarşılıqlı əlaqələr quraraq, öz siyasi çəkisini Aralıq dənizi regionunun hüdudlarından kənara daşımağı bacarıb.

Lefkoşanın gələcəyi yalnız Ankara ilə münasibətlərdən asılı deyil; Bakı, Astana, Daşkənd və Bişkeklə qurulacaq çoxşaxəli əlaqələr Kipr türklərinin səsini beynəlxalq siyasi müstəvidə daha qətiyyətlə eşitdirəcək.

***Tacir SADIQOV***
***XQ***

# Koçaryan mafiyası Ermənistanı yenidən fəlakətə sürükləyir

## *Cinayətkar ünsürlərin dəstəyinə arxalanan keçmiş prezidentin revanş təşnəliyi*

**Ermənistanda həm hakimiyyət, həm də müxalifət aktiv şəkildə 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkilərinə hazırlaşırlar. Qonşu ölkənin siyasi mənzərəsini, qüvvələr nisbətini diqqətlə nəzərdən keçirdikdə demək mümkündür ki, hakimiyyət düşərgəsi monolitdir, hər hansı parçalanma, əks cinaha meyil etmək tendensiyası, yaxud təbəddülat yoxdur. İqtidar əsasən ölkədə son illər müxtəlif sahələrdə aparılan islahatları, ən əsası isə Azərbaycanla sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş layihəsinin paraflanmasını, erməni əsgər və zabitlərinin daha həlak olmadığını, şərti sərhəddə sabitliyin hökm sürməsini əsas nailiyyəti kimi təqdim edir. Şübhəsiz ki, bu məsələ onların seçki platformasında xüsusi yer tutacaq.**




Müxalifət hələlik dağınıq təsiri bağışlasa da, bu düşərgənin spektri genişdir. Bura ölkənin üç keçmiş prezidenti, onların zamanında yüksək vəzifələr tutmuş Seyran Ohanyan, Vardan Oskanyan kimi odioz fiqurlar, həbsdə olan erməni əsilli rusiyalı milyarder Samvel Karapetyan, Erməni Apostol Kilsəsi, onun rəhbəri II Qaregin, baş nazir Nikol Paşinyanın vəzifədən çıxardığı Arman Tatoyan, Edmon Marukyan kimi şəxslər, “Daşnaksütyun”, “Şərəfim var” partiyaları və parlament fraksiyaları, eləcə də 2023-cü ildə Qarabağdan köçüb getmiş keçmiş separatçı rejimin rəhbərləri, onların əlaltıları daxildir. Görünən odur ki, bu düşərgə seçkiləri Paşinyanı devirmək üçün bir fürsət, bəlkə də son şans hesab edir. Hayastanın ikinci prezidenti, hazırda ölkədəki radikal revanşist kəsimin əsas siması hesab olunan Robert Koçaryanın oktyabrın 7-də keçirdiyi mətbuat konfransına da, zənnimizcə, bu kontekstdən yanaşmaq daha doğru olar.

Əvvəlcə onu qeyd edək ki, Koçaryan seçkilərdə iştirak edəcəklərini birmənalı şəkildə bəyan etməklə bu məsələyə aydınlıq gətirib: “Mənin komandam qarşıdan gələn parlament seçkilərində iştirak edəcək”. Digər keçmiş prezidentlərin adından danışmaqdan imtina edən Robert həmişə olduğu kimi, yenə özünü öyüb: “2021-ci il seçkilərində iştirakım nümayiş etdirdi ki, mənim kütlələrin birləşdirilməsində müəyyən təsir gücüm var”. Keçmiş prezident, eyni zamanda, vurğulayıb ki, o, yeni qüvvələrin meydana çıxmasını istərdi, onlarla əməkdaşlıq ölkədə vəziyyətin dəyişməsinə gətirib çıxaracaq. O xatırladıb ki, Levon Ter-Petrosyanın partiyası siyasi proseslərdə, Serj Sarkisyanın partiyası isə bütün seçkilərdə iştirak edir: “Partiyanın iştirakı liderin iştirakı deməkdirmi? Təbii ki, bəli”. O, beynəlxalq siyasi proseslərdən nümunə gətirib: “İvanişvili heç bir vəzifə tutmur, amma hamı görür ki, heç bir mühüm məsələ onun iştirakı olmadan həll olunmur. O, hakim “Gürcü arzusu” partiyasının lideridir”.

Bununla belə, Koçaryan 2026-cı il seçkilərində iştirakın formatını müzakirə etmədiklərini, qərarların qışda veriləcəyini bildirib: “Hələ heç bir qərar verilməyib. Bu qərarlar yanvar-fevral aylarında veriləcək. Onları daha əvvəl müzakirə etməyin mənası yoxdur. Siyahıya kimin başçılıq edəcəyi sosioloji məlumatlara görə kimin şansının daha çox olmasından asılıdır”.

Koçaryan üç vahidin iştirakı ilə hakimiyyətin devriləcəyinə heç bir şübhəsinin olmadığını bildirib: “Nəzəri cəhətdən mən bunu təxminən altı ay əvvəl görmüşəm. Onlardan biri təbii olaraq yaranıb – Samvel Karapetyan. Fikrimcə, daha bir neçə vahid olacaq, onlar birləşəcək, seçkilərdə daha mütəşəkkil şəkildə iştirak etməyə çalışacaqlar, onlardan biri kimdənsə üstün olacaq. Sosioloji məlumatlar göstərir ki, seçkilərdən sonra iki siyasi qurum – “Hayastan” bloku” və Samvel Karapetyanın yaratdığı partiya “Mülki müqavilə” partiyasından bir qədər geridə qalaraq parlamentə daxil olacaqlar. Mən bu iki qüvvənin birlikdə hakim partiyadan xeyli çox səs qazanacağına da əminəm”.

O, Paşinyanın yenidən baş nazir seçilmək şansının sıfıra yaxın olduğunu deyib: “Əgər biz səhv etməsək, Paşinyanın yenidən seçilmək şansı sıfıra yaxındır. Mən şübhə etmirəm ki, hökumət Moldova nümunəsini Ermənistana tətbiq etməyə çalışacaq. Geosiyasi maraqlar toqquşanda hamı demokratiyanı unudur, bu, faktdır”.

Koçaryan bu yaxınlarda Moskvaya səfəri barədə yayılan faktlara da münasibət bildirib. Onun bu faktları təsdiqləməkdən başqa çıxış yolu qalmayıb. Buna baxmayaraq, yenə də özünəməxsus şəkildə vəziyyətdən çıxmağa çalışıb. Deyib ki, onun Rusiyaya hər səfəri müxtəlif söz-söhbətlərlə (?) müşayiət olunur: “Təxminən bir ay əvvəl mən doğrudan da Moskvada idim – cəmi iki gün, şənbə və bazar günləri. Özəl, şəxsi məsələlər üçün. Bazar ertəsi günorta artıq qayıtmışam. Əgər səfərin məqsədi rəsmi görüşlər olsaydı, yəqin ki, başqa günləri seçərdim”.

Digər maraqlı məqam isə Koçaryanın 2008-ci il martın 1-də baş vermiş hadisələrlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin bu yaxınlarda çıxardığı qərara verdiyi reaksiyadır. İddia edib ki, Ermənistan 2018-ci ildən bəri 2008-ci il martın 1-də baş vermiş hadisələrlə bağlı AİHM-ə qaldırılan bütün işləri uduzub: “14 il sonra Avropa İnsan Haqları Məhkəməsi 1 mart işi üzrə qərar çıxararaq, 2008-ci ildə Ermənistan hakimiyyətinin vəfat etmiş vətəndaşların yaşamaq hüququnu pozduğunu müəyyən edib. AİHM qərarının mənə heç bir aidiyyəti yoxdur, çünki mən 2008-ci il martın 1-də baş vermiş hadisədən sonra bir aydan çox müddət ərzində vəzifədə olmuşam. Bundan başqa, AİHM-in qərarında – 110 səhifəlik sənəddə qətllərdən bəhs olunmur, ölümlər qeyd olunur”.

*

Koçaryanın son açıqlamaları bir daha göstərir ki, eks-prezident hələ də Ermənistanın gələcəyini öz ambisiyalarının prizmasından görməkdə davam edir. O, parlament seçkilərində iştirakla bağlı bəyanatını sanki ölkədə yeni bir siyasi dinamika yaradacaqmış kimi təqdim edir. Halbuki, 2021-ci ilin seçki təcrübəsi göstərdi ki, Koçaryanın “kütlələri birləşdirmək” qabiliyyəti artıq mifdən başqa bir şey deyil. O dövrün nəticələri sübut etdi ki, keçmişin kölgəsinə sığınaraq gələcəyə addım atmaq mümkün deyil. Koçaryanın “yeni qüvvələrlə əməkdaşlıq edəcəyik” iddiası da reallıqdan uzaqdır. Əslində, o, yeni simaların arxasında gizlənərək siyasi səhnəyə qayıtmaq niyyətindədir. Bu, onun özünənamının azaldığını göstərir. O, hələ də erməni siyasətində “açar fiqur” kimi çıxış etdiyini vurğulamaq üçün Bidzina İvanişvili ilə müqayisə aparır. Lakin bu paralel tamamilə uğursuzdur: İvanişvili Gürcüstanda iqtisadi təsir rıçaqlarına, real ictimai dəstəyə malikdir, Koçaryan isə keçmişdəki korrupsiya qalmaqalları, siyasi repressiyalar və 1 mart faciəsinin məsuliyyətindən boyun qaçıran mafioz siyasətçidir.

Koçaryanın 2026-cı il seçkilərinə dair qeyri-müəyyən bəyanatları da onun tərəfdarlarına belə aydın siqnal vermir. “Qərarları qışda verəcəyik” deməsi daha çox vaxt qazanmaq və tərəfdarlarını gözlətmək taktikasına bənzəyir. Bu, siyasi yetkinlikdən çox, populist və manipulyativ yanaşmadır.

Onun üç vahidin birləşməsi ilə hakimiyyəti devirmək barədə dedikləri isə açıq-aşkar xəyali arzudan başqa bir şey deyil. Əgər Koçaryan doğrudan da güclü təsirə sahib olsaydı, 2021-ci ildə “Hayastan” blok seçkilərdə aciz qalmazdı. Onun həm Moskva səfəri, həm də 2008-ci il 1 mart hadisələrinə dair açıqlamaları isə bir daha göstərir ki, keçmiş prezident nə siyasi, nə də mənəvi baxımdan üzərinə düşən məsuliyyəti qəbul etməyə hazır deyil. Koçaryanın “Moskvaya şəxsi məsələlər üçün getmişdim” bəhanəsi illərdir erməni xalqına təqdim etdiyi köhnə ssenarinin davamıdır. Koçaryan başa düşmür ki, bununla səs istədiyi Ermənistan seçicisinə hörmətsizlik edir.

Daha ciddi məsələ isə 1 mart hadisələrinə dair açıqlamalarıdır. AİHM-in qərarını özündən uzaqlaşdırmaqla Koçaryan bir daha faciəvi hadisələrdə rolunu israrla inkar edir. Onun “qətllərdən bəhs olunmur, sadəcə ölümlər qeyd olunur” ifadəsi siyasi etikaya sığmır və faciə qurbanlarının xatirəsinə hörmətsizlikdir. Həmin ölümlər elə o dövrdəki hakimiyyətin, yəni Koçaryanın rəhbərlik etdiyi rejimin zorakı siyasətinin nəticəsi idi. Koçaryanın məsuliyyəti danması həm də siyasi manipulyasiyadır. Bu cəhdlər, əslində, onun keçmişdə törədilən cinayətləri yükünü daşımamaq üçün hər vasitəyə əl atdığını göstərir.

Bütövlükdə, Koçaryanın mətbuat konfransından aydın görünür ki, o, ölkənin problemlərinin konkret həll yollarını təklif etmək əvəzinə, hələ də şəxsi siyasi revanş hissi ilə yaşayır. Ermənistan cəmiyyətinin gözləntiləri dəyişib: xalq köhnə klanların deyil, real islahatların tərəfdarıdır. Koçaryan isə keçmişin simvolu olaraq qalır. Beləliklə, Koçaryanın iddiaları Ermənistan üçün nə yenilik, nə də ümid vəd edir. Onun hakimiyyətə qayıdış arzusu siyasi mübarizədən çox şəxsi ambisiyalarının davamıdır və cəmiyyət üçün yeni perspektiv açmaqdan uzaqdır.

***Səxavət HƏMİD***
***XQ***

# Halal dəyərlərlə qlobal əməkdaşlığa doğru

**(əvvəli 1-ci səhifədə)**

Forumun ilk günü olduqca aktual mövzulu çıxışlar, panel müzakirələri ilə yadda qaldı. Açılış mərasimində müqəddəs "Qurani-Kərim"dən ayələr oxundu. Daha sonra "AZHAB Film"in hazırladığı videoçarx nümayiş olundu.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Azərbaycanın işğaldan azad olunmuş əraziləri və Naxçıvan Muxtar Respublikasında halal sənayenin inkişafı barədə məlumat verdi. AQTA sədri qeyd etdi ki, halal sənaye Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən xəstəlikdən azad zonalar elan olunandan və belə ərazilərə azad status əldə olunduqdan sonra mümkün olacaq: "Fürsətdən istifadə edərək Azərbaycan sahibkarlarını həm Naxçıvan Muxtar Respublikasında, həm də işğaldan azad olunmuş ərazilərdə halal sənaye quruculuğunda yaxından iştirak etməyə dəvət edirəm".

İqtisadiyyat nazirinin müavini Elnur Əliyev Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına (İƏT) daxil olan ölkələrlə iqtisadi əlaqələrini vurğulayaraq bildirdi ki, ölkəmizdə təşkilatın 11 minə yaxın şirkəti fəaliyyət göstərir: "Bu ilin yanvar–avqust aylarında Azərbaycanla İƏT arasında ticarət dövriyyəsinin dəyəri 6 milyard ABŞ dollarına yaxın olub. Azərbaycan regionda İƏT-in fəal üzvlərindən biridir və üzv dövlətlərlə siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafına böyük önəm verir".

Forumun açılışında İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin iqtisadi məsələlər üzrə köməkçisi Əhməd Kavesa Sengendo, İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzinin Baş direktoru Zəhra Zümrüt Səlçuk, İslam İnkişaf Bankının Malayziyadakı Mükəmməllik Mərkəzinin rəhbəri Samer Elesavi, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti Taha Ayhan və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış etdilər. Natiqlər ticarət və investisiya sahəsində əməkdaşlıq imkanları, idxal-ixrac məsələləri, beynəlxalq bazarlarda rəqabət, halal sənayenin potensialı və trendlər, müvafiq sahədə innovasiya və texnologiyaların rolu, halal məhsul və xidmətlərin sertifikatlaşdırılması barədə fikirlərini bölüşdülər.

Forumda daha bir yaddaqalan məqam isə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Türkiyənin "Bilişim Vadisi" ilə KOB-ların "yaşıl" keçidinə dəstəyə dair, eləcə də Malayziyanın "Berhad" Halal İnkişaf Korporasiyası ilə əməkdaşlıq



haqqında anlaşma memorandumları imzalanması oldu. Bununla yanaşı, İƏT KOB-lar şəbəkəsinin yaradılmasına qərar verildi. Şəbəkənin yaradılmasında məqsəd İƏT çərçivəsində KOB-lara dəstək verən qurumların əməkdaşlığını gücləndirməkdir.

Qeyd edək ki, "AZHAB Forumu 2025" konfrans və sərgi olmaqla iki hissədən ibarətdir. Konfrans çərçivəsində halal sənayenin ənənəvi sahələri, o cümlədən maliyyə və turizm mövzuları, halal biznesin idarəolunması, "yaşıl" keçid, biznesdə qadınların rolu və digər yeni istiqamətlər müzakirə edilir.

Forumun sərgi hissəsi də bir o qədər rəngarəng və fərqlidir. Müxtəlif şirkətlər, qurumlar onlara ayrılmış pavilyonlarda öz məhsullarını nümayiş etdirirlər. Biz də XQ olaraq pavilyonların bəzilərinə qonaq olduq, geniş fikir mübadiləsi apardıq.

**Vüsal Əmirxanov, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) Sertifikatlaşdırma şöbəsinin müdiri:**




– Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu artıq ikinci ildir ki, bu forumun iştirakçısıdır. İnstitut 2024-cü ilin əvvəlindən etibarən İslam Əməkdaşlıq Təşkilatının standartlarına – yəni SMIC standartlarına əsaslanan Halal İdarəetmə Sistemi və Halal Sertifikatlaşdırma xidmətlərini tətbiq edir.

2024-cü ilin sonlarından etibarən AQTİ dörd istiqamət üzrə Türkiyə Halal Akkreditasiya Qurumu (HAK) tərəfindən rəsmi şəkildə akkreditasiya olunub. Keçən ilki Halal Biznes Forumundan bu günə qədər olan müddətdə İnstitut tərəfindən yeddi müəssisə Halal Sertifikatı alıb və Halal Uyğunluq nişanından istifadə hüququ qazanıb. Halal Uyğunluq Sertifikatının verilməsi Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda bir neçə mərhələdən ibarətdir. Əvvəlcə müəssisədən daxil olan müraciət qəbul olunur və təhlil edilir. Daha sonra müəssisə ilə ilkin tanışlıq mərhələsi keçirilir, təqdim edilən sənədlər araşdırılır. Uyğunluq müəyyən edildikdə, qarşılıqlı müqavilə imzalanır.

Müqaviləyə əsasən iki mərhələli sertifikatlaşdırma xidməti həyata keçirilir. İnstitut daxilində bu prosesin obyektivliyini təmin etmək məqsədilə müxtəlif komitələr – qərəzsizlik, etiraz və şikayət, həmçinin sertifikatlaşdırma komitələri fəaliyyət göstərir. Məhz bu komitələrin işi sayəsində sertifikatlaşdırma prosesinin şəffaflığı və etibarlılığı təmin edilir. Hazırda forumda AQTİ tərəfindən Halal Sertifikatı almış bəzi müəssisələr də iştirak edir. Bu, olduqca müsbət haldır, çünki həmin müəssisələr öz halal məhsullarını burada sərgiləyərək istehlakçılara təqdim edirlər.

**Vakqar Baxtavari, Azərbaycan–Pakistan Ticarət və Sənaye Palatasının prezidenti:**

– Palatamız yaxın zamanda fəaliyyətə başlayıb və onun yaranması ideyası Azərbaycanın İslamabaddakı səfiri Xızır Fəradunun təşəbbüsü ilə gerçəkləşib.

Halal Biznes Forumu bu mənada mühüm əhəmiyyət daşıyır.



Forumda dünyanın müxtəlif regionlarından olmaqla, 30-dan çox ölkədən rəsmi şəxslər, mütəxəssislər, akademik dairələrin və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də iş adamları iştirak edir. Bu kimi platformalar bizim palata üçün də yeni tərəfdaşlıqlar qurmaq və Pakistanla Azərbaycan arasında iqtisadi əlaqələri daha da gücləndirmək baxımından olduqca dəyərlidir.

Palatanın əsas məqsədi hər iki ölkənin biznes icmalarını bir-birinə yaxınlaşdırmaq, Azərbaycan və Pakistan sahibkarları arasında əməkdaşlıq üçün vahid platforma yaratmaqdır. Yaxın gələcəkdə biz onlayn portalın yaradılmasını da planlaşdırırıq. Bu portal vasitəsilə hər iki tərəfin iş adamları bir-biri ilə birbaşa əlaqə saxlaya biləcəklər. Məsələn, Azərbaycandan biri düyü, meyvə və ya tərəvəzlə bağlı sorğu göndərmək istəsə, portaldan həmin məhsullarla məşğul olan təchizatçıların adlarını və əlaqə məlumatlarını əldə edə biləcək. Ümumiyyətlə, perspektivdə iri iqtisadi dividendlərin əldə olunmasını səbirsizliklə gözləyirik. Eləcə də Halal Biznes Forumu bu kimi məsələlərə işıq olur.

**Ruslan Atakişiyev, "İqtisadi Resursların Öyrənilməsi Mərkəzi" İctimai Birliyinin sədri:**



– Bu forumun əsas məqsədi halal ekosistemində fəaliyyət göstərən bütün qurumlar və təşkilatlar arasında əlaqələrin formalaşdırılmasına, həmçinin onların ölkə iqtisadiyyatındakı rolunun gücləndirilməsinə yönəlib. Qeyd etmək istərdim ki, tədbirdə Avropa ölkələrindən olan qonaqlar da iştirak edirlər və onlar halal biznes sahəsində geniş təcrübəyə malikdirlər. Forumun əsas bölmələri halal istehsalın inkişafı, halal xammalın əldə olunması, qida və xidmət sektorlarında halal biznesin təşkili mövzularına həsr olunub. Bununla yanaşı, İslam maliyyəsi, maliyyələşmə mənbələri və halal investisiyalarla bağlı məsələlər də müzakirə edilir.

Xüsusilə halal investisiyaların təşviqi, qadın sahibkarların inkişafı, eləcə də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində investisiya imkanları ilə bağlı aparılan müzakirələr böyük əhəmiyyət daşıyır. Bundan əlavə, forum çərçivəsində ekoloji cəhətdən təmiz istehsalın formalaşdırılmasına yönəlmiş konsorsiumun yaradılması da gündəmdədir. Halallıq anlayışı əslində ekoloji təmiz istehsalla sıx bağlıdır. BMT-nin 17 davamlı inkişaf məqsədi ilə İslamın əsas dəyərləri arasında oxşarlıq var. Burada insan rifahı, sağlam qidalanma, təmiz mühit kimi məsələlər ön plana çıxır.

Forum çərçivəsində yerli istehsalçılar və halal biznes nümayəndələri ilə xarici ölkə təmsilçiləri arasında geniş əlaqələr qurulur. Qeyd etmək lazımdır ki, ötən il keçirilən forumdan sonra da bir çox sahibkar bu əlaqələri inkişaf etdirərək müxtəlif ölkələrlə iqtisadi əməkdaşlığa, o cümlədən məhsul ixracına nail olublar.

Ümumiyyətlə, forumun sərgi bölməsində Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan və digər ölkələrdən olan 30-a yaxın şirkət öz məhsul və xidmətlərini təqdim edir və halal dəyərləri və dayanıqlı inkişaf ideyalarını bir araya gətirən sərgi bu gün yekunlaşacaq.

***Nurlan ABDALOV,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# Alman şirkətlərinin ölkəmizə marağı artır

## *İki dövlət arasında ticarət 8 milyard dollara çatıb*




**Dünən Bakıda Alman – Azərbaycan ixracat və maliyyə konfransı keçirilib. Toplantıda Almaniyanın 40-dan çox iş adamı və biznes strukturunun nümayəndəsi iştirak edib.**

Özəl sektorun qarşılıqlı əlaqələrinin genişləndirilməsi və potensial imkanların müzakirə olunduğu konfransı giriş sözü ilə açan Almaniya – Azərbaycan Ticarət Palatasının sədri Narqis Viek hər iki ölkənin biznes əlaqələri üçün böyük potensiala malik olduğunu diqqətə çatdırıb. Almaniya biznesinin dəqiqlik və şəffaflığa daha çox üstünlük verdiyini bildirən palata sədri deyib ki, Azərbaycan qanunvericiliyi ölkədə şəffaf biznes qurmağa əhatəli imkanlar yaradıb: "Konfransda hər iki tərəfin iş adamlarının tanış olması, əlaqələr yaratması üçün əlverişli zəmin hazırlanıb. Bu imkandan yararlanmaq lazımdır. Konfransda təcrübə və biliklərin paylaşması da vacib məsələlərdən biridir. Almaniya sənayesinin inkişafı yerli iş adamları və biznes qurumları üçün təcrübə ola bilər. Azərbaycanda həyata keçirilən islahatlar investisiya yatırılması, çevik və sərbəst biznesin qurulmasına imkan verir".

Rəhbərlik etdiyi qurumun Almaniya ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün konkret layihələr müəyyən etdiyini vurğulayan Narqis Viekin sözlərinə görə, konfrans layihə sahiblərinin ixrac imkanlarını təqdim etməsinə və hər iki ölkənin maliyyə institutlarının birbaşa əlaqə qurmasına şərait yaradır. O əlavə edib ki, alman şirkətlərinin innovativ texnologiyalar, etibarlı ticarət dəstəyi alətləri, xidmət və insan kapitalına – bilik və təcrübə transferinə sərmayə qoyması onları Azərbaycanın diversifikasiya və dayanıqlı sənaye inkişafı üçün arzuolunan tərəfdaşa çevirir.

Almaniyanın ölkəmizdəki səfiri Ralf Horlemann çıxış edərək bildirib ki, alman şirkətləri Azərbaycanda qaz, nəqliyyat və bərpaolunan enerji layihələri ilə maraqlanır. Səfir SEFE ilə SOCAR arasında qaz sahəsində əldə olunmuş razılaşmanı, eləcə də MAN şirkətinin elektrik avtobuslarının istehsalı və ya yığımı ilə maraqlandığını buna misal çəkib.

Qeyd olunub ki, Almaniya Azərbaycandakı tərəfdaşları ilə birlikdə əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan istifadə etməkdə qərarlıdır. Son zamanlar ölkələr arasında əməkdaşlıqda əhəmiyyətli irəliləyişin, eləcə də çox düzgün və müsbət istiqamətdə hərəkətin müşahidə olunduğunu bildirən səfir il yarım əvvəl Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərliyi ilə 50-yə yaxın şirkətdən ibarət olan böyük biznes nümayəndə heyətinin Azərbaycanda olduğunu xatırladıb.

Diplomat, həmçinin bu ilin aprelində Prezident Frank-Valter Ştaynmayerin Azərbaycana səfərindən sonra ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. Bununla yanaşı, alman şirkətlərinin enerji sektorunda, xüsusilə də bərpaolunan enerji mənbələri sahəsində daha çox iştirak etməyi səbirsizliklə gözlədiklərini vurğulayıb: "Biz hamımız uzun illərdir potensial haqqında danışırıq və düşünürəm ki, bu potensialı reallığa çevirməyin vaxtı çatıb. Almaniya biznesi hökumətimizin dəstəyi ilə buna hazırdır".

Konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bildirib ki, bu ilin yanvar-avqust aylarında Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsi 1 milyard ABŞ dollarını ötüb və ixracın 94 faizi qeyri-neft sektorunun payına düşüb. Nazir müavini Almaniyaya ixracın 900 milyon dollara, həmçinin Azərbaycanın bu ölkəyə yatırımlarının isə 600 milyon dollara çatdığını diqqətə çatdıraraq deyib ki, bütün bu göstəricilər Almaniyanı Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasında saxlayır. S. Bəşirli əlavə edib ki, hazırda Azərbaycanda 199 alman şirkəti fəaliyyət göstərir və əməkdaşlıq yol xəritəsi əsasında müntəzəm biznes dialoqu, beynəlxalq tədbirlərdə birgə iştirak və bilik mübadiləsi həyata keçirilir.

Nazir müavini enerji əməkdaşlığının tərəfdaşlığın əsas istiqamətlərindən biri olduğunu qeyd edərək bildirib ki, Almaniyanın külək və günəş texnologiyaları üzrə təcrübəsi Azərbaycanın onşor və ofşor layihələrində mühüm rol oynaya bilər: "Xəzər dənizi böyük miqyaslı külək enerjisi layihələrinin reallaşdırılması üçün ciddi potensiala malikdir. 2027-ci ilə qədər ölkədə 3 QVt gücündə yeni külək və günəş stansiyaları işə salınacaq".

Maliyyə Nazirliyi yanında Dövlət Borclarının və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru Azər Mursaqulov çıxışında Azərbaycanın borc mövqeyinin dayanıqlı və möhkəmliyinə diqqət çəkib: "2025-ci ilin üçüncü rübü üzrə ölkənin ümumi dövlət borcu ÜDM-in 19,6 faizinə bərabərdir. Bunun 37 faizi xarici, 67 faizi isə daxili borcun payına düşür. Bu nəticə 2018-ci ildə qəbul olunmuş ilk borc idarəetmə strategiyasının ardıcıl icrasının göstəricisidir".

Azərbaycanın hazırda yeni xarici borclanma imkanlarını və dövlət zəmanətlərini nəzərdən keçirdiyini vurğulayan agentlik rəhbərinin sözlərinə görə, dövlət borc strategiyasının yenilənməsi üzərində işlər davam etdirilir və yeni mərhələdə xarici borclanma imkanlarının genişləndirilməsi əsas prioritetlərdən biri olacaq. Mursəqulov əlavə edib ki, son 7 ildə dövlət zəmanətləri portfeli əhəmiyyətli dərəcədə azaldılsa da, bu alət hökumət üçün prioritet layihələrin maliyyələşdirilməsində mühüm vasitə olaraq qalır.

Alman bankları ilə əməkdaşlığın tarixçəsinə toxunan A.Mursaqulov bildirib ki, Azərbaycan indiyədək KfW, Bayerische Landesbank və Commerzbank kimi maliyyə qurumları ilə hökumət və dövlət zəmanətli olmaqla, ümumilikdə, 16 kredit sazişi imzalayıb. Sonda o, ixracat və maliyyə konfransının alman maliyyə qurumları ilə əməkdaşlığı yenidən gücləndirmək üçün mühüm fürsət olacağına əminliyini bildirib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı Limanı 9 ayda 6,1 milyon ton yük aşırıb




**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (ADY) struktur bölməsi olan Bakı Beynəlxalq Dəniz Limanı vasitəsilə 2025-ci ilin yanvar-sentyabr aylarında 6 milyon 108 min ton yük aşırılıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,7 faiz artım deməkdir. Ümumilikdə isə bu göstərici 22 il ərzində əldə olunan ən yüksək nəticədir.**

ADY-dən verilən məlumata görə, hesabat dövründə ən böyük artım konteyner aşırılmasında qeydə alınıb. Belə ki, cari ilin 9 ayı ərzində liman vasitəsilə 77 min 295 TEU konteyner aşırılıb. Bu isə ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə 40,4 faiz artım deməkdir. Bununla yanaşı, quru yüklərin aşırılmasında 36,7 faiz, təkərli texnikaların aşırılmasında isə 1,3 faiz artım müşahidə olunub.

Qurumdan o da bildirilib ki, Bakı Limanının beynəlxalq yükdaşıma marşrutlarındakı rolunun möhkəmlənməsi, tərəfdaşlarla həyata keçirilən effektiv əməkdaşlıq və yeni logistik təşəbbüslər sayəsində bu pozitiv dinamikanın davam edəcəyi və ilin sonuna göstəricilərin daha da artaraq 100 min TEU təşkil edəcəyi proqnozlaşdırılır.

"Ölkəmizin tranzit gücünün artırılması məqsədilə Bakı Limanının ADY ilə inteqrasiyasından sonra müəssisənin illik gücü hər hansı investisiya yatırılmadan qısa müddətdə 100 min TEU-dan 150 min TEU-ya yüksəldilib" – deyə məlumatda qeyd olunub.

***XQ***

# Tələbələrin aqrar süni intellekt layihəsi

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində startapçılarla görüş keçirilib.**

Ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə həyata keçirilən layihənin əsas məqsədi kənd təsərrüfatında rəqəmsal və süni intellekt texnologiyalarının tətbiqini təşviq etmək, aqrar sahədə innovasiyalara marağı artırmaq, eləcə də aqrar startap ekosisteminin inkişafına dəstək göstərməkdir.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, görüşə ölkə üzrə süni intellektin tədris olunduğu 17 ali təhsil müəssisəsini təmsil edən 70 tələbədən ibarət 18 startap komanda qatılıb. Startapçılar kənd təsərrüfatında tətbiq edilə bilən innovativ texnoloji həllərə dair təqdimatlarla çıxış ediblər.

Startap komandaları tərəfindən təqdim olunan layihələr arasında bitkilərdə xəstəliklərin fotoşəkil əsasında müəyyənləşdirilməsinə kömək edən mobil tətbiq, suvarma sistemlərinin avtomatlaşdırılması, sensor texnologiyalarına əsaslanan idarəetmə modelləri, biotexnoloji üsullarla yetişdirilən bitkilərin satışını vahid platforma üzərindən təşkil edən sistemlər, aqrar fəaliyyətlərin ağıllı idarə edilməsini təmin edən proqram təminatları və s. yer alıb.

Kənd Təsərrüfatı Nazirliyinin struktur bölmələrinin rəhbər və mütəxəssislərinin, tabeli qurumların nümayəndələrinin, eləcə də özəl sektor və innovasiya ekosistemi




üzrə fəaliyyət göstərən 10-a yaxın Akselerasiya və İnkubasiya Mərkəzinin ekspertlərinin iştirakı ilə keçirilən tədbirdə layihələr ətrafında geniş fikir mübadiləsi aparılıb, ideyaların təkmilləşdirilməsi, bazar tələblərinə uyğunlaşdırılması və tətbiq imkanlarının genişləndirilməsi istiqamətində mütəxəssislər tərəfindən tövsiyələr verilib.

Qeyd edək ki, layihə çərçivəsində seçilən startap komandaları cari ilin 14-16 oktyabr tarixlərində keçiriləcək "5-ci Yubiley Azərbaycan Beynəlxalq Qarabağın Bərpası, Yenidənqurulması və İnkişafı Sərgisi"ndə öz layihələrini sərgi ziyarətçilərinə təqdim edəcəklər.

***XQ***

# Müharibə cinayətləri Ermənistanın tarixində qara ləkədir

## *İşğalçı ölkə açıq savaşda uduzduqca beynəlxalq hüquq  və humanitar dəyərləri hədəfə alırdı*

**2020-ci il sentyabr ayının 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın möhtəşəm Zəfəri ilə bərabər, həm də  təcavüzkar Ermənistanın beynəlxalq hüquqazidd hərəkətlərinin, xüsusilə də mülki əhaliyə qarşı törətdiyi müharibə cinayətlərinin ifşası ilə tarix səhifəsinə yazıldı. Savaş dövründə işğalçının hərbi əməliyyatlar zonası ilə heç bir əlaqəsi olmayan yaşayış məntəqələrini hədəfə alması, qlobal humanitar hüququn elementar prinsiplərini belə ayaqlar altına atması beynəlxalq aləmə bəyan edildi.**



Ermənistan savaşın elə ilk günlərindən başlayaraq ordumuz qarşısında gücsüzlüyünü anlayıb mülki əhaliyə qarşı müharibə cinayətləri törətməyə üstünlük verdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə bu barədə fikirlərini diqqətə çatdırdı: “Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. İşğalçı yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrini yenə də atəşə tutur. Hər gün mülki əhali arasında itkilərimiz artır”.

Ermənistanın davam edən təxribatları barədə danışan dövlətimizin başçısı daha sonra bildirdi ki, dünən səhərə olan məlumata görə, bizim 10 mülki vətəndaşımız həlak olub. Bu gün (30 sentyabr, 2020-ci il)  səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir.



Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar… Budur, erməni faşizminin sifəti. Onlar döyüş meydanında qarşımızda dura bilmirlər, kəndləri, şəhərləri vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı “Vətən sağ olsun”, – deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Bəli, müharibənin ilk günlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi döyüş meydanında uğursuzluğa düçar olduqca öz acizliyini gizlətmək üçün savaşı mülki əhaliyə qarşı yönəltdi. Azərbaycan Respublikasının Baş Prokurorluğunun məlumatına əsasən, yalnız sentyabrın 27-dən oktyabrın 8-dək olan dövrdə Ermənistan ordusunun yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 31 nəfər mülki şəxs həlak oldu, 154 nəfər xəsarət aldı. Həmin müddətdə qəsbkar 928 fərdi evi, 133 mülki obyekti və 45 çoxmənzilli yaşayış binasını yararsız vəziyyətə saldı. Beləliklə, işğalçı tərəfindən Azərbaycan əhalisi qorxu altında saxlanılmaqla, dinc insanlar hədəfə alınmaqla terror Ermənistanın dövlət siyasətinin tərkib hissəsinə  çevrildi.

Ermənistan beynəlxalq hüququn “Müharibənin aparılması qaydaları”na dair norma və prinsiplərinə görə, hərbi əməliyyatlar zamanı mülki şəxslərin, eləcə də mülki obyektlərin  hədəfə alınmasının qadağan edildiyini yaxşı bilirdi. Lakin buna baxmayaraq, işğalçı tərəfindən bu prinsip ardıcıl şəkildə pozularaq Gəncə, Bərdə, Mingəçevir, Tərtər və digər şəhərlər raket zərbələrinə məruz qoyulurdu. Bu hücumlar nəticəsində körpələr, qadınlar, yaşlı insanlar həlak oldu.

Xatırladaq ki, Ermənistanın hərbi əməliyyatlar zamanı həyata keçirdiyi bu terror aktları 1949-cu il tarixli “Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair” Cenevrə Konvensiyasının açıq şəkildə pozulması demək idi. Həmin Konvensiyanın əsas tələblərinə görə, müharibə şəraitində olan tərəflər mülki əhaliyə, onun yaşadığı ərazilərə, yaşayış evlərinə, məktəblərə, xəstəxanalara və digər mülki infrastruktur obyektlərinə qarşı hərbi əməliyyatlar apara bilməzlər. Lakin Ermənistan terror hərəkətləri ilə bu fundamental prinsipləri sistemli şəkildə pozmaqla beynəlxalq hüquqa, necə deyərlər, meydan oxudu.

Yeri gəlmişkən, sentyabrın 27-dən noyabrın 10-dək olan müddətdə Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərinə 30 minə yaxın artilleriya mərmisi və 227 raket atdı. Bu hücumların əksəriyyəti cəbhə xəttindən uzaqda yerləşən, dinc əhalinin yaşadığı məntəqələrə istiqamətləndi. Gəncənin “Skad” ballistik raketləri ilə vurulması, Bərdədə kasetli bombalardan istifadə olunması, Mingəçevir su anbarına və enerji infrastrukturuna raket hücumları edilməsi Ermənistanın mülki əhaliyə qarşı planlı şəkildə müharibə cinayətləri törətdiyini göstərdi.

Gəncəyə edilən hücumlar 44 günlük müharibənin ən dəhşətli səhifələrindən biri idi. Oktyabrın 11-də və 17-də Ermənistan ordusu bu şəhərin mərkəzinə “Skad” tipli ballistik raketlər atdı. Nəticədə onlarla mülki şəxs həlak oldu, yüzlərlə insan yaralandı, çoxsaylı yaşayış binaları dağıldı. Hücumun həyata keçirildiyi ərazi cəbhədən onlarla kilometr uzaqlıqda idi və burada heç bir hərbi obyekt mövcud deyildi. Bu faktlar Ermənistanın məqsədinin sırf dinc insanları qətlə yetirmək və panika yaratmaqdan ibarət olduğunu təsdiqlədi.

Vətən müharibəsində Gəncənin infrastrukturuna, yaşayış evlərinə külli miqdarda ziyan vuruldu. Azərbaycanın ikinci bu böyük şəhəri 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qaldı. Ümumilikdə, bu dəhşətli terrorlar nəticəsində 26 nəfər həlak oldu, 175 nəfər yaralandı, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Oktyabrın 28-də Bərdə şəhərinə kasetli raketlərlə edilən hücum isə beynəlxalq miqyasda ən ağır müharibə cinayətlərindən biri kimi qiymətləndirildi. Kasetli sursatların tətbiqi beynəlxalq konvensiyalarla qadağan olunduğu halda, Ermənistan bu qadağanı pozaraq, mülki əhalinin sıx yaşadığı əraziləri vurdu. Nəticədə onlarla insan həyatını itirdi, çox sayda dinc sakin yaralandı.

Ermənistan hakimiyyətinin tapşırığı əsasında təkcə Gəncə və Bərdə deyil, eyni zamanda, Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulub. Bu hərbi təcavüzlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı, ümumilikdə, 12 min 292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ciddi ziyan dəydi.

Beləliklə, işğalçı Ermənistan hər zaman olduğu kimi, Vətən müharibəsi günlərində də öz yırtıcı, insanlıq əleyhinə cinayətlərini davam etdirdi. Qəsbkar ölkənin silahlı qüvvələri həm cəbhə bölgəsinə yaxın, həm də uzaqda yerləşən rayon və şəhərləri, yaşayış məntəqələrini davamlı atəşə tutdu. Bununla da Ermənistanın hərbi-siyasi rəhbərliyi bəşəri dəyərləri, humanizm prinsiplərini ayaqlar altına atdı, beynəlxalq qanunvericiliyi, Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozdu.

Ermənistanın bütün bu vəhşiliklərinin göz önündə olmasına baxmayaraq, törətdiyi cinayət hadisələrini ört-basdır etməyə çalışan işğalçı ölkənin kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkələrində həyata keçirilən terror aktları pərdələnməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yayılmağa başlandı. Lakin hadisə yerlərindən yerli və xarici medianın yaydığı foto və videogörüntülər bu yalanları ifşa etdi.

Xalqımız, o cümlədən terrora məruz qalan sakinlər yaxşı başa düşürdülər ki, Azərbaycanın haqq davasında ermənilərin törətdikləri bu cinayətlər suda boğulanın saman çöpündən yapışmasıdır. Məhz buna görə Ermənistanın Gəncə, Bərdə və digər yaşayış sahələrimizi raket atəşinə tutması sakinlər arasında ruh düşkünlüyü yaratmadı. Əksinə, terrorla  üzləşənlər bir daha əmin oldular ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tezliklə düşmən üzərində qəti qələbə qazanacaq.

Ancaq bu cinayətə xarici jurnalistlər də susmadı. Məsələn, rusiyalı siyasətçi və jurnalist Maksim Şevçenko Gəncəyə səfəri çərçivəsində ermənilərin atdıqları ballistik raketlərin dağıtdıqları ərazilərdə olarkən dinc əhaliyə raket hücumunu terrorun qatı nümunəsi kimi dəyərləndirdi: “Bu əməllərin məqsədi mülki sakinlərin öldürülməsi və şəhərdə miqyaslı dağıntılar törədilməsi yolu ilə kütləvi vahimə yaratmaq olub. Lakin bu xain hücumlar əks nəticə verdi. Azərbaycanlılar bunun cavabını öz doğma torpaqlarını qaytarmaq üçün açdıqları hərb meydanında verdilər, terror hücumlarından ölənlərin də əvəzinə vuruşub, onların da qisasını aldılar”.

Ümumiyyətlə, 44 günlük müharibə haqqında dünyanın bir çox nüfuzlu KİV-i Azərbaycanın haqq işi ilə əlaqədar çoxsaylı məqalələrlə çıxış etdi. Türkiyə, Argentina, Xorvatiya, İsrail, Malayziya, İndoneziya, Pakistan və s. ölkələrin kütləvi informasiya vasitələrində Qarabağın işğaldan azad olunmasında Azərbaycan Ordusunun qazandığı uğurlardan, eləcə də Ermənistanın dinc əhaliyə qarşı apardığı terror aktlarından bəhs edən materiallar verildi.

Mülki əhaliyə qarşı törədilən bu cinayətlər beynəlxalq hüquq qarşısında Ermənistanın məsuliyyətini gündəmə gətirdi. Hərbi cinayətlərin istintaqı və beynəlxalq səviyyədə qiymətləndirilməsi üçün hüquqi əsaslar kifayət qədər çox olsa da, təəssüf ki, beynəlxalq hüquq təşkilatlarını, necə deyərlər, yerindən tərpətmədi. Halbuki Cenevrə Konvensiyalarına və Roma Statutuna əsasən, müharibə zamanı mülki şəxslərin öldürülməsi, yaşayış məntəqələrinin məqsədyönlü bombardmanı və qadağan olunmuş silahlardan istifadə insanlıq əleyhinə cinayət idi.

Ermənistanın 44 günlük müharibə zamanı həyata keçirdiyi bu əməllər təkcə hüquqi deyil, həm də mənəvi cinayət idi. Dinc insanları qətlə yetirmək, uşaqları, qadınları, qocaları hədəfə almaq, şəhərləri və kəndləri dağıtmaq, evsiz qoymaq – bunlar heç bir millətin, dinin və ya dəyərlər sisteminin qəbul edə bilməyəcəyi barbarlığın ifadəsi idi. Bu əməllər, eyni zamanda, Ermənistan cəmiyyətində uzun illər ərzində formalaşdırılmış revanşist, irqçi və azərbaycanofob ideologiyanın nəticəsi kimi beynəlxalq aləmin diqqətini çəkdi.

Bu gün regionda sülhün və sabitliyin təmin olunması üçün ədalətin bərpası zəruridir. Müharibə cinayətlərinin cəzasız qalması gələcəkdə yeni təxribatlara, yeni faciələrə zəmin yaradar. Buna görə də beynəlxalq ictimaiyyət Ermənistanın törətdiyi cinayətlərə siyasi və hüquqi qiymət verməli, ədalətin bərqərar olması üçün prinsipial mövqe sərgiləməlidir.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi ədalət uğrunda mübarizəsinin parlaq qələbəsi ilə başa çatdı. Lakin bu qələbənin arxasında minlərlə şəhidin qanı, yüzlərlə dinc insanın faciəsi dayanır. Ermənistanın törətdiyi müharibə cinayətləri heç vaxt unudulmamalı, gələcək nəsillərə ibrət dərsi kimi çatdırılmalıdır. Azərbaycanın mövqeyi aydındır: sülh yalnız ədalət üzərində qurula bilər. Ədalətin bərpası isə cinayətkarların layiqli cəzalarını alması ilə mümkündür.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

### 8 oktyabr

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

• Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, bölmələrimiz tərəfindən Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına artilleriya zərbələri endirilib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə sıradan çıxarılıb. Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan ordusuna məxsus 10-dək tank, 6 ədəd “D-20” top, 1 ədəd “Akasiya” özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib.

Qeyd edilib ki, Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edib. Məğlubiyyətlə üzləşən Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi rayonlarını, o cümlədən “Toçka-U” taktiki raket kompleksindən istifadə edərək Bərdə rayonunu artilleriya və raket atəşinə tutub.

Azərbaycanlı mülki əhali arasında ölən və yaralananlar var. Ordumuz adekvat tədbirlər görür. Azərbaycan Silahlı Qüvvələrinin atəş zərbələri endirdiyi bütün hədəflər beynəlxalq humanitar hüquq normaları və prinsiplərinə uyğun olaraq legitim xarakter daşıyır.

Döyüşdə iştirak edən bölmələrimizin maddi – texniki təminat baxımından heç bir problemi yoxdur. Şəxsi heyət, o cümlədən hərbi texnika və döyüş vasitələri bütün növ təminat vasitələri ilə tam şəkildə təmin edilib. Ordumuz əks-hücum əməliyyatı başlayandan indiyədək  işğaldan azad olunmuş torpaqlardan bir addım belə geri çəkilməyib. Əksinə, əməliyyat planına uyğun bütün tədbirlər fasiləsiz davam etdirilir.





• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində Ermənistan ordusu hərbçilərinin döyüş meydanında qoyub qaçdıqları zirehli texnikaların, düşməndən əldə olunan hərbi qənimətlərin videogörüntülərini paylaşıb.

• “Azərkosmos” ASC işğaldan azad olunan Cəbrayıl şəhərinin “Azersky” peykindən əldə edilmiş təsvirini yayıb.

“Azersky” peyki vasitəsilə əldə olunmuş təsvirdən göründüyü kimi,  27 il ərzində işğal altında olan Cəbrayıl şəhərində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan xalqına məxsus tarixi və mədəni abidələr dağıdılıb. Həmin ərazilərdə qeyri-qanuni  iqtisadi və kənd təsərrüfatı fəaliyyətləri həyata keçirilib.

Ermənistanın beynəlxalq hüquqazidd olan terror fəaliyyəti, hələ ki, Azərbaycanın digər işğal altında olan torpaqlarında davam edir. “Azersky” peyki vasitəsilə bu fəaliyyətlər gündəlik olaraq izlənilir. Monitorinqlər nəticəsində əldə olunan məlumatlar dünya ictimaiyyətinə çatdırılır.

• Azərbaycan Baş Prokurorluğundan bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində oktyabrın 8-i saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.

• Ermənistanın silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir. Oktyabrın 8-də saat 6 radələrində Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsi ərazisinə top mərmilərinin düşməsi səbəbindən orada yerləşən Xocalı Rayon Polis Şöbəsinin inzibati binasına külli miqdarda ziyan dəyib. Həmin gün işğalçı ordu Ağdam rayonunun işğal altında olmayan yaşayış məntəqələrini intensiv atəşə tutması nəticəsində evlərə, elektrik və qaz təsərrüfatı ilə yanaşı, 1 orta məktəb, 1 musiqi məktəbi və 1 sahə xəstəxanasına   ziyan dəyib.

• Düşmənin Gəncə şəhərini yenidən raket atəşinə tutması nəticəsində şəhər ərazisində bir neçə mülki obyektə, yaşayış binasına, 1 avtomobilə ziyan dəyib. Ölən və yaralanan olmayıb. Azərbaycan Ordusu adekvat tədbirlər görüb, düşmənə sarsıdıcı zərbələr endirib. Düşmənin atdığı artilleriya zərbəsi nəticəsində obyekti zərər görən sahibkar Canpolad Hüseynov deyib:  “Mağazanın yanına mərmi düşdüyünü eşidib ora getdim. Gördüm ki, obyekt dağılıb, ciddi ziyan dəyib. Heç də təəssüflənmirəm. Hər şeyimiz əsgərlərimizə qurbandır. Əsas odur ki, ölüm-itim olmasın. Allah dövlətimizi, ordumuzu, Ali Baş Komandanımızı qorusun! Biz Prezidentimizə, ordumuza güvənirik. İşğalçı mülki əhalini hədəf seçməklə bizi qorxutmaq istəyir. Cəsarətləri çatmır ki, Azərbaycan Ordusu ilə üz-üzə vuruşsunlar”.



• Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq,  dinc əhaliyə qarşı terror əməllərini davam etdirərək Bərdə şəhərini növbəti dəfə artilleriya atəşinə tutub. Düşmənin “Toçka-U” kompleksindən atəşi nəticəsində mülki şəxslərə, infrastruktura ciddi ziyan dəyib. Şəhərin, kəndlərin ağır artilleriya qurğularından atəşə tutulması erməni barbarlığının sübutudur.

• İşğalçı ölkənin silahlı qüvvələri Azərbaycanın Füzuli rayonunu intensiv artilleriya atəşinə tutub. Nəticədə, rayonun kəndlərindəki mülki obyektlərə, evlərə ciddi ziyan dəyib. Buna baxmayaraq, əhali öz evlərini tərk etməyəcəyini və Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarını dəstəklədiyini bildirib.

***Mustafa KAMAL***
***XQ***

# 44 günlük müharibə – Erməni İstintaq Komissiyası niyə “susdu”?

## *Paşinyan və komandasının 3 məqsədi*

**44 günlük müharibə. Ermənistan bu kabusdan qurtula bilmir. Tam əminliklə demək olar ki, ölkədə ötən müddətdə yaşanmış və hazırda yaşanmaqda olan bütün siyasi təbəddülatların səbəbi 44 günlük müharibədir. Baş nazir Nikol Paşinyan administrasiyasına ünvanlanmış ardı kəsilməyən ittihamlar da məhz həmin kabusdan qaynaqlanır.**

Məlum olduğu kimi, Ermənistanda 44 günlük müharibə şəraitini araşdıran parlament istintaq komissiyası fəaliyyət göstərib. O komissiya ki, işini başa vurduğu deyilir. Amma gözləntilərin əksinə olaraq, qurumun hesabatı nə müzakirəyə çıxarılıb, nə də açıqlanıb. Durumun belə alınmasının ehtimal etdiyimiz səbəblərindən söz açacağıq. Hələlik isə bəzi məqamları diqqətə çatdıraq.

***

Əvvəla, ondan başlayaq ki, sözügedən komissiyanın hesabatının arxivə göndərilməsinə dair məlumatı Ermənistan parlamentinin mətbuat katibi Movses Arutyunyan verib. Arutyunyan deyib ki, sənədin təqdimolunma müddətində uyğunsuzluq var və buna görə o parlamentin plenar iclaslarının gündəliyinə daxil edilə bilməz.

Açığı, mətbuat katibinin izahı özlüyündə heç nə demir. Necə yəni uyğunsuzluq var? Müddətlərin pozulması halları dedikdə konkret nəzərdə tutulan nədir? Bu kimi suallara cavab yoxdur. Məlum olan komissiya sədri Anrdanik Koçaryanla spiker Alen Simonyan arasındakı fikir ayrılığının mövcudluğudur.

Koçaryan bildirib ki, vaxtilə 44 günlük müharibə ilə bağlı ayrıca istintaq komissiyası fəaliyyət göstərib və onun hesabatı zamanı da müddətlərin pozulması hallarının müşahidə olunmasına baxmayaraq, həmin vaxt müəyyən qərar qəbul edilmişdi. Yəni eyni praktikaya istinad mütləqdir. Onun sözlərinə görə, əgər hesabat mövcuddursa və mövcuddur, deməli, Milli Assambleyanın reqlamentinə əsasən, sənəd plenar iclasın gündəliyində yer almalıdır.

Simonyana gəldikdə, spiker hesab edir ki, məsələnin müzakirəsi qapalı dinləmələr zamanı həyata keçirilməlidir. Hesabat ətrafında yaranmış vəziyyətin şərhini verən Ermənistan parlamentinin Dövlət-hüquq məsələləri daimi komissiyasının sədri Vladimir Vardanyan da sənədin Simonyanla Koçaryan arasında mübahisə predmetinə çevrildiyini yalnız dolayısıyla təsdiqləyib,



açıq mesaj verməyib. O bildirib ki, hesabatın gələcək taleyi ilə bağlı qərar qanunvericiliyə, xüsusən dövlət sirrinin qorunması zərurətinə tam uyğundur.

V.Vardanyan parlament sədrinin rəsmi məktubuna cavab olaraq hesabatla əlaqədar hüquqi rəy təqdim etdiyini və həmin rəyin hazırda spikerin ixtiyarında olduğunu da diqqətə çatdırıb. Onun sözlərinə görə, istintaq komissiyası “Vətəndaş müqaviləsi” fraksiyasının təşəbbüsü ilə yaradılıb və qurumun fəaliyyəti məxfi məlumatlarla iş səbəbindən müəyyən gizlilik səviyyəsini nəzərdə tutub. “Sənəd hazırdır və Milli Assambleyadadır. Dövlət sirrinə çıxış icazəsi olan bütün deputatlar onunla tanış ola bilərlər”, - deyən Vardanyan mövzu ilə bağlı əlavə şərh verməkdən çəkinib.

Erməni jurnalistlər Vardanyana hesabatın təqdimedilmə müddətinin pozulması ilə bağlı mövqenin həlledici olub-olmadığı barədə sual ünvanlayıblar. Deputat cavab verərkən deyib ki, komissiya öz səlahiyyətləri çərçivəsində hərəkət edib və “Milli Assambleyanın reqlamenti” qanununun tələbinə uyğun davranıb. O, həmçinin, hansısa mübahisənin mövcudluğunu inkar edib. “Mübahisə yalnız fikir ayrılığı olduqda ola bilər. Bizdə fikir ayrılığı yoxdur, mən qanunla nəzərdə tutulanları çox aydın şəkildə təqdim etmişəm”, - deyən deputat sözügedən hesabatın özündə məxfi məlumatları ehtiva etdiyini bildirib və vurğulayıb ki, onun açıqlamamasına dair qərar optimaldır: “Dövlət sirri hamımız tərəfindən müqəddəs şəkildə qorunmalıdır. Fikrimcə, seçilən qərar hamını qane etməlidir”.

***

Qeyd edək ki, Ermənistanın 44 günlük müharibə şəraitini araşdıran parlament komissiyası 2022-ci ildən fəaliyyətdədir. 2023-cü ildə isə qurumun iş müddəti uzadılmışdı. Həmin vaxt sədr A.Koçaryan bildirmişdi ki, komissiya fəaliyyət göstərdiyi zaman kəsiyində ümumilikdə 4154 ədəd məxfi və yüksək məxfilik dərəcəli 14000 səhifədən çox sənəd əldə edib. Onun sözlərinə görə, araşdırmada dəvət olunmuş mütəxəssislər, hazırkı və keçmiş hərbçilər, yüksək vəzifəli siyasi şəxslər və digərləri iştirak ediblər.

“Müharibə iştirakçılarının və həlak olanların qohumlarının bir çoxu komissiyaya müraciət edib və özəl materiallar təqdim ediblər”, - deyən Koçaryan onu da vurğulamışdı ki, işin gedişində yeni məlumatlar əldə olunduqca, əlavə sənədlər almaq üçün müxtəlif qurumlara yenidən müraciət ünvanlamaq zərurəti yaranır və buna görə qurum əlavə vaxta ehtiyac duyur. Yeri gəlmişkən, Koçaryan iki il əvvəl rəhbərlik etdiyi qurumun fəaliyyət müddətinin altı ay uzadılmasına nail olmuş və bunun sonuncu uzadılma olduğunu vurğulamışdı. Amma hesabat açıqlanmır, baxmayaraq ki, 2024-cü ildə də bu barədə çoxsaylı müzakirələr getmiş və onun tezliklə geniş ictimaiyyətə təqdim olunacağı bildirilmişdi.

***

Bəli, bütün bunlara görə hazırda sənədin arxivə göndərilməsi birmənalı qarşılanmır. Müxalifət nümayəndələri gətirilən məxfiliyin qorunması arqumentinin yalnız bəhanə mahiyyəti daşıdığını vurğulayırlar. Onların fikrincə, hesabatın açıqlanmaması ictimaiyyətin və deputatların məlumatalma hüququnun məhdudlaşdırılmasıdır və obyektivliyə ziyan vurur, həmçinin nəzarət mexanizmlərinin vəziyyətini şübhələndirir. Müxalif cəbhə təmsilçiləri, eyni zamanda, deyirlər ki, komissiya işini vaxtında başa çatdırmayıb, gecikmə qurumun qeyri-şəffaflığından qaynaqlanır.

***

Ümumiləşdirmə apararaq, belə nəticəyə gəlmək olar ki, Ermənistanın 44 günlük müharibə şəraitini araşdıran parlament istintaq komissiyasının hesabatının açıqlanmamasına və sənədin müzakirəyə çıxarılmadan arxivə göndərilməsinə dair qərar siyasi məzmun daşıyır. Həqiqətən, durumun əsaslandırılması üçün gətirilən arqumentlər çox zəifdir. Bəs qərar nə üçün açıqlanmadı? Bununla bağlı bəzi ehtimallar üzərində dayana bilərik.

Birincisi, 2022-ci ildə sözügedən komissiya yaradılanda Ermənistan iqtidarının üzərində böyük təzyiq var idi. Müxalifət, bütövlükdə erməni cəmiyyəti 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətin günahkarlarını daha əzmlə axtarmaqda israrlı görünürdü. Belə bir durumda Paşinyan iqtidarı qurumu formalaşdırmaq barədə qərar verdi ki, məsələyə biganə qalmadığını göstərsin.

Erməni hakim komandası zamanında komissiya formalaşdırmaqla, özünün müharibə rüsvayçılığında heç bir günahının olmadığı təəssüratını formalaşdırmağa cəhd göstərdi. Elə indinin özündə də Paşinyan və tərəfdarları məğlubiyyətdə ölkənin eks–iqtidarını ittiham hədəfinə çevirirlər. Amma bu ritorika heç də qüvvətli deyil. Görünür, komissiyanın apardığı iş də ortaya hansısa güclü arqument qoya bilmədi.

İkincisi, istintaq komissiyasının hesabatını saxtalaşdırmaq da mümkünsüzdür, komissiyanın iş müddətini təkrar uzatmaq da. İndiki məqamda həqiqətlərin açıqlanması isə Paşinyan iqtidarına sərfəli deyil. Axı qarşıdan 2026-cı ilin parlament seçkiləri gəlir. Sənəd, istər-istəməz, diqqəti 44 günlük müharibəyə cəmləşdirəcək ki, bu, Nikol və komandasının prosesdəki mövqeyinin zəifləməsi olacaq.

Üçüncüsü, tam mümkündür ki, Ermənistan iqtidarı 44 günlük müharibə reallıqlarını qabardan sənədin Azərbaycanla sülh gündəliyinə zərər gətirəcəyi qənaətindədir. Məğz heç də onda deyil ki, rəsmi İrəvan barış mövzusunda konstruktiv mövqe tutmaqda həvəslidir. Məsələ müharibənin yada salınması ilə erməni cəmiyyətindəki anti-Azərbaycan ritorikanın güclənməsindədir ki, bu da ümumi ab-havaya və Ermənistan rəhbərliyinin hazırkı kursuna zidd təmayüldür. O kursa ki, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Ən başlıcası isə sülh xətti Paşinyan iqtidarı üçün daha ciddi təminatdır. Söhbət hakimiyyətdə qalmaq təminatından gedir ki, bunun xeyli dərəcədə xarici dəstəkdən asılı olduğu gün kimi aydındır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yelisey sarayında siyasi böhran rüzgarı

## *Makronun uğursuz təyinatları Fransada “V Respublika”nın sütunlarını sarsıdır*

**Fransada daxili qarşıdurma növbəti mərhələyə qədəm qoyub. Ölkə lideri Emmanuel Makronun uğursuz kadr siyasəti, hökumət əleyhinə etirazların güclənməsi böhranın getdikcə milli səciyyə daşıdığından xəbər verir. Baş nazir Sebastian Lekornunun vəzifəyə gəlməsindən cəmi bir neçə həftə sonra, hökumətini elan etdikdən isə bir neçə saat keçməmiş istefa verməsi uzun müddət davam edən siyasi gərginlik ocağını daha da alovlandırıb. Prezident Administrasiyasının yaydığı bəyanatda bildirilib ki, Emmanuel Makron özünün yaxın müttəfiqi Lekornunun istefasını qəbul edib.**



Vəziyyətin diqqətli analizi göstərir ki, son həftələr Lekornuya qarşı təzyiqlər daha geniş vüsət almışdı. O, dövlət borcuna görə parçalanmış Fransa Parlamentində büdcə məsələsini həll etməkdə çətinlik çəkirdi. Təsadüfi deyil ki, Lekornu nazirlər kabinetinin tərkibini açıqladıqdan bir neçə saat sonra vəzifədən getmək məcburiyyətində qaldı. Bununla da onun hökuməti Fransa tarixində ən qısaömürlü 13 saat kabinetlərdən biri kimi tarixə düşdü. Lekornunun populyar sələfi Fransua Bayrunun strategiyasından “qopmaq” vədlərinə baxmayaraq, təqdim etdiyi yeni nazirlər heyəti həm rəqiblər, həm də tərəfdarlar arasında narazılıq yaratdı. Baş nazirin kabinetinin Fransa Konstitusiyasının 49.3-cü maddəsindən istifadə etməməsi də Lekornuya qarşı tənqidləri artırdı. Sözügedən maddə bir qanunun səsvermə olmadan qəbul edilməsinə imkan verirdi və bir çoxları üçün bu, vacib islahatların həyata keçirilməsinin əldən verilmiş fürsəti hesab edilir. Bütün narazılıqların fonunda Lekornu mövcud vəziyyəti jurnalistlərə açıqlamasında bu cür təsvir edib: “Mən kompromisə hazır idim, amma bir siyasi partiya digərindən öz proqramının tam şəkildə qəbulunu tələb edirdi”. Yeri gəlmişkən, onun formalaşdırdığı hökumətdəki bir çox şəxslər əvvəllər də vəzifə tutmuşdular. Bu səbəbdən, Lekornunun sabiq maliyyə naziri Bruno Le Merni müdafiə naziri postuna qaytarmaq qərarı narazılıq doğurdu.

Yada salaq ki, Le Mernin rəhbərliyi dövründə ölkənin büdcə kəsiri rekord həddə çatmışdı. Narazılıqlardan sonra Le Mern “X” sosial şəbəkəsində bu təyinatdan imtina etdiyini açıqlayıb. Mern yazıb ki, onun təyin olunması bəzi çevrələrdə yanlış və qeyri-mütənasib reaksiyalar doğurub. Le Mern bununla yanaşı, özünün geri çəkilməsindən sonra Fransada yeni hökumətin formalaşdırılması istiqamətində danışıqların bərpasına imkan yaranacağına ümid etdiyini bildirib.

Proseslər bununla bitmir. Lekornunun istefasına baxmayaraq, Makron ona sonuncu missiya tapşırıb. Yelisey sarayının məlumatına görə, o, baş nazirə digər siyasi partiyalarla “ölkədə sabitlik mühitinin yaradılması” məqsədilə son danışıqları aparmağı həvalə edib və 48 saat vaxt verib. Lekornunun bunun üçün tam olaraq nə etməli olduğu hələlik məlum deyil. Amma Fransa Konstitusiyası Makrona Lekornunu baş nazir vəzifəsinə yenidən təyin etmək hüququ verir.

Makron 2024-cü ildə növbədənkənar seçkiləri elan etdikdən sonra Fransa Parlamenti sağ-mərkəz və sol-mərkəz blokları arasında parçalanıb. Lekornu son iki ildə Makronun təyin etdiyi beşinci baş nazir idi və onun qəfil istefası müxalifətdə növbədənkənar seçkilərin keçirilməsi çağırışlarını artırıb. Lekornunun istefası Milli Birlik partiyasının da diqqətindən kənarda qalmayıb. Marin Le Pen onun hökumətini “yazıq” adlandırıb. Respublikaçılar partiyasının rəhbəri Fransua-Zavyer Bellami isə partiyasının Makronun kabinetini formalaşdırmaq üçün əməkdaşlığa hazır olduğunu, Parlamentin buraxılmasından qorxmadığını deyib. Hadisədən sonra “Patriotlar” partiyasının lideri Filippo Prezident Emmanuel Makronu istefaya çağırıb. Flipponun  çağırışı Fransa siyasətində son günlərdə yaşanan böhran və hökumət dəyişiklikləri kontekstində qarşıdurmanı daha da dərinləşdirir. Lekornunun hökuməti istefa verdikdən sonra Paris, Lion, Marsel və digər şəhərlərdə nümayişçilər küçələrə çıxaraq Makronun prezidentliyinə son qoyulmasını və parlamentin buraxılmasını tələb ediblər. Bununla yanaşı, “hər şeyi bloklayın” hərəkatı yenidən fəallaşıb və daxili qapanma üçün çağırışlar edilib.

Lekornunun istefası investorları da təşvişə salıb. Fransanın aparıcı şirkətlərinin səhmlərindən ibarət “CAC-40” indeksi kəskin düşüb. Yeni təyin olunmuş nazirlər isə qəribə vəziyyətlə üzləşiblər – onlar rəsmi olaraq vəzifəyə başlamadan əvvəl “müvəqqəti nazirlər” statusu alıblar. Daha dəqiq desək, hazırda onlar yeni hökumət formalaşana qədər gündəlik işləri idarə etmək üçün boşuna saxlanılıblar. Hadisədən qəzəblənən və yeni ekologiya naziri təyin olunmuş Aqnes Panye-Rünaher “X” sosial şəbəkəsində yazır: “Bu sirkdən ümidsizəm”. Panye kimi hökumət rəsmisinin mövcud vəziyyəti “sirk”ə bənzətməsi Fransada vəziyyətin hansı həddə çatdığını əyani şəkildə göstərir.

İndi əsas diqqət Makronun atacağı növbəti addıma yönəlib. Baş nazirin fəaliyyəti uğursuz olduğuna görə Makronun məsuliyyəti öz üzərinə götürməkdən başqa çarəsi yoxdur. Onun yeni baş nazir təyin etmək ehtimalı da yüksəkdir. Həmin şəxs Makrona yaxın siyasi fiqurlardan ola bilər. Eyni zamanda, təcili şəkildə büdcəni təsdiqləmək üçün minimum konsensus əldə olunmalıdır. Mümkün ssenarilər arasında Makronun Milli Assambleyanı buraxıb yeni seçkilər keçirmək məsələsi də yer alır. Fransa liderinin bu məsələyə mövqeyini nəzərə alsaq, üzləşəcəyimiz mənzərə çox güman ki, sadəcə parçalanmış parlament olacaq. Bu halda böhran küləklərinin Fransanın sütunlarını sarsıtma ehtimalı yüksəkdir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Fransada hakimiyyət böhranı göz önündədir. Həm sağ, həm də sol partiyalar Makronun mərkəzçi hökumətinə etimad göstərmirlər. Sol qüvvələrin lideri Jan-Lük Melanşon çağırış edib ki, Makron Fransanı idarə edə bilmir və buna görə onun istefası tələb olunmalıdır. Çağırışın nə dərəcədə reallaşa biləcəyi hələlik sual altındadır, çünki qaydalara görə seçkilərdən sonra bir il ərzində yeni seçki keçirmək mümkün deyil. Bir il tamamlansa, parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi gündəmə gələ bilər. Amma bu seçkilər Makrona uğur gətirməyəcək. Çünki həm sağçılar, həm də solçular artıq ondan narazılıqlarını gizlətmirlər. Makronun durumu doğrudan da çox çətindir. Onun prezidentlik müddətinin bitməsinə iki il qalıb və o, bu dövrü çətinliklə də olsa başa vurmaq istəyir. Hazırda parlamentdə lazımi dəstəyi qazana bilmir. Fransa Konstitusiyasına əsasən, prezident bəzi məsələləri fərman yolu ilə həll edə bilər. Bu, təbii ki, etirazlarla müşayiət olunacaq. Amma istisna deyil ki, hökumət formalaşa bilmədiyi halda müvəqqəti kabinet fəaliyyət göstərəcək. Şübhəsiz, Makron bir çox məsələləri öz fərmanları ilə həll etməyə çalışacaq. Bu isə böhranı dərinləşdirə bilər. Lakin vətəndaş müharibəsi ehtimalı hələlik yoxdur.

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Fransada cəmi 13 saat fəaliyyət göstərə bilən Lekornu hökumətinin istefası ölkədəki siyasi və institusional böhranın dərinləşdiyini göstərir. Hadisə Makron administrasiyasının daxili siyasi dayaqlarının ciddi şəkildə sarsıldığını və idarəetmədə xaotik vəziyyətin yarandığını nümayiş etdirir.

İqtisadi çətinliklər, sosial narazılıq və siyasi qütbləşmə Fransanı faktiki “idarəetmə böhranına” gətirib çıxarıb. Ənənəvi siyasi qüvvələr arasındakı balans pozulub, radikal sağ və sol hərəkatların təsiri isə getdikcə güclənir. Vətəndaş müharibəsi ssenarisi yaxın perspektivdə görünmür. Amma dövlətin legitimlik böhranı və cəmiyyətin dərin parçalanması fonunda qarşıdurma risklərinin artması reallığa çevrilir.

*Biz deməsək...*

# Üzeyir ucalığının zirvəsi və kölgəsi

**Dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəyli Ulu Yaradanın xalqımıza bəxş etdiyi nadir şəxsiyyətlərdən və dahi sənətkarlardan biri kimi ölməzlik qazanıb. Zaman keçdikcə sənət peyğəmbəri saydığımız bu insanın şöhrəti daha da artır, qədir-qiyməti bir az da yüksəlir.**



Mənəvi dəyərlərimizin misilsiz himayədarı, böyük sənət adamlarımıza layiq olduqları qiyməti zamanında vermiş Ümummilli lider Heydər Əliyev Üzeyir Hacıbəylinin milli kimliyini nə qədər mümkünsə, o qədər xalqımıza açıb göstərmiş, xatirəsini mədəni dünyamızda ən yüksək mərtəbəyə qaldırmışdır. Ulu öndərin müstəsna qədirbilənliyi ilə Üzeyir Hacıbəylini xalqımıza bəxş etmiş 18 sentyabr günü xüsusi fərmanla əlamətdar hadisələr tariximizə "Üzeyir Musiqi Günü" kimi həkk edilmişdir.

Həmin günə əlavə olaraq, Azərbaycanda ilaşırı Beynəlxalq Üzeyir Hacıbəyli Musiqi Həftəsi və Festivalının keçirilməsi ənənəsi də böyük Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin yolunun davamçıları Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Heydər Əliyevin Üzeyir Hacıbəyli qədirbilənliyini ən yüksək sevgi-sayğı ilə davam etdirirlər.

Lakin bu tarixi örnəklərə yaraşmayan bəzi təzahürlər üzeyirsevərləri narazı salır. Məsələn, Prezident fərmanı ilə təsis edilən "Üzeyir Musiqi Günü"nün mediada, hətta rəsmi məclis və mərasimlərdə "Milli Musiqi Günü" kimi təqdim edilməsi başadüşülən deyil. Hər il bu barədə yazılsa da, deyilsə də "Üzeyir" adı, nədənsə, unudulur, arxa plana keçir. Düzdür, Üzeyir bəyin adı həmişə və hər yerdə milli musiqi ilə qoşa səslənir. Amma gün məhz Üzeyir adınadır. Nədənsə, Üzeyir Hacıbəyli Musiqi Həftəsi də son illər əvvəlki təntənə ilə qeyd edilmir.

Builki həftənin "Formula1" yarışı ilə bir vaxta düşməsi gündəmə olan marağı xeyli parçaladı. Etiraf edək ki, Üzeyir Hacıbəylinin adı həftə ərzində layiq olduğu qədər ucadan səslənmədi. Keçirilən tədbirlər isə nədənsə, mediada xalqa geniş çatdırılmadı.

Həftənin zirvəsi sayılan sonuncu günün yekun tədbiri isə üzeyirsevərləri açıq-aşkar məyus etdi. Heydər Əliyev Sarayında yenidən tamaşaya qoyulan Üzeyir Hacıbəylinin şah əsəri "Koroğlu" operasının təqdimatının alqışlarla bitdiyi anlarda baş rolun ifaçısı – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazov kiçik bir nitq söylədi.

Lakin o danışdı, tamaşanın Bülbül, Lütfiyar İmanov kimi ünlü ifaçılarına ehtiramını bildirdi. Bu əsər ilə bütün dünyada tanınan Üzeyir Hacıbəylinin adını isə bircə dəfə də dilinə gətirmədi. O, gərək sənət davamçısı olduğu Bülbülün xatirəsindən öncə, əsərin müəllifinin, tamaşanın həsr edildiyi Üzeyir bəyin dahiliyinə baş əyəydi. Beləcə Üzeyir Hacıbəyli həftəsi sakit axarla və onun adı, dəyəri, həftənin kimin şərəfinə keçirildiyi dilə gətirilmədən sona yetdi.

Üzeyirsevərlər bu anlaşılmaz durumun, "yaddaşsızlığ"ın nədən və necə baş verdiyini neçə gündür ki, sosial şəbəkələrdə, paylaşımlarda anlamağa çalışırlar. Diqqətsizlikmi, təşkilati işlərdə yol verilmiş boşluqmu? Kaş ki, belə olaydı.

Xatırladırıq ki, Üzeyir Hacıbəylinin dahiliyinə qısqanclıq həmişə olub. Ona verilən yüksək qiymətlə yanaşı, unutqanlıq meyli də özünü göstərib. Bircə faktı deyək ki, 1949-cu ildə Üzeyir Hacıbəylinin irsinin 10 cildliyinin buraxılması barədə hökumət qərarı olsa da, 76 ildə cəmi 4 cild işıq üzü görüb. Bəstəkarın musiqi irsinin dəyərli nümunələri itirilib.

Bunlar ötüb keçəcək, Üzeyir Hacıbəylini sevənlər, qəlbində yaşadanlar zaman-zaman mənəvi ucalığa çatacaqlar. Üzeyir bəyin qədir-qiymətinə biganə və qısqanc nəzərləri olanlar, yaddaşsız və diqqətsizlər isə bu ucalığın kölgəsində qalacaqlar.

***Səadət QARABAĞLI,***
***üzeyirşünas***

# İstanbulda Bəxtiyar Vahabzadənin qorelyefi qoyulub

**Dünən İstanbulun Sarıyer Bələdiyyəsi ərazisində yerləşən parkda Azərbaycan Xalq şairi Bəxtiyar Vahabzadənin qorelyefinin açılışı olub.**




Şairin 100 illik yubileyi ilə əlaqədar Vadistanbul səmtində qoyulan qorelyefin müəllifi Xalq rəssamı Natiq Əliyevdir.

Müəllifin, Sarıyer Bələdiyyəsinin rəhbəri Mustafa Oktay Aksu və ölkəmizin İstanbulda baş konsulu Nərminə Mustafayevanın iştirakı ilə abidənin açılış mərasimi olub.

Qorelyefin yerləşdiyi park İstanbulun ən işlək prospekti – Azərbaycan prospekti üzərində, məşhur "Qalatasaray" stadionunun qarşısında yerləşir.

***XQ***

*Unutsaq – unuduları*

# Nuh yurdunun və nur ocağının yetirməsi






**Naxçıvan Dövlət Universitetinin ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Rüfət oğlu Hüseynzadə 1 il əvvəl amansız əcəlin vaxtsız hökmü ilə ömrünün coşqun, yaradıcılığının və ictimai fəaliyyətinin məhsuldar çağında doğmalarını, onu tanıyıb dəyər verən çoxsaylı insanları tərk edərək əbədiyyətə qovuşdu.**

Əkrəm Hüseynzadə 30 aprel 1983-cü il tarixində maarif ocağı sayılan, 1 əsrdən artıq dövrdə elm-bilik çırağı kimi işıq saçan bir ailədə dünyaya gəlmişdi. Babası Lətif Hüseynzadə klassik maarif xadimi olmuş, 105 illik ömrünün 90 illini Qərbi Azərbaycanda, Naxçıvanda kütləvi savadlanma və pedaqoji təhsilin inkişafına həsr etmiş, İrəvan şəhərində Pedaqoji İnstitutun Azərbaycan bölməsində gənclərə ana dili və ədəbiyyatımızın əsaslarını öyrətmiş, bu sahədə geniş tədqiqatlar aparmışdı. Ümummilli lider Heydər Əliyev başda olmaqla, bir çox görkəmli simaların sevimli müəllimi olmuş bu nadir ziyalı "İstiqlal" ordeni Əməkdar müəllim kimi də bütün ölkədə tanınmışdı.

Atası pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim Rüfət Hüseynzadə və pedaqoq Gülsüm xanım da ailənin peşə ənənəsinə sadiq qalaraq, estafeti layiqincə oğullarına ötürmüşlər.

Orta təhsilini Bakıda almış, ali təhsilini isə Naxçıvan Dövlət Universitetində başa vurmuş Əkrəm elmi fəaliyyətini AMEA Naxçıvan bölməsində davam etdirərək folklorşünaslıq üzrə dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı almışdı.

Əkrəm Hüseynzadə Dil, Ədəbiyyat, İncəsənət İnstitutunun folklorşünaslıq şöbəsində elmi işçi kimi çalışdığı dövrdə qrant layihəsi üzrə Naxçıvan və Qərbi Azərbaycan folkloru haqqında dəyərli araşdırmalar aparmışdır. Onun bu tədqiqatlarının nəticələri respublikamızda, Türkiyədə və Rusiyada dərc edilərək müəllifinə nüfuz qazandırmışdır. Uğurlu fəaliyyəti nəticəsində gənc alim folklorşünaslıq şöbəsinin müdiri və daha sonra AMEA Naxçıvan bölməsinin elmi katibi vəzifəsinə irəli çəkilmişdir.

Keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Ulu öndər Heydər Əliyevin Naxçıvanın qədim və zəngin tarixi, dövlətçilik ənənələri, sərvətləri, abidələri və folklorunun öyrənilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin gerçəkləşdirilməsində Naxçıvan Dövlət Universitetinin sabiq rektoru, akademik İsa Həbibbəyli və AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin təşkilatçılığı ilə aparılan genişmiqyaslı tədqiqatlarda Əkrəm Hüseynzadə də təşəbbüs və işgüzarlıqla iştirak etmişdir. Onun fəal iştirakı ilə bölgələrdən folklor materialları toplanaraq "Naxçıvan folkloru", "Naxçıvan folklor Antologiyası", "Naxçıvan folklor atlası", "Uşaq folkloru", "Naxçıvan folklor mətnlərində yaşayan tarix" və digər dəyərli əsərlər yazılmış, silsilə kitablar çap edilmişdir.

320 xəritə, 100-ə yaxın fotoşəkildən ibarət 2 hissəlik "Dədə Qorqud yurdu – Naxçıvan" kitabı tarixi-coğrafi və etnoqrafik atlas kimi Azərbaycan, rus və ingilis dillərində nəşr olunaraq, dünya səviyyəsində qiymətli və dəyərli mənbə kimi yayılmışdır.

Naxçıvanda Nuh peyğəmbərin məzarı, Əshabi-Kəhf mağarası, Əlincə qalası, Çalxanqala, Gəmiqaya, Haçadağ kimi təbiət və tarix abidələri, bu torpaqda min illərlə Oğuz-türk əhalinin yaşaması və arxeoloji qazıntılardan əldə edilmiş maddi-mədəniyyət sənədləri də daxil olmaqla, Naxçıvanın 5 min illik tarixinin dünya elminə təqdim edilməsində Əkrəm Hüseynzadənin 2016-cı ildə "Elm və təhsil" nəşriyyatında çap olunmuş "Naxçıvan folklor mətnlərində yaşayan tarix" əsəri də önəmli mənbələrdən biri sayılır.

Bu əsərdə Nuhun tufanı ilə bağlı Naxçıvan əfsanə və rəvayətlərinin Şumer əfsanələri ilə üst-üstə düşməsi, Dədə Qorqud dastanında və "Oğuznamə"də "Kanqlı", "Qanqlı", Qanlı" kimi təsvir olunan adların qədim şumerlərin özlərini "Kəngər" adlandırmaları ilə birbaşa əlaqəli olması əsaslandırılmışdır. Naxçıvan folklor mətnlərində adı keçən Nəhəcir, Nehrəm, Nəsirvaz toponimləri Nuh peyğəmbərin adı ilə bağlılığı, Naxçıvan toponiminin də "Nuhçıxan" sözü ilə sıx əlaqəli olduğu bu əsərdə təsdiqini tapmışdır.

Əkrəmin həmin monoqrafiyasının redaktoru, filologiya üzrə elmlər doktoru Seyfəddin Rzasoy, rəyçiləri – tanınmış folklorşünas mərhum Rafiq Babayev, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev, filologiya üzrə elmlər doktoru Ramazan Qafarlının əsərə verdikləri yüksək qiymət atası, professor Rüfət Hüseynzadənin kitabda yazdığı "Ön söz"də əhatəli dəyər almışdır.

Babası Lətif Hüseynzadəyə 105 il ömür yaşamaqda nəvə sevgisi də güc vermişdi. O, Əkrəmlə nəfəs almış, onunla fəxr etmiş və birgə yaradıcılıq işləri də aparmışdılar. Lətif Hüseynzadə ömrünün son illərində "Əkrəm sizə əmanətimdir" - söyləyib doluxsunurmuş...

Simasında daim gülüş sayrışan, yazıb-yaratmaqdan doymayan, ictimai-siyasi sahədə də fəal və məsuliyyətli olan Əkrəm Hüseynzadə ötən il oktyabrın 8-də Naxçıvan xəstəxanasında bu dünyada təmasda olduğu sonuncu adam kimi atası Rüfətin üzünə gülümsəyərək dünyasını dəyişdi. İşıqlı xatirəsi onu tanıyanların qəlbinə köçdü, əsərləri daim yaşadacaq, yarımçıq qalmış istəklərinə qapı açacaq.

***Rauf CƏFƏROV,***
***Bakı Dövlət Universitetinin professoru,***
***Qərbi Azərbaycan İcması***
***Ziyalılar Şurasının üzvü***

*Təqvim yada salır*

# Azərbaycanda qadın təhsilinin qaranquşu

## *124 il əvvəl bu gün Bakıda Şərqin ilk sivil qızlar məktəbi açılmışdı*



**1901-ci il oktyabrın 7-də Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi qapılarını cəmiyyətin üzünə açdı. Bu hadisə, ilk növbədə, bir təhsil müəssisəsinin yaranması kimi qəbul edilsə də, əsl mənasında bir xalqın düşüncə tərzinin dəyişməsinə, qadının cəmiyyətdə yerinin tanınmasına doğru atılmış ilk addım idi.**

Tağıyev o dövrün bu sahədə ən böyük stereotiplərindən birini sındırdı. Qızların təhsil almasının "lüzumsuz" iş sayıldığı bir zamanda məktəbin binasının tikintisindən tutmuş, müəllimlərin Avropadan gətirilməsinə qədər hər detalı nəzərə alan böyük bir iş başladı.

İllər keçdikcə "Tağıyevin məktəbi" adı ilə tanınan bu təhsil ocağı maarifçiliyin real bünövrəsi kimi tarixə düşdü. Tağıyevin təşəbbüsü təhsilin gücünün nəyə qadir olduğunu onun sosial bərabərlik vasitəsinə çevrildiyi zaman ortaya çıxdığını sübut etdi. Onun ilk məzunları – Rəhilə Hacıbababəyova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Liza Muxtarova, Nazlı Tahirova və digərləri Azərbaycan qadınının ictimai və siyasi həyatda fəal rol oynamasının da təməlini qoydular.

Sonradan qızların təhsili ailə münasibətlərində, uşaq tərbiyəsində, ictimai həyatda və milli düşüncədə böyük dəyişiklik yaratdı. Bu məktəbin məzunları tariximiz üçün həlledici məqamlarda Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını müdafiə edən ziyalılara çevrildilər. Yəni bir məktəb, əslində, bir millətin intellektual dirçəlişinin başlanğıcına çevrildi.

Bu gün Zeynalabdin Tağıyevin başlatdığı bu missiya müasir Azərbaycan dövlətinin təhsil və humanitar siyasətində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, həm Heydər Əliyev Fondunun prezidenti, həm də Azərbaycanın birinci xanımı kimi – qadın və qızların təhsil imkanlarını genişləndirmək istiqamətindəki çoxşaxəli fəaliyyətində davam etdirilir. Onun təşəbbüsü və xeyir-duası ilə reallaşdırılan "Təhsilə Dəstək" proqramları çərçivəsində ölkənin bütün bölgələrində onlarla yeni məktəb binası, uşaq bağçası və təhsil mərkəzləri inşa olunub və müasir avadanlıqlarla təmin edilib; "Yeniləşən Azərbaycana yeni məktəb" təşəbbüsü ilə kənd və qəsəbələrdə qızların təhsildən kənar qalma riski minimuma endirilib; İstedadlı qızların təqaüd proqramları və beynəlxalq olimpiadalarda iştirakına




dəstək verilib; "Azərbaycan gəncliyi xarici ölkələrdə təhsildə" proqramı ilə çoxlu sayda istedadlı qız tələbə dünya universitetlərində təhsil almaq imkanı qazanıb.

Onun beynəlxalq səviyyədə təhsil və qadın hüquqları sahəsində təşəbbüsləri qızların təhsilinə dəstək, mədəni irs və qadınların elmdə iştirakı məsələlərini qlobal müstəviyə çıxarmaqla Azərbaycanın bu sahədə beynəlxalq nüfuzunu gücləndirib. Bu missiya həm də keçmişlə bu gün arasında milli özünüdərkin, qadın gücünün və intellektual inkişafın birləşdiyi bir körpüdür.

"Bir qız oxuyarsa, bir ailə işıqlanar; bir xalq maariflənər". Bu fikri dünən Tağıyevin xeyriyyəçilik fəlsəfəsi, bu gün isə Mehriban Əliyevanın humanizm dəyərlərini yaşadan fəaliyyəti sübut edir. Bu dəyərlər cəmiyyətin bütün təbəqələrini birləşdirən yeni layihələrin və təşəbbüslərin də əsasında dayanır. Əlbəttə ki, yeni sər yeni yanaşmalar və yeni təşəbbüslər ortaya qoyur.

Düz 120 il sonra, 2021-ci ildən etibarən – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq bu ideyanın yenidən canlandırılması üçün təsis etdiyimiz "Qızların Təhsilinə Dəstək" layihəsi vasitəsilə regionlarda yaşayan, sosial və iqtisadi səbəblərdən təhsildən uzaqlaşmaq riski ilə qarşılaşan qızları əhatə etməyi hədəflədik...

Bu məqsədlə hazırda qızların orta və ali təhsilə davam etməsi üçün onlara maddi və psixoloji dəstək göstərir, maarifləndirici görüşlər və təlimlər təşkil edir, ilhamverici qadın rollarını tanıtmaqla gənc qızlarda özünəinam formalaşdırmağa çalışırıq. Həmçinin qızların təhsildən uzaq qalmasının əsas səbəblərini – sosial təzyiq, iqtisadi çətinliklər və mənfi stereotiplərin addım-addım aradan qaldırılması üçün səyləri birləşdiririk.

Layihəmizin əsas mesajı aydındır: "Hər qızın oxumaq, öyrənmək və öz taleyini müəyyənləşdirmək haqqı var". Odur ki, bu 4 il ərzində qızların orta və ali təhsilə davam etməsini təşviq etmək, erkən nikah hallarının qarşısını almaq, valideynlər və yerli icmalar arasında maarifləndirməni gücləndirməklə yüzlərlə ailənin həyatına toxunmağa çalışdıq. Qanunvericiliyin təkmilləşməsi və yeni icra mexanizmlərinin yaradılması üzərində bütün tərəfdaşlarımızla səmərəli əməkdaşlıq qurduq. Nəticədə təhsildən ayrılmaq üzrə olan onlarla qızlar məktəbə qayıdıb, bir çoxu ali təhsil müəssisələrinə daxil olub. Bir qismi bu arzusuna çatmaq üçün hazırlıq kurslarına cəlb olunub. Bu prosesə ilk ildə qatılan onlarla tələbə qız isə məzun olaraq artıq müstəqil həyata qədəm qoyub. Reallaşmasına çox böyük həvəslə çalışdığımız isə "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramımızdır. Bu çərçivədə təhsil alan xanımların sayı bu ilin nəticələri də daxil olmaqla artıq 34 nəfərdir.

Azərbaycan xalqına Zəfər yaşadan igid oğullarımızın xanımları və yadigarlarına layiqli və qürurlu həyat bəxş etmək üçün onların öz ayaqları üzərində möhkəm dayanmasına imkan verəcək təhsil və əmək vərdişləri əldə etmələrinə yardımçı olmaq bizə qürur verir. Bir sözlə, qadının, xüsusilə gənc qızların təhsilinə yatırılan sərmayənin, çəkilən zəhmətin əslində, bütün millətin gələcəyinə qoyulan investisiya olduğuna əminliyi artırmağa çalışırıq. Bu isə bir layihənin icrasından daha böyük hədəfə xidmət edir.

Zeynalabdin Tağıyev cəmiyyətə bir məktəb deyil, bir düşüncə tərzi bəxş etdi. Bu gün dövlət qurumları, vətəndaş cəmiyyəti və fərdi təşəbbüslər həmin ideyanı müasir şəraitdə yenidən həyata keçirir. Hazırkı nəticələrimiz sübut edir ki, qadının ictimai, siyasi, sosial statusu, eləcə də bir fərd olaraq bu gün və gələcəyi üçün ən güclü sosial müdafiəsi təhsildən başlayır. Cəmiyyətin inkişaf səviyyəsinin göstəricisi, insan hüquqlarının təmin edilməsi, inklüzivliyin, davamlı və dayanıqlı inkişafın etibarlı bünövrəsi də təhsildir. Əgər 124 il bundan əvvəl Zeynalabdin Tağıyev bu millətə maarifin qığılcımını bəxş etdisə, indi bu alov minlərlə gənc qızın gözündə, sinif otaqlarında, laboratoriyalarda, universitet auditoriyalarında parlayır.

Bu isə inkişaf və çiçəklənmə naminə xalqın azad ruhunun, qadının iradəsinin ifadəsi və dövlətin onu təmin etmək yolunda sərgilədiyi siyasətin təntənəsidir.

***Bahar MURADOVA,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə***
***Dövlət Komitəsinin sədri***

*Düşünək, düşündürək!*

# Mənəvi zənginliyin mötəbər saxlancı

## *Ədəbiyyat dili və milli yaddaşı qoruyur*



**Həyatın uzaq, qaranlıq yollarına işıq salan, insanı ucaldan, bilikli, söhbətcil, hazırcavab edən kitab yalnız məlumat mənbəyi deyil, həm də insanın mənəvi aləmini formalaşdıran, həyatın dərinliklərini anladan bilik ümmanıdır. Elm, təhsil, mədəniyyət, mənəviyyat, inkişaf, sivilizasiya kitabdan başlayıb və onunla zənginləşib. Rus yazıçısı Maksim Qorki yazırdı ki, kitab oxumaq özünüzə və başqalarına hörmət etməyi, insanları sevməyi öyrədəcək, fikirlərinizi aydınlaşdırmaqda kömək olacaq. Çox təəssüf ki, bu tükənməz xəzinədən istifadə edənlərin, kitab oxuyanların sayı getdikcə azalır.**

Bu gün Azərbaycanda kitabların az satılmasının səbəblərindən biri onun ticarətinin lazımi səviyyədə təşkil olunmaması, nəşrlərin gərəkliyini anladan izahat və təbliğatın aparılmamasıdır. Əvvəllər cəmiyyətin nüfuzlu təbəqələrindən sayılan şair və yazıçıların əsərləri böyük tirajla çap olunur, kitab mağazalarında satışa çıxarılır, mədəniyyət evlərinə, kitabxanalara göndərilirdi. Tanınmış, xalq tərəfindən sevilən qələm sahibinin işıq üzü görən hər kitabı mədəni hadisə idi. Qonorar sistemi isə yazıçıya maddi rifahını təmin etmək imkanı verirdi.

Təəssüf ki, bu gün ədəbiyyat sahəsində ciddi boşluq yaranıb, sözün gücünü yaşadan, milli kimliyi qoruyub saxlayan yazıçı və şairlərimizin yaratdıqları mənəvi sərvətdən yararlananların azlığı, oxucu auditoriyasının kifayət qədər olmaması tirajları kəskin şəkildə aşağı düşüb. Əllərdə gəzən kitabların müəllifi isə aldığı cüzi qonorarla dolana bilmir.

**"Ulduz" jurnalının baş redaktoru, Prezident təqaüdçüsü, Əməkdar jurnalist Qulu Ağsəsin** məsələyə münasibətini öyrəndik:



– Başqa ölkələrdə də şair və yazıçılar kitablarından böyük qonorar almırlar. Dünyada detektiv janrda yazılan əsərləri çıxmaq şərtilə kitaba o qədər də böyük maraq yoxdur. Sovet dövründə isə vəziyyət tamam başqa idi. Bütün kitabxanalar sifarişlər götürür, Mədəniyyət Nazirliyi bu işə birbaşa nəzarət edirdi. İstənilən kənd kitabxanasından "Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarını, "Ədəbiyyat" qəzetini, sevdiyin, yaxud adını ilk dəfə eşitdiyin yazıçıların belə əsərlərini tapa bilərdin. O dövrdə ədəbiyyata marağı artırmaq üçün məktəblilər tamaşalara aparılır, tələbələr qəzet və jurnallara abunə olur, kitabxanalar sifarişlər götürürdülər. Çox istərdim ki, bu ənənələr davam etsin.

Qonorar sadəcə maddi gəlir deyil, həm də yazıçının əməyinə verilən qiymətdir. Bu qiymət nə qədər yüksək olarsa, ədəbiyyata maraq da bir o qədər artar. Çox acınacaqlı haldır ki, bu gün bir çox yazıçılarımız əsərlərini nəşr etdirmək üçün şəxsi vəsaitlərindən istifadə edir, hətta avtomobilini satanlar da var. Yalnız Yazıçılar Birliyi tərəfindən yazıçılara az və ya çox qonorar yazılır. Heç bir ictimai qəzet, siyasi orqan bədii nümunəyə qonorar vermir. Saytlardan, televiziya və radiodan isə danışmağa dəyməz. Rəsmi orqanlar tərəfindən yazıçılara verilən qonorarlar çox aşağıdır və illərdir artırılmır.

Ədəbiyyat təkcə müəllifin "könül işi" kimi dəyərləndirilməməlidir. O, milli yaddaşın, dilin, mədəniyyətin daşıyıcısıdır. Televiziya və radioda ədəbiyyata kifayət qədər yer ayrılmaması, qəzet və saytların ədəbi mətnlərə qonorar ödəməməsi bu sahədəki durğunluğu daha da dərinləşdirir. İnkişaf etmiş ölkələrdə ədəbiyyatın dəstəklənməsi üçün müxtəlif mexanizmlər – qrantlar, mükafatlar, abunə sistemləri, məktəblərdə və kitabxanalarda dövlət sifarişləri və s. mövcuddur. Bu kimi təşəbbüslərin bizdə də genişləndirilməsi vacibdir. Gənc yazarların, eləcə də peşəkar ədiblərin fəaliyyət stimullaşdırmaq üçün həm maddi, həm də mənəvi dəstəyə ehtiyac var.

**Yazıçı-publisist Fəxri Uğurlu bildirdi ki,** vaxtilə dövlət strukturları ədəbiyyatla, yazıçı ilə oxucu arasında vasitəçi idi:



– Kitablar dövlət tərəfindən satılır, satışdan əldə olunan gəlirin müəyyən hissəsindən isə müəlliflərə qonorar verilirdi. "Azərkitab", "Kəndkitab" və digər yayım strukturları kitabxanalara kitab tədarük edirdilər. Ancaq indi ədəbiyyata maraq və diqqət azalıb. Dünya təcrübəsində nəşriyyatlar yazıçı ilə müqavilə bağlayır, əsərlərini yayımlayır, satışını təşkil edir və satışdan müəllifə müəyyən faiz verir. Bu faizlər müxtəlifdir; məşhur yazıçıların, daha az tanınan yazıçıların faizləri fərqli olur, amma hər halda müəllif müəyyən gəlirlə təmin edilir.

Beləliklə, yazıçı öz kitabının satılmasına görə narahat olmur, çünki bunu nəşriyyat idarə edir. Həmçinin nəşriyyatlar piratlarla mübarizə aparır və müəllif hüquqlarını qorumağa çalışırlar. Lakin bizdə bu mexanizm hələ tam formalaşmayıb. Bəzi insanlar deyirlər ki, biz müəyyən qazanclar əldə edirik, amma bu qazancların heç də çoxu ədəbiyyatla əlaqəsi yoxdur. Ola bilsin, onlar oxucuya müəyyən mexanizmlər vasitəsilə yol tapıblar. Bildiyimə görə, bəzi dövlət orqanları kitablar üçün subsidiyalar ayırır. Lakin bu subsidiyaların necə xərcləndiyi, kimlərə verildiyi haqqında konkret fikir deyə bilmərəm.

Milli dövlətçilik baxımından kitabın əhəmiyyəti son dərəcə böyükdür. Çünki millət, insan yalnız kitabla formalaşır, mədəniyyətlə, ədəbi ənənələrlə inkişaf edir. Əgər dövlətin təməlində, bazasında bu məsələlər möhkəm şəkildə qoyulmayıbsa, heç bir tikili uzun müddət möhkəm qala bilməz. Bizim çox böyük ədəbi irsimiz var, xüsusilə orta əsrlərdən bəri böyük yazıçılarımız, şairlərimiz və ozanlarımız olub. Azərbaycan xalqı hər zaman böyük bir ədəbi ənənəni yaşadıb. Bu ənənə yenə də davam edəcək. İndi bunun üçün müxtəlif qurumlar cəhd göstərirlər. Lakin bu cəhdlərin uğurlu olması üç günə, beş günə bağ verməyəcək. Əgər bu işlər davamlı şəkildə həyata keçirilərsə, o zaman Azərbaycan ədəbiyyatının böyük gələcəyi olacaq.

**Şair, publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli deyir ki,** bir çox xarici ölkədə də ən yaxşı xəstəkarların kitablara görə "əli bala" batmır:



– Amma kitab ticarətinin inkişaf etdiyi ölkələrdə yazıçılar öz yaradıcılıqlarından barına bilirlər. Ən çox da oxucuların istirahəti və əyləncəsini təmin etmək məqsədilə yazılan kitablar gəlir gətirir. İnsanlar psixoloji gərginlik yaradan kitabları oxumağa o qədər də meyilli deyillər. Əlbəttə, burada hollivudsayağı filmlərin, dünya teleekranını zəbt etmiş bayağı verilişlərin də xidməti az deyil. Bayağı verilişlər isə Azərbaycan teleekranına çoxdan hakimdir. Təəssüf ki, "Azərkitab"ın yaxşı ənənələrini inkişaf etdirə bilmirik.

Mən 200-dən çox kitab yazmışam, 70-i çap olunub. 10-dan çox tanınmış və görkəmli alim yaradıcılığım haqqında monoqrafiyalar yazıb və nəşr etdirib. Şəxsi təşəbbüsümlə kitablarımın yayımı ilə məşğul olmuşam. Qazancım isə yeni kitablarımın nəşrinə yetərli olub. Əlbəttə, bu, çox azdır. Yaxşı olar ki, yazıçılar, söz-sənət adamları cəmiyyətin ictimai həyatı, sosial problemləri ilə bağlı verilişlərə tez-tez dəvət olunsunlar. "Kitab köşkü" rubrikasında cəlbedici verilişlər təşkil olunsun. Polemikalar, mübahisələr yazıçının cəmiyyət tərəfindən tanınmasına kömək edər. Yazıçı öz əsərləri ilə bağlı qaldırdığı polemik mübahisələrlə öz kitabını da reklam etmiş olar.

Vaxtilə proletkultçular özlərindən əvvəlki ən yaxşı ənənələrdən imtina etdilər. Bu da cəmiyyətdə qarşısıalınmaz faciələrə səbəb oldu. Varislik əlaqələri qırıldı, repressiyaların tüğyanı başladı. Zənnimcə, kitab ticarəti ilə bağlı ən yaxşı ənənələr bərpa edilməlidir. Vaxtilə "Kitabsevərlər cəmiyyəti" var idi. Cəmiyyətin əsas işi kitabın təbliği və reklamının mahiyyətini ifadə edirdi. Düşünürəm ki, kitabxanalara qarşı "repressiya" çox zərərli oldu. Ən kiçik, az sayda əhalisi olan kəndin də kitabxanası olmalıdır, bu, mənəvi mühitin formalaşmasında faydalı olar. Mən bir müəllif kimi kitablarımın müəyyən qisminin kitabxanalara verilməsində maraqlıyam. Təbii ki, bu, dəryada damla misalındadır. Təəssüf ki, Mədəniyyət Nazirliyinin müvafiq qurumlarındakı məmurların çox az qismi yazıçılarla ünsiyyət qurur. Bəlkə də elələri var ki, iki-üç yazardan qeyrisini tanımır.

Əlirza müəllim sonda dedi ki, xarici ölkələrdəki müvafiq, analoji qurumların təcrübəsi öyrənilməli və tətbiq olunmalıdır:

– Bir sözlə, kitabxana və kitabxanaçıların fəaliyyəti canlandırılmalıdır. Əlbəttə ki, dövlətin köməyinə ehtiyac var. Kitabxanalarda oxucu görüşləri, müəlliflərlə ünsiyyət mənəvi arxivdən canlı həyata gətirilməlidir. Nəşriyyatlara, mətbəələrə xüsusi diqqət yetirilməli, avadanlıq və təchizat üçün güzəştlər olmalıdır. Zənnimcə, kitab ticarəti və nəşri ilə bağlı vergi məsələlərində də əsaslı dəyişikliklər olmalıdır. Bütün hallarda yazarın kitabxanası, arxivi cəmiyyətin sərvətidir. Bunun qorunması müəyyən yardımlarsız mümkün deyil.

Biz istəsək də, istəməsək də yeni zamanın gətirdiyi problemlərlə üz-üzəyik. Düşünürəm ki, cəmiyyətin mənəvi inkişafında az-çox rolu olan yazarlara yubileylərində müəyyən maddi köməkliklər olmalıdır. Bu, kitablarının nəşrində istifadə edilə bilər.

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist Qurban Yaquboğlu** sənət və ədəbiyyat adamlarına təbiq olunan qonorar sisteminin tamamilə



aradan qaldırılmaq ərəfəsində olduğunu, xüsusilə yazıçıya, jurnalistə, redaktora qonorar yox, sabit maaş məbləği təklif edildiyini deyir:

– Qonorar yaradıcı şəxsin mükafatlandırılmasıdır. Şübhəsiz ki, yazıçının yalnız qonorar hesabına yaşaması qeyri-mümkündür. Stifen Kinq "Yazmaq sənəti" kitabında qeyd edir ki, Amerikada 95 faiz yazıçı qonorar hesabına yaşaya bilmir. Yəni bunun üçün çox məşhur və kitabları yaxşı satılan müəllif olmalısan. Amma hər halda dünyada qonorar sistemi mövcuddur, müəllif əməyinə görə mükafatlandırılır. Azərbaycanda isə kitablar ya qonorarsız, ya da müəllifin öz hesabına nəşr olunur, bəzən piştaxta arxasında da dayanmalı olur. Bu, çox acınacaqlı haldır.

Kitabın xüsusi dəyər daşıyıcısından satılıq əmtəəyə çevrilməsi onu market və bazarlara yönəltdi. Kitabxana sisteminin sıradan çıxarılması kitabın mahiyyətinə daha bir zərbə oldu. Yeni texnologiyanın meydana çıxması, elektron mətnlərin kağız kitaba alternativ olması vəziyyəti bir az da gərginləşdirdi və "kitabın ölümü"nü arzulayanlara dəlil verdi. Mənim şəxsi fikrim belədir ki, kağız mətnlər, yəni kitablar əbədidir, metafizik mahiyyət daşıyır və gec-tez bunu hamı qəbul edəcək. Kitabın qorunması üçün xüsusi qərarların qəbuluna ehtiyac var. Biz kitabsız cəmiyyətdə yaşamamalıyıq. Bütün anologiyaları sovet dövrü ilə apparmağın tərəfdarı deyiləm. Sovet sistemində yazıçı-şair ideoloji prosesin tərkib hissəsiydi, bundan başqa, sovetlərin siyasi fəlsəfəsində yazıçıya daim ənam verilməliydi. Bu mənada sovet dönəmində çox yaxşı yaşayan yazıçıyla çox yaxşı yazan yazıçı arasında fərq yaranırdı. Günümüzdə sənət və ədəbiyyatın cəmiyyətimizə və dövlətimizə gərəkliyi mövzusuna aydınlıq gətirilməlidir. Yalnız bundan sonra bu sahədə pərakəndəliyi, xaosu, bəzi hallarda bazar özbaşınalığını aradan qaldırmaq olar.

Bəli, müasir dövrdə informasiya bolluğunda yaşayırıq. Lakin sosial şəbəkələrdə yayılan xəbərlər, məlumat seli çox zaman səthi olur. Kitab oxumaq isə insanın dünyagörüşünü genişləndirir, həyat dərsi verir, fərqli dünyaları, müxtəlif düşüncə tərzlərini tanımaq imkanı yaradır, düşünməyə, nəticə çıxarmağa sövq edir. Kitab oxumaq həm də milli-mənəvi dəyərlərin qorunması, dilimizin zənginliklərinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi üçün zəruridir. Dövrün sürətinə baxmayaraq, hər birimiz kitab oxumağa vaxt ayırmalı, onu vərdiş halına çevirməliyik. Çünki ədəbiyyat millətin ruhunun aynası, yaddaşının qoruyucusu, sabaha aparan güclü vasitədir.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Bakıda beynəlxalq kitab marafonu finişə çatdı

**XI Bakı Beynəlxalq Kitab Sərgisinin son günündə hökumət nümayəndələri, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri, yazarlar və xarici qonaqlar iştirak edirdilər.**

Təzə kitabların qoxusu salona yayılmış, hər yerdə vərəqlənən səhifələrin xışıltısı insan izdihamı ilə qəribə harmoniya yaratmışdı. Bakı Ekspo Mərkəzində keçirilən sərgidə sonuncu qələbəlik yaşanırdı. Oxucular sevdikləri müəlliflərlə görüşür, imza almağa növbələr yaranır, yeni nəşrlərin sırası gəl-gəl deyirdi. Artıq 11 ildir ki, paytaxtımızda beynəlxalq kitab sərgisi yazıçı, oxucu və nəşriyyatlar arasında körpü rolunu oynayır, cəmiyyətin mədəni yaddaşında silinməz izlər qoyur.

iştirak edirik. Ümumiyyətlə, sərgi mədəni həyatımızda həqiqətən böyük hadisədir. Çünki kitabla cəmiyyətin ünsiyyəti hər zaman dinamik olmur; insanlar daha çox ekran qarşısında vaxt keçirir, informasiyanı sürətlə alırlar. Amma dərin təcrübə, düşüncə və fərdi təhlil üçün kitab əvəzsizdir. Bu baxımdan sərgi fərqli təəssürat yaradır, sərgi salonlarında gəzib yeni kitablarla tanış olarkən insan sanki sehrli aləmə düşür.

Mənə elə gəlir ki, ən dəyərli məqam məktəblilərin, gənclərin sərgi ilə tanış ol-









**Sərgidə Əməkdar jurnalist, yazıçı-publisist Zemfira Məhərrəmlinin "Arabadakı adam" kitabının təqdimatı keçirildi. Müəllif oxucularla canlı ünsiyyətin onun üçün çox maraqlı və gərəkli olduğunu söylədi:**

– Oktyabr ayının 1-dən etibarən xoş günlər yaşayırıq, kitab bayramını qeyd edirik. Kitab bayramı, bəlkə də, ən təsirli şənlikdir. O yerdə ki, maariflənməkdən, mütaliə bacarıqlarını genişləndirməkdən söhbət gedir, mənə elə gəlir ki, bunun hər kəsə - uşağa, yeniyetməyə, gəncə, hətta ahıl insana da xeyri var. Çox sevinirəm ki, builki kitab sərgisində mənə də imza saatı keçirmək fürsəti yaradıldı.

"Arabadakı adam" romanım dünən mətbəədən çıxıb. Oxucuların arasında müxtəlif təbəqədən insanlar var, hətta məktəblilər belə başıma toplaşıblar. Görünür, onların müəllimləri, tərbiyəçiləri uşaqlarda kitaba maraq yaradıblar. Mən ötən il kiçik yaşlı oxucularıma hekayələrimi hədiyyə etdim. O hekayələri nəvələrimdən ilhamlanaraq, yəni uşaq dünyasına baş vuraraq yazmışam. Çox sevinirəm ki, cəmiyyətdə kitaba maraq güclüdür. Dövlət başçısı, ölkənin birinci xanımı, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu tərəfindən bu cür tədbirlərin keçirilməsinə göstərilən dəstək çox önəmlidir.

Mən bədii yaradıcılığa jurnalistikadan gəlmişəm. Xalq yazıçısı, mərhum Hüseyn Abbaszadə döyüşən qadınlar haqqında bədii-publisistik hekayələrimi oxumuşdu və mənə dedi: "Siz onsuz da bu hekayəni yazırsınız. İndi siz təxəyyülünüzə arxalanıb bu əsərlərin bədii variantını yazın". Elə o gündən yazmağa başladım və gördüm ki, bəyənilir. 24 ildir, Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm.

**Gənc oxucular ən çox hansı janra üstünlük verir? Bu sualımızı "Qanun" Nəşriyyatının satış meneceri Rəvan Bağırlı cavablandırdı:**

– Sərgidə keçirdiyim 7 gün ərzində müşahidə etdim ki, ən çox şəxsi inkişaf və bizneslə bağlı kitablara daha çox maraq var. Klassik romanlara da üstünlük verilir. Ötən il daha çox detektiv janrına aid kitablar satılırdı, bu il isə oxucuların marağı dairəsi dəyişib, xüsusilə gənc nəslin. Ancaq onu da qeyd edim ki, ötən il satışlar bu illə müqayisədə daha çox idi. İndi həftəsonları insan axını daha çox olur. Bunu da vaxt məhdudiyyəti ilə əlaqələndirirəm.

**Sərgidə "Heydər Əliyev Xatirə Kitabının yaradıcısıdır" kitabının təqdimatı və Xatirə Kitabı redaksiyasının 30 illik fəaliyyətinə həsr olunmuş görüşdə Əməkdar jurnalist, professor Qulu Məhərrəmli dedi:**

– Ümummilli lider Heydər Əliyevin dövlətçilik prinsipləri və xalq üçün gördüyü işlər Azərbaycan tarixində əvəzolunmaz iz qoyub. Hər bir gənc vətəndaş üçün bu nümunə həm ilham qaynağı, həm də vətənpərvərlik və məsuliyyət hissini gücləndirən amildir. Nə xoş ki, bu gün sərgidə

masıdır. Z nəsli adlandırdığımız gənclər hələ kitabla tam şəkildə ünsiyyət qurmayıblar. Onların düşüncəsi, maraqları çox vaxt mavi ekranlarla formalaşır. Ona görə belə sərgilərin tez-tez keçirilməsi onların kitabla əlaqəsini dərinləşdirir, oxuma vərdişini gücləndirir.

İnternet, kino, televiziya və sosial şəbəkələr əlbəttə ki, məlumat üçün vacib vasitələrdir. Amma kitab klassikadır, o irsdir, insanın dünyagörüşünü, təxəyyülünü və daxili zənginliyini inkişaf etdirən böyük xəzinədir. Kitabın insan həyatında rolu əbədi və əvəzolunmazdır. Arzu edirəm, belə sərgilər davamlı olsun.

**Mərasimdə Bakı Dövlət Universitetinin tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, professor İradə Hüseynova ilə həmsöhbət olduq. O, ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, dövlətçilik fəaliyyətindən və zəngin irsindən danışdı:**

– Fəxr edirəm ki, mən "Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" adlı ilk doktorluq dissertasiyasının müəllifiyəm və bunu onun xeyir-duası ilə etmişəm. Ulu öndərin dövlətçilik və siyasi fəaliyyətinə həsr edilmiş bir sıra elmi monoqrafiyaların və dərsliklərin də müəllifiyəm. Bilirəm ki, onun haqqında nə qədər yazsaq da, kifayət etməyəcək. Çünki Ulu öndərin irsi bir ümmandır, bir xəzinədir. İnsanlar onun bilik xəzinəsindən nə qədər çox bəhrələnsələr, həyat yolunda o qədər düzgün istiqamət seçə biləcəklər.

**Sərgi salonunda əhil bir qadının kitablarla sıx təması həminin diqqətini cəlb edirdi. Səidə xanım hər gün sərgiyə gəlir, gününü burada keçirirdi. Deməli, bilik və sözün sehrinə maraq yaşla bağlı deyil. Niyəsini özü dedi:**

– Biz uşaq olanda televiziya yox idi. Həyatımızın rəngi qəzetlər və kitablar idi. Atam Sabirabadda "Muğan" qəzeti redaksiyasında çalışırdı. Hər axşam evimizdə ədəbi məclis qurulardı – söhbətlər, mübahisələr, oxunan yeni əsərlər, şeirlər... Heç yerdə tapılmayan kitablar atamda olardı. O, həmin günün qəzetini evə gətirməsə, mən yatmazdım. Gözləyirdim ki, qəzeti gətirsin, hamıdan əvvəl mən oxuyum. İndi də hər gün qəzet oxuyuram. Evimizdə saysız-hesabsız kitablar var. Bir yerə gedəndə mütləq tapşırıram: "Kitablarıma, qəzetlərimə heç kim toxunmasın". Özümü kitabsız təsəvvür edə bilmirəm. Bütün ömrümü müəllimliyə həsr etmişəm, hazırda təqaüddəyəm.

Sərgidəki çoxsaylı ekspozisiyalar, kitablar keçirilən təqdimat və görüşlər bir daha göstərdi ki, elm, bilik mücrüsü sayılan kitab yaşayır, heç bir texnoloji yenilik onu sıradan çıxara bilməyəcək. Yaşasın, kitab dünyamız!

***Fidan ƏLİYEVA***
***XQ***

# Zəkası min ili aşan dahi

**973-cü il oktyabrın 4-də Xarəzm dövlətinin paytaxtı Kət (Kayat) şəhərində dünyaya gələn Əbu Reyhan Məhəmməd ibn Əhməd Əl-Biruni elmlər tarixində dərin iz qoymuş şəxsiyyətlərdən biridir. Gənc yaşlarından məşhur astronom və riyaziyyatçı İbn İraqdan mükəmməl təhsil alan Əl-Biruni yalnız riyaziyyat və astronomiyanı deyil, fəlsəfə, coğrafiya, tarix və digər sahələri də öyrənmişdi. O, Xarəzmi türkcəsilə yanaşı, Şərqin 9 dilinə, yunan və latın dillərinə də bələd idi.**



Əl-Biruni geniş elmi maraqları ilə seçilirdi. Riyaziyyat, astronomiya, geodeziya, tarix, filologiya, mineralogiya və farmakologiya üzrə 45-ə yaxın əsər yazaraq müstəqil tədqiqatlar aparmışdı. Onun ilk əsəri xronologiyaya həsr edilmiş, həmin dövrdə mövcud bütün təqvim sistemləri toplanaraq təhlil edilmiş və geniş xronoloji cədvəl tərtib olunmuşdu. Mineralogiya sahəsində 50 metal, ərinti və mineralın xüsusiyyətlərini təsvir etmiş, dərman vasitələri barədə məlumat toplamış, elmi terminlərin dillərarası tərcümə prinsiplərini işləyib hazırlamışdı.

Əl-Biruninin əsas əsərlərindən biri – “Məsudun astronomiya və ulduzlara dair qanunları”nda alim Yer kürəsinin radiusunu hesablamış, ekvatorla ekliptika arasındakı meyletmə bucağını müəyyənləşdirmiş, Ay və Günəş tutulmalarını müşahidə etmiş, günəş tacının təbiətini izah etmiş və ulduzlar ilə günəşin odlu quruluşa malik olduğu fikrini irəli sürmüşdü.

Alim Şərqin bir çox şəhərlərində olmuş, sultan Mahmud Qəznəvinin yürüşü ilə Hindistana qədər getmiş və orada bir neçə il yaşamışdı. Hind fəlsəfi sistemlərinə – xüsusilə də kosmik təkamül nəzəriyyəsinə dair əsər yazmış, bu əsərdə şahmat taxtası və taxıl dənələrinin məşhur əfsanəsini də təsvir etmişdi.

Əl-Biruninin elmi irsi yalnız Şərqdə deyil, həm də Qərbdə böyük maraq doğurmuşdu. Onun əsərləri orta əsr Latın dünyasına ərəb tərcümələri vasitəsilə daxil olmuş, Avropa alimləri tərəfindən öyrənilmişdi. Xüsusilə astronomiya, coğrafiya və riyaziyyata dair nəzəriyyələri Qərb elminin inkişafında mühüm rol oynamış, Kopernik, Kepler və digər alimlərin tədqiqatlarına dolayı təsirini göstərmişdi. Əl-Biruninin Yer kürəsinin radiusu və sferik coğrafiyaya dair hesablamaları Avropada uzun müddət əsas istinad mənbələrindən biri olmuşdu.

Alim 1048-ci il dekabrın 9-da Qəznə şəhərində vəfat etmişdir. Ölümünə az qalmış belə, o, elmi mübahisələrdən çəkilməmiş, dostlarından birinə belə demişdir: “Bir sualın cavabını öyrənərək dünyanı tərk etmək cavabsız getməkdən yaxşıdır”.

***XQ***

# Fizika üzrə ilin Nobel mükafatçıları

**Oktyabrın 7-də Fizika üzrə Nobel mükafatı laureatlarının adları açıqlanıb.**



İsveç Kral Elmlər Akademiyası 2025-ci ildə fizika üzrə Nobel mükafatını Con Klark, Mişel H. Devoret, Con M. Martinisə “makroskopik kvant mexaniki tunelin kəşfi və elektrik dövrəsində enerjinin kəmiyyətinin müəyyən edilməsinə görə” vermək barədə qərar qəbul edib.

Bu alimlərin superkeçirici elektrik sistemi bir vəziyyətdən digərinə keçə bilir. Onlar göstəriblər ki, sistem kvant mexanikasının proqnozlaşdırdığı kimi, enerjini xüsusi ölçülərdə udub buraxır.

***XQ***

# “Siemens” də Qara dəniz kabel layihəsinə qoşuldu

**Almaniyanın “Siemens Energy Global GmbH & Co. KG” şirkəti və Azərbaycandan Gürcüstana və daha sonra Avropaya “yaşıl” enerjinin tədarükünü nəzərdə tutan Qara dəniz sualtı enerji kabeli layihəsinin idarə edilməsini həyata keçirən “Green Energy Corridor Power Company” (GECO) birgə müəssisəsi arasında Anlaşma Memorandumu imzalanıb.**




“Alman – Azərbaycan ixracın maliyyələşdirilməsi konfransı çərçivəsində imzalanan sənədə əsasən yüksək gərginlikli birbaşa cərəyan ötürmə sistemindən istifadə edilməklə “yaşıl” enerjinin ötürülməsi sahəsində əməkdaşlıq nəzərdə tutulur.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. 2023-cü ildə Bolqarıstan layihəyə qoşulmaq niyyətində olduğunu bildirib. Həmin il bu ölkənin Nazirlər Şurası “Bulgarian Energy Holding EAD” şirkətinin layihənin həyata keçirilməsi üzrə birgə müəssisədə iştirakını təsdiqləyib.

2024-cü ilin mayında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın sistem operatorları – “Azərenerji”, “Gürcüstan Dövlət Elektrosistem”, “Transelectrica” və MVM arasında birgə müəssisənin yaradılması haqqında memorandum imzalanıb. Həmin ilin sentyabrında isə GECO birgə müəssisəsinin təsis edilməsi haqqında səhmdar müqaviləsi bağlanıb.

İlkin mərhələdə kabel 4 qiqavat “yaşıl” enerjinin ixracı üçün nəzərdə tutulacaq. Tikinti işləri 3,5 milyard avro dəyərində qiymətləndirilir və 3-4 il davam edəcək. Avropa Komissiyası layihəyə 2,3 milyard avro ayırmağı planlaşdırır.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Zərərçəkmişlərin hüquqi varislərinin ittihamları dinlənilib



**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 7-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Elmir Qənbərovun hüquqi varisi – atası Rayil Qənbərov bildirib ki, övladı Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində həlak olub.

Zərərçəkmiş şəxs Səfiyar Məmmədovun hüquqi varisi Şəhriyar Məmmədov ifadəsində qardaşının Kəlbəcərdə düşmən atəşi nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxs Müzəffər Cəfərov ifadəsində Laçında sanitar avtomobillə yaralıları təxliyə edərkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində xəsarət aldığını söyləyib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs sanitar avtomobilin üzərində tibbi yardım maşını nişanının olduğunu, buna baxmayaraq, atəşə tutulduqlarını söyləyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Nicat Əlizadə düşmənin açdığı atəş nəticəsində Xocalı rayonu istiqamətində xəsarət aldığını deyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Fuad Kərimov Ağdərə istiqamətində düşmənin təxribatı nəticəsində xəsarət aldığını bildirib.

Ruslan Məmmədli Ağdərə istiqamətində düşmənin açdığı atəşlər nəticəsində ayaqlarından, qolundan və bədəninin digər nahiyələrindən xəsarətlər aldığını söyləyib. Səhhətində hazırda problemlər qalır. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında hadisə zamanı həlak olanların və özündən başqa yaralananların da olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran Murad Abbaslı Kəlbəcərdə düşmənin açdığı atəş nəticəsində yaralandığını bildirib.

Əvəz Zeynalov Ağdərə rayonunun Talış kəndində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşi nəticəsində xəsarət aldığını söyləyib.

Rəvan Rzayev və Cəmaləddin Nəsirov Xocalı rayonunun Şuşakənd kəndində düşmənin açdığı atəş nəticəsində yaralandıqlarını bildiriblər. R.Rzayev deyib ki, hadisə nəticəsində bir neçə nəfər ölüb, özündən başqa daha bir neçə şəxs yaralanıb.

Ayxan Kərimli Xankəndi istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı artilleriya atəşi nəticəsində qəlpə yaraları aldığını bildirib. Hadisə zamanı bir nəfər həlak olub, bir neçə nəfər isə yaralanıb.



Vüsal İsazadə Şuşa rayonunun Xəlfəli kəndində düşmənin drondan atdığı qumbaranın partlaması nəticəsində yaralandığını bildirib. Qeyd edib ki, hadisə zamanı yanında olmuş Mürsəl Əlizadə və Elman Süleymanov da xəsarət alıb.

İfadə verən digər zərərçəkmiş şəxslər - Elmir Sadıqov, Nicat İsgəndərov, Fuad Əmirov və Vurğun Sayılov, Cahid Asdanov, Şükür Əskərov, Kamran Talıblı, Elgün Yusifli, Osman Cabbarlı, Rövşən Əzimli, Xalid Həsənov, Vüqar Məmmədzadə, Mirdamət Xankişiyev, Anar Əsgərzadə, Mürsəl Əlizadə, Cabbar Cabbarzadə, Qalib Məmmədov, Qismət Əhmədov, Vüsal Məmmədov, Elsevər Qədirov, Arzuman Xankişiyev, Məhəmməd Abdullayev Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşləri nəticəsində müxtəlif ərazilərdə yaralandıqlarını bildiriblər.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 14-nə təyin olunub.

***XQ***

*AMEA-80*

# BDU-da milli elmin yubileyi



**Dünən Bakı Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş məclis keçirilib.**

Mərasimi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev açaraq 80 illik şərəfli yol keçən AMEA-nın əməkdaşlarını təbrik edib, ölkəmizin elmi potensialının güclənməsi və inkişafı, müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, bu yubiley bir elmi qurumun deyil, bütövlükdə, Azərbaycan elmi, milli düşüncəsi və intellektual irsinin bayramıdır:

Natiq akademiya ilə rəhbərlik etdiyi qurumun tarixi əlaqələrindən bəhs edərək bu gün də yüzlərlə BDU məzununun AMEA-nın müxtəlif institut və mərkəzlərində çalışdığını diqqətə çatdırıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli rəhbərlik etdiyi qurumun 80 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlər barədə məlumat verdi.

“Bu gün AMEA-nın 80 illik yubileyinin burada keçirilməsi universitetin kollektivinin Azərbaycan elmi ictimaiyyətinə, Azərbaycan Milli Elmlər Akademiyasına hörmət və ehtiramından irəli gəlməklə yanaşı, həm də əməkdaşlığımıza, elmi əlaqələrimizin dünəninə, bu gününə və bundan sonrakı inkişafına Bakı Dövlət Universitetinin verdiyi önəmin və diqqətin ifadəsidir”.

AMEA-nın tarixi və inkişaf mərhələləri barədə tədbir iştirakçılarına məlumat verən akademik İsa Həbibbəyli bildirib ki, Prezident İlham Əliyevin ölkəmizə böyük uğurla rəhbərlik etməkdə davam etdiyi illər üzrə AMEA iki istiqamətdə inkişaf yolu keçib, 2003-2022-ci illər Akademiyanın modernləşdirilməsi, 2022-ci ildən bu günə kimi isə yeniləşmə və islahatlar mərhələsidir.

AMEA-da Qərbi Azərbaycan tarixi, Qərbi Azərbaycan folkloru, Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi, Qərbi Azərbaycana qayıdış siyasəti və ermənişünaslıq şöbələrinin fəaliyyətə başladığını bildirən akademik Türk xalqlarının fəlsəfi irsi və müasir fəlsəfəsi şöbəsi, Türk sənət tarixi və mədəni irsi şöbəsi, Türk əlyazmalarının tədqiqi şöbələrinin yaradıldığını da vurğulayıb.

Milli Məclis sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov AMEA Azərbaycanın zəka yükünü daşıyan vacib elmi qurum kimi XX yüzil içərisində xalqımızın milli ruhunun yüksəlişində müstəsna rol oynadığını bildirib.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, akademik Nizami Cəfərov, BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri akademik Vasif Babazadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Arzu İsgəndərzadə AMEA-nın respublikanın elmi-intellektual potensialının əsas daşıyıcısı, Azərbaycan elminin inkişafı, milli ruhun yüksəlişində dayaq nöqtəsi olduğunu bildiriblər.

Sonra AMEA-nın tarixi və fəaliyyəti barədə videoçarx və BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii kompozisiya nümayiş olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Azərbaycan dirijorunun Moldova uğuru



**Moldovanın paytaxtı Kişinyovda keçirilən 33-cü Beynəlxalq Opera Festivalında 12 ölkədən 20 xüsusi qonaq – Fransa, Almaniya, Ukrayna, Yunanıstan, Azərbaycan, Çili, Kuba, Polşa, İtaliya, Rumıniya, Holland və İspaniyadan dirijor və müğənnilər, Moldova Milli Opera Teatrının aparıcı solistləri, simfonik orkestri, xoru və balet truppası iştirak ediblər.**

Festivalın ən təntənəli anı 4 ölkənin ifaçılarının bərabər səhnələşdirdikləri C.Puççininin “Turandot” operasının təqdimatı olub. Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist, Bakı Musiqi Akademiyasının dosenti Əyyub Quliyevin idarə etdiyi tamaşada fransız soprano Kristel di Marko və çilili tenor Diyeqo Qodoyun ifaları ayaq üstə alqışlanıb. Moldova Milli Opera Teatrının müğənniləri, xoru və simfonik orkestrinin iştirakı operaya zənginlik gətirib.

Azərbaycanın Moldovada fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyev tamaşadan sonra Əyyub Quliyevlə görüşüb, soydaşımızı növbəti sənət uğuruna görə təbrik edib.

***XQ***

## “Bərdə İnşaat Sənaye” ASC səhmdarlarının nəzərinə!

25 noyabr 2025-ci il saat 11.00-da Bərdə şəhəri, Heydər Əliyev prospekti 122 nömrəli ünvanda “Bərdə İnşaat Sənaye” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**
**1.** Səhmdar cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
**2.** Mənfəət və zərərin bölüşdürülməsi.
**3.** Digər məsələlər.
Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.
**Əlaqə telefonu – 050-403-99-58.**
**Ünvan– Bərdə şəhəri, Heydər Əliyev prospekti 122.**

***“Bərdə İnşaat Sənaye” ASC-nin idarə heyəti***

## “Finex Kredit” BOKT ASC səhmdarlarının nəzərinə!

20 noyabr 2025-ci il saat 11.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda “Finex Kredit” BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
**1.** Nizamnaməyə dəyişiklik edilməsinin müzakirəsi.
**2.** Digər məsələlər.
Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.
**Əlaqə telefonu – (+994 12) 440-56-15.**
**E-mail – info@finexkredit.az**
**Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 216 (30910) 8 oktyabr 2025-ci il, çərşənbə

# İDMAN

## İgidlərimizin izi ilə Zəfər turniri



**Şuşada Zəfərin 5 illiyinə həsr olunmuş "İgidlərin izi ilə" adlı qayayadırmanma turniri keçirilib. İki gün davam edən yarış Azərbaycan Alpinizm Federasiyasının təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər və Gənclər və İdman nazirliklərinin, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə Xüsusi Nümayəndəliyinin, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin və Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə həyata keçirilib.**

Tədbirin birinci günündə iştirakçılar Muxtar kəndindən Cıdır düzünə qədər piyada yürüş edərək igidlərimizin keçdiyi yollarla tanış olublar.

İkinci gün Cıdır düzündə keçirilən qayayadırmanma yarışı gərgin və maraqlı idman mübarizəsi ilə yadda qalıb. Peşəkar və həvəskar komandalar yarışda güclərini sınayıb. Sonda qalib komandalar diplomlarla təltif olunub.

Turnir təkcə idman yarışı deyil, həm də şəhidlərin əziz xatirəsinə ehtiramın ifadəsi, Zəfər tariximizin yaşadılması və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından mühüm əhəmiyyət daşıyır.

## "Qarabağ"ın azarkeşlərə müraciəti

**"Qarabağ" klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinin III turunda, İspaniyada Madridin "Atletik" komandasına qarşı keçirəcəyi oyundan əvvəl azarkeşlərə müraciət edib.**



Bu barədə Azərbaycan təmsilçisinin yaydığı məlumatda bildirilib ki, komandanı İspaniyada dəstəkləmək istəyən azarkeşlər səfər oyunu üçün vauçerləri oktyabrın 15-dən əldə edə biləcəklər.

Vauçerlərin biletə dəyişdirilməsi ilə bağlı əlavə məlumat daha sonra klubun sosial media hesablarında açıqlanacaq.

Qeyd edək ki, "Atletik" – "Qarabağ" oyunu oktyabrın 22-də keçiriləcək.

## 2 boksçumuz Avropa çempionatının finalında

**Azərbaycanın 2 təmsilçisi Çexiyanın Ostrava şəhərində keçirilən boks üzrə U-19 Avropa çempionatında finala yüksəlib.**




Oğlanlardan Bilalhəbaşi Nəzərov (50 kq) yarımfinalda Lonut Razvan Panainteya (Rumıniya) qalib gəlib.

Qızlardan Banuçiçək Nəsirli (48 kq) də yarımfinalda Ameliya Sulanı (İtaliya) məğlub edərək özünə azı çempionatın gümüş medalını təmin edib.

## Paragüllə atıcımız Avropa çempionu olub




**Azərbaycanın paragüllə atıcısı Kamran Zeynalov Xorvatiyanın Osiyek şəhərində keçirilən Avropa çempionatında 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmada qızıl medal qazanıb. Paralimpiyaçımız 235.6 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.**

Qeyd edək ki, K. Zeynalov daha əvvəl qitə çempionatında qarışıq komanda üzrə 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmada (P6) Aybəniz Babayeva ilə birlikdə, eləcə də 50 metr məsafəyə tapançadan atəş açma üzrə fərdi yarışda gümüş medala yiyələnib.

*Qabil YUSİFOĞLU*
*XQ*

## III MDB Oyunlarının gündəliyi

# Azərbaycan ümumi hesabda 2-ci pilləyə yüksəldi

**Azərbaycanda ilk dəfə keçirilən MDB Oyunları sona yaxınlaşır. Dünən Oyunların müxtəlif növləri üzrə yarışlar keçirilib, medallar qaliblərə təqdim edilib.**

**Sevindirici haldır ki, Azərbaycan idmançıları ilk gündən yarışlarda yüksək əzmkarlıq göstərir. Son nəticələrə görə Azərbaycan idmançıları yarışlarda qazandığı medalların əyarına və sayına görə Rusiyadan sonra ikinci pillədə yer alıb. 3-cü yerdə Belarus komandası qərarlaşıb.**

| Rank | Country | Gold | Silver | Bronze | Total | Info |
|---|---|---|---|---|---|---|
| 1 | Russia | 124 | 61 | 40 | 225 | › |
| 2 | Azerbaijan | 33 | 53 | 92 | 178 | › |
| 3 | Belarus | 32 | 35 | 52 | 119 | › |
| 4 | Uzbekistan | 25 | 33 | 60 | 118 | › |
| 5 | Kazakhstan | 10 | 24 | 46 | 80 | › |
| 6 | Kyrgyzstan | 1 | 15 | 9 | 25 | › |
| 7 | Tajikistan | 1 | 5 | 16 | 22 | › |
| 8 | Turkmenistan | 0 | 0 | 2 | 2 | › |
| = 9 | Pakistan | 0 | 0 | 1 | 1 | › |
| = 9 | Türkiye | 0 | 0 | 1 | 1 | › |
| 11 | Cuba | 0 | 0 | 0 | 0 | |
| 11 | Kuwait | 0 | 0 | 0 | 0 | |
| 11 | Oman | 0 | 0 | 0 | 0 | |

## Çövkən millimiz qalib oldu



**Azərbaycanın çövkən yığması III MDB Oyunlarının qalibi adını qazanıb.**

Şəkidə keçirilən final qarşılaşmasında millimiz Özbəkistanla üz-üzə gəlib.

Görüş Azərbaycan komandasının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qolları rəqib qapısından Şahmar Nağızadə, Vahid Məmmədov və Tərlan Qurbanəliyev keçiriblər.

Qeyd edək ki, üçüncü yeri Qırğızıstan yığması tutub.

## Qılıncoynadanlarımız: 2 gümüş, 1 bürünc



**III MDB Oyunları çərçivəsində Gəncə İdman Sarayında keçirilən qılıncoynatma yarışları davam edir. Yarışlarda Azərbaycanın şpaqa üzrə oğlanlardan ibarət millisi yarımfinalda Özbəkistanla qarşılaşıb.**

Rəqibini 42:37 hesabı ilə üstələyən millimiz həlledici görüşə vəsiqə qazanıb.

Milli komandamız finalda Rusiya ilə qarşılaşıb. Qarşılaşma rəqibin 45:35 hesablı qələbəsi ilə yekunlaşıb. Beləliklə, oğlanlardan ibarət millimiz gümüş mükafata sahib çıxıb.

Azərbaycanın qılıncoynatmanın sablya növü üzrə qızlardan ibarət birinci komandası III MDB Oyunlarında 2-ci yerə çıxıb. Finalda Rusiya komandasına məğlub olan yığmamız (35:45) gümüş mükafatla kifayətlənib.

Azərbaycanın ikinci komandası isə yarımfinalda uduzaraq bürünc mükafata sahib çıxıb.

## Bədii gimnastlarımız: gümüş və bürünc




**Azərbaycan gimnastları III MDB Oyunlarında komanda hesabında üçüncü yeri tutub. Şəkidə baş tutan yarışlarda Nur Sadıqova, Şəms Ağahüseynova, Fidan Qurbanlı və Azadə Atakişiyevadan ibarət kollektiv bürünc medal qazanıb.**

Azərbaycan bədii gimnastı Azadə Atakişiyeva çoxnövçülükdə ikinci yeri tutub.



Bundan başqa, Azərbaycanın iki bədii gimnastı da finala vəsiqə qazanıb.

Şəms Ağahüseynova lentlərlə, Fidan Qurbanlı isə gürzlərlə çıxışda adını finala yazdırıb.

Qeyd edək ki, III MDB Oyunlarında bədii gimnastika yarışlarına bu gün yekun vurulacaq.

## Güləşçilərimiz: 3 qızıl, 2 gümüş, 1 bürünc

**Gəncə İdman Kompleksində təşkil olunan III MDB Oyunlarında yunan-Roma güləşi üzrə yarışlar keçirilir. Azərbaycan təmsilçisi Elşad Abbasov (51 kiloqram) finalda belaruslu Tsimafey Semianenka ilə qarşılaşıb. Rəqibinə 6:0 hesabı ilə qalib gələn idmançımız qızıl medal qazanıb.**

Azərbaycanın 60 kiloqramdakı təmsilçisi Əli Nəzərov final qarşılaşmasında rusiyalı rəqibi İvan Kozlovu 2:1 hesabı ilə məğlub edərək qızıl medala sahib çıxıb.

71 kiloqramda təmsilçimiz İslam Sultanov finalda belaruslu Zaxar Tserasxouya ilə qarşılaşıb. Rəqibini 3:0 hesabı ilə məğlub edən idmançımız Oyunların qalibi adını qazanıb.

Daha əvvəl Yusif Mirzəyev (48 kq) və Nicat Yeylaqaliyev (80 kq) gümüş, Hikmət Haqverdiyev (55 kq) isə bürünc mükafatı sahib çıxıblar.

*Qabil ƏLİYEV*
*XQ*

## 540 mindən çox uşaq dispanserizasiyadan keçib

**TƏBİB "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın təmin edilməsi istiqamətində tədbirləri davam etdirir.**

Uşaqların icbari dispanserizasiyası çərçivəsində cari ilin yanvar-sentyabr aylarında Bakı şəhərinin Yasamal, Səbail, Binəqədi, Nəsimi, Nərimanov, Suraxanı, Sabunçu, Xətai, Qaradağ, Nizami və Xəzər rayonları üzrə 543 min 389 uşaq icbari dispanserizasiya müayinələrinə cəlb olunub. Paytaxtın tibb müəssisələrinin heyətinin şəhərin orta ümumtəhsil, məktəbəqədər təhsil müəssisələri və xüsusi internat məktəblərində apardığı müayinələrdə həkim-pediatr, həkim-nevroloq, həkim-oftalmoloq, həkim-otorinolarinqoloq, həkim-cərrah, həkim-stomatoloq, həkim-laborant və s. ixtisaslı mütəxəssislər iştirak ediblər. Xəstəlik aşkarlanan uşaqlarla bağlı məktəb rəhbərliyinə və valideynlərə məlumat verilib.

Xatırladaq ki, Azərbaycan Prezidentinin 5 mart 2013-cü il fərmanına uyğun olaraq həyata keçirilən icbari dispanserizasiyasının məqsədi uşaqlar və məktəblilər arasında xəstələnmə, sağlamlıq məhdudluğu və ölüm səviyyəsinin azaldılmasıdır. Uşaqlar hər il bir və ya bir neçə ixtisas üzrə diaqnostik və laborator müayinələrə cəlb edilir.



*XQ*

## Beynəlxalq velosiped yarışı–"Bakı–Xankəndi"

**Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) 2026-cı il mövsümü üçün beynəlxalq yarışların təqvimini açıqlayıb. Təqvim planında gələn il mayın 10-14-ü aralığında keçiriləcək Azərbaycan velosiped yarışı da yer alır.**



Bundan sonra "Bakı–Xankəndi" Azərbaycan velosiped yarışı adlanacaq və 5 mərhələdən ibarət olacaq idman tədbiri Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyasına aiddir.

Velosiped yarışının 1-ci mərhələsində iştirakçılar Bakı–Sumqayıt, 2-ci mərhələdə Bakı–Şamaxı–İsmayıllı, 3-cü mərhələdə Qəbələ–Şəki–Qəbələ, 4-cü mərhələdə Qəbələ–Mingəçevir–Gəncə, 5-ci mərhələdə isə Naftalan–Füzuli–Şuşa–Xankəndi marşrutu üzrə hərəkət edəcəklər.

*Q.ƏLİYEV*
*XQ*

## HAVA

# Bakıda və bəzi rayonlarda hava çiskinli, yağışlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturunun gecə 16-19, gündüz 20-25 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında çiskinli olacağı, yağış yağacağı, arabir duman olacağı ehtimal edilir. Şərq küləyi əsəcək.



Havanın temperaturunun gecə 13-18, gündüz 24-29, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 2023-cü il iyunun 29-da Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Sveta Abzər qızı Xəlilovanın adına verilmiş şəhid ailəsi üzvünün 007292 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun kollektivi sabiq laboratoriya rəhbəri

**OKTAY ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1949
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00